www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxana

“Çağdaş Azərbaycan poeziyası”: N 20 (12-85 - 2016)

İdris Hacızadı

“Qayıt, əzizim”

Mənsur şeirlər və poetik əsərlər toplusu

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2017

03.05.2017
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumunun hazırladığı, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bir qismi maliyyələşdirilən, http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın "Multikultural Azərbaycan" kulturoloji-innovativ layihəsi çərçivəsində e-nəşrə hazırlanaraq yayımlanır.

Layihə çərçivəsində hazırlanan digər elektron nəşrlərimiz və e-kitablarımız burada:

http://kitabxana.net/?oper=e_kitabxana&cat=176

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi: http://mys.gov.az

Kulturoloji layihənin dəstəkləyən qurum:

Yeni Yazarlar və Sənətçilər Qurumu - http://www.yysq.org

İdris Hacızadə

“Qayıt, əzizim”

Mənsur şeirlər, lirik-poetik əsərlər toplusu

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb

Virtual redaktoru, e-nəşrə hazırlayanı:

Aydın Xan Əbilov, yazıçı-kulturoloq

Milli Virtual-Elektron Kitabxananın e-nəşri. **Bakı – 2017**



DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

İdris Hacızadə

“Qayıt, əzizim”

Mənsur şeirlər, lirik-poetik əsərlər toplusu

“MBM” nəşriyyatı. Bakı - 2015

Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2017

Rəyçi: Gülhüseyn Hüseynoğlu – xalq yazıçısı, Prezident təqaüdçüsü

Redaktor: Əbülfət Mədətoğlu, Respublikanın əməkdar jurnalisti

Rəssam: Rafiq Azəritürk

Operator: Elnarə

Korrektor: Tünzalə, "Ədalət" qəzetinin əməkdaşı

Kompüter tərtibatçısı: Qorxmaz

«Qayıt, əzizim» kitabı müəllifin 35-40 il ərzində poeziya sahəsində yaradıcılığının bir qismini özündə birləşdirir. Əsər qocaman yazıçının ömrünə calanmış bir qərinədən çox müddətdə qələmə aldığı mənsur şeirlərlə başlayır. Həmin mənsur şeirlərin nüvəsində pak və ülvi məhəbbət dayanır. Ana qədər doğma olan qoca təbiətə, Günəşə, Torpağa, bütöv Kainata, ailəyə, övlada məhəbbət!

Lirik ovqata köklənmiş şeirlər, müəllifin çoxsaylı qohumlarına, Yaxın dost və həmkarlarına, hörmət bəslədiyi ağxalatlı tibb işçilərinə həsr etdiyi şeir nümunələri də kitabda xüsusi bölmədə yer alıb. Şirin-şəkər fidan balaları unutmayan müəllif onların uşaq qəlbini poeziya dili ilə oxşamağa çalışıb. Kitab müəllifi əsərinə bir-birindən maraqlı dost haqqında bayatıları, Vətənə, elə, obaya, Qarabağa ithaf etdiyi müxtəlif şeir nümunələri, qəzəllər, eləcə də ayrı-ayrı illərdə qələmə aldığı maraqlı və təsirli hekayələri daxil etmişdir.

MƏNİM MƏNSUR ŞEİRLƏRİM

Əziz müəllimim, Azərbaycan mənsur şeirinin banisi, xalq yazıçısı Gülhüseyn Hüseynoğluna ithaf edirəm

Günəş, Torpaq, İnsan

Günəş qalxdı yatağından. Ətrafa boylandı. Tələsmədən. Aramla. Başından gəlinlik duvağını götürdü. Nazlana-nazlana. Səhərə salam verdi. Ədəblə. Ərkanla. Səhər də onun pişvazına çıxdı. Gəlişinə sevindi.

Günəş qalxdı yatağından. Ətrafa nur ələdi. Gümüşü tellərini hər yana səpələdi. Üfüq od kürəsindən don geyindi. Günəşin əksi dənizə düşdü. Günəş dənizlə görüşdü, dənizlə öpüşdü.

Günəş qalxdı yatağından. Ətrafa şəfəq saçdı. Səmaya boylandı Günəş. Şəfəqlərini sulara pay göndərdi. Sularda çimdi. Suları qızdırdı Günəş. Quşlar suya baş vurdu. Səs-

səsə verdi. Suda çimdi. Suda təmizləndi. Suda islandı quşlar. Günəş telli suda. Günəş şəfəqli suda.

Günəş qalxdı yatağından. Ətrafa boylandı. Zenitə ucaltdı. Oradan yerə baxdı. Fəxrlə. Ərklə. Zərrin şualarını torpağa çilədi. Təmənnasız, səxavətlə. Hörmətlə. Torpaq nəfəs aldı. Cana gəldi. Hərarətləndi. Buğlandı torpaq. Bərəkətləndi torpaq.

Günəş qalxdı yatağından. Ətrafa işıq saçdı. Səmaya baş vurdu. Zenitə ucaldı. Hər yeri nura qərq etdi. İnsanlara pay göndərdi Günəş. Günəş hərarətini. Günəş qüdrətini. Günəş paklığını. Günəş rəngini. Qüvvət gəldi insanların qollarına. Hərarətləndi insanların ürəkləri. Torpaqdan daha da möhkəm yapışdı insanlar. İnsan səsli, insan nəfəsli torpaqdan. Günəş hərarətli insanlar, qunc biləkli insanlar. Günəş rəngli insanlar. Torpağa bağlı insanlar.

1979.

Qayıt, əzizim!

Qayıt, əzizim, geri qayıt. Qayıt evimizə, ailəmin sevinci, başımın tacı. Qayıt, evimin işığı, otağımın yaraşığı. Gec deyil hələ. Qayıt! Bilirəm, geri qayıtmaq çətindir sənə. Çünki toxunmuşam qəlbinə. Toxunmuşam. Dönə-dönə. Qırmışam ürəyini. Bağışla məni. Üzr istəyirəm. Etiraf edirəm; günahkaram qarşında: yüz dəfə, min dəfə günahkaram. Bilməmişəm qədrini, qiymətini, yerini. Qürurunu sındırmışam, yaman sındırmışam. Bilməmişəm. Eh, nə deyim, çox şeyi bilməmişəm. Hər şeyi pulla ölçmüşəm: ailə səadətini də, ailə səmimiyyətini də, sədaqəti də, təmiz, ülvi məhəbbəti də. Sən demə, əşya hərisliyi tutubmuş gözlərimi. Əşya xəstəliyi hakim kəsilibmiş mənliyimə. Məngənəyə salıbmış daxilimi. Zahiri parıltı gözlərimi qamaşdırıbmış: pak, büllur qəlbini görə bilməmişəm. Yox, yox. Səhv etmişəm. Necə də böyük səhv!

Otağa girə bilmirəm. Yerin görünür. Hər dəqiqə. Hər saat. Qəribəm sənsiz. Sənsizdir, səssizdir evim-ocağım. Hər şey səni soruşur, səndən danışır. Gəl, gəl yapış əlimdən. Qoyma yıxılam. Əllərinin hərarətini, qollarının

gücünü, qüdrətini hiss edim saçlarımda, üz-gözümdə. Gəlişinə, gülüşünə, nəvazişinə möhtacam. Səsinə, nəfəsinə ehtiyacım var. Gəl oturaq üz-üzə, göz-gözə. Baxaq bir-birimizə. Bax, diqqətlə gözlərimə. Ürək aynamdır bu gözlər. Ürəyimi görə bilərsən bu gözlərdə. Pakdır, təmizdir o ürək: əvvəlki kimi. Orada sənin yerin var, sənin yuvan var. Ora sənsiz sənləşib. Gəl, qayıt doğma yurduna, isti yuvana, əzizim! Qayıt geri, qayıt əzizim!

1984.

İlk görüş

Görüşə tələsirəm. İlk görüşə, işdən yenicə qayıtmışam. Neftçiyəm. Mədəndə işləyirəm. Adətən, işdən yorğun qayıdıram. Bu gün isə özümü çox gümrah hiss edirəm. Uçmaq istəyirəm! Quş kimi.

İlk görüşə tələsirəm. Ürəyim də köksümə sığmaq istəmir: çırpınır - həyəcandan, sevincdən.

Saatıma baxıram. Görüş vaxtına hələ yarım saat var. Düz yarım saat. Elə bil əqrəblər də yerində sayır. Tələsmək bilmir.

Evdən çıxıram. Bir dənə də qönçələnmiş qızıl gül əlimdə. Güldən xoş ətir iyi gəlir. Çox iyləməkdən qorxuram. Qorxuram ki, ətri azala. Bəli, qorxuram.

Tələsirəm. İlk görüşə tələsirəm. Küçə ilə addımlayıram. Adamlara nəzər yetirirəm: hamı hərəkətdədir. Kimi küçə boyu başaşağı, kimi başyuxarı. Mənim tək tələsəni də var, yerişinə haram qatmaq istəməyəni də. Amma hamıdan çox deyəsən, mən tələsirəm. Bilmirəm, bəlkə mənə belə görünür.

Görüş yerinə az qalır, lap az. Bir cüt gənc qabağımdan keçir. Tələsmədən. Qayğısız körpə kimi. Şirin söhbət edə-edə. Qız oğlanın qoluna girib. Az qala başları bir-birinə toxunsun. Baxıram. Həsrətlə, daha da tələsirəm.

Artıq görüş yerinə çatıram. Dəqiqələrsə başa gəlmir. 15 dəqiqə… 10 dəqiqə…Uzun çəkən intizar dəqiqələr. Arabir gülü iyləyirəm. Onun gülünü. Ətirli gülünü.

…Dəniz kənarında var-gəl edirəm. Qarşımda füsunkar mənzərə canlanıb. Kaş rəssam olaydım! Təbiətin insanlara təmənnasız bəxş etdiyi bu gözəlliyi tərənnüm edə biləydim. Bədirlənmiş ayın gümüşü telləri Xəzərin mavi sularında nazla çimir. Ay da Xəzərin görüşünə gəlib. Mənim kimi. Aya da, Xəzərə də qibtə edirəm…

Vaxtdır. Saatın əqrəbləri səkkizin üstündə qovuşur. İntizar-intizar ətrafa boylanıram. Elə bu ara onu asta yerişindən tanıyıram. Yaxınlaşır. Dəniz küləyi onun pərişan saçlarını ehmalca oxşayır. Daraq çəkir. Onun da əlində çiçək var. Tez-tez qoxlayır. Əlindəki çiçək onun məsum baxışı kimi nüfuzedici, yanağı kimi aldır. Elə bil çiçək gözəlliyi ondan alıb.

Məcnun söyüdün altındakı skamyada otururuq. Yanaşı, lap yanaşı. Söyüdün budaqları əyilib, onun saçını, üz-gözünü qucaqlamaq istəyir, mane oluram. Budaqları

astaca kənar edirəm. O, üzümə baxır. Heyran-heyran. Gözləri gülür. Ayın dənizin üzünə səpələdiyi şəfəqlər kimi. O, mənim əlimdəki gülü iyləyir, mən onun. Sanki bütün güllərin rayihəsi ətrafımıza səpələnib. İsti nəfəsimiz bir-birinə qarışır…

Ay da, Xəzər də bizə baxır. Xəzər Aya nəsə pıçıldayır. Həzin-həzin. Ayın da şəfəqli dodaqları səyriyir. İndi onlar bizə qibtə edirlər: Ay da, Xəzər də…

1968.

Axtarma məni

Arayıb-axtarma, özünü yorma, kimsədən sorma məni. Nə xeyri? Əbəsdir bu cəhdin. Nəyə lazım bu canfəşanlıq? Onsuz da tapa bilməzsən məni. Heç yanda tapa bilməzsən. Heç yanda. Göyün yeddinci qatına çıxsan da.

Arayıb-axtarma, özünü yorma, kimsədən sorma məni: nə qışda, nə payızda, nə yayda, nə də yazda. Yoxam artıq sənincin. Çoxdan yoxam. Göyə uçmuşammı, yerə batmışammı – hara qeyb olmuşam? Nə dəxli? Nəyə gərəkdir bu yersiz təşviş? Kimə lazım bu cəhdin, bu axtarış?

Arayıb-axtarma, özünü yorma, kimsədən sorma məni. Onsuz da tapa bilməzsən. Uzaqdayam. Çox uzaqda. Böyük bir məsafə var aramızda: Yerlə Göy qədər. Uca dağlar, keçilməz dərələr, intəhasız dənizlər ayırır bizi. Buzlu okeanlar sədd çəkib aramıza. Özün yaratmısan bu buz okeanlarını. Soyuq qəlbindən əmələ gəlib bu keçilməz buzlaqlar, bu buz yollar.

Arayıb-axtarma, özünü yorma, kimsədən sorma məni. Xeyri yoxdur onsuz da. Yetər nazınla oynadığım:

şıltaqlığına dözdüyüm, hikkənə, ədana tab gətirdiyim. Bu illər ərzində səndən nə gördüm ki?! Yalnız və yalnız soyuqluq, biganəlik, laqeydlik. Qəlbin soyuq. Baxışların donuq. İddian böyük. Harınlıq yuvasıdır qəlb evin. Qaranlıq komadır ora: uçuq, kasıb, darısqal bir koma.

Yetər artıq. Yetər. Bir daha axtarma, özünü əbəs yorma, kimsədən sorma məni. Baş tutmaz bu cəhd. Qorxuram: biganəlikdən, soyuqluqdan. Donmaqdan qorxuram. Dondurar varlığımı o soyuqluq, o biganəlik. Qorxuram. Yaman qorxuram: biganəlikdən, laqeydlikdən…

1985

Taleyimi sənə tapşırıram

Taleyimi sənə tapşırıram. Sənə etibar edirəm onu. Qəlbimi də üstəlik verirəm. Al, apar. Qoy sənin olsun. Sənin qismətindir ürəyim. Yetər bu çağa kimi eşqimizi gizli saxladığımız. Gizli alışıb-yandığımız. Bəs deyilmi bu uzun sınaqlar? İllər keçir axı! Geri dönmür bir də. Öz işini görür. Heç bizdən soruşmur da.

Gəl son qoyaq üzüntülü intizara. Birdəfəlik onunla vidalaşaq. Qovuşaq daha. Birləşsin qəlbimiz. Həmişəlik.

Qoy məhəbbət yar olsun bizə. Qüvvət versin qollarımıza. Bizim sınaqdan çıxmış təmiz məhəbbətimiz. Pak, dözümlü məhəbbətimiz. Qoy səadətə qovuşdursun. Ağ günlərə aparsın bizi.

Verək əl-ələ. Əlbir olaq. Qataq səsimizi bu gen dünyamızda sevənlərin səsinə. Birgə coşaq-çağlayaq. Kam alaq həyatdan. Şaqraq səsimiz yayılsın uzaqlara. Yerə-göyə, asimana. Hamı qibtə etsin bizə. Dözümlü, pak məhəbbətimizə. Sınaqlardan çıxmış ülvi məhəbbətimizə. Hər cür borandan-tufandan üzüağ çıxmış üzüağ eşqimiz.

Taleyimi sənə tapşırıram. Sənə etibar edirəm onu. Qəlbimi də üstəlik. Al, apar. Qoy sənin olsun!

1970

Qıza elçi gəldi…

Qıza elçi gəldi. El adətilə. Ana qarşıladı gələnləri. Dəvət etdi içəri. Amma çox soyuq. Qaşqabaqlı. Namehriban. İncidilər elçilər. İncidilər anadan, onun soyuq münasiətindən. Ancaq üzə vurmadılar. Oturdular. Bir-biri ilə baxışdılar. Sükut çökdü araya. Bir xeyli beləcə davam etdi. Axır ki elçilərin ağsaqqalı pozdu bu lal sükutu. Açdı mətləbi. Bu gəlişin səbəbini anlatdı. Oğlandan danışdılar. Qızdan söz saldılar. Yaxşı tanıyırdılar hər ikisini. Elə ana da pis tanımırdı oğlanı. Qonşu məhəllədə yaşayırdı o. Di gəl ki ana rədd cavabı verdi elçilərə. "Qızım uşaqdır hələ, - dedi. - Təzəcə vurub ali məktəbi başa. Bir də oğlan gərək qızıma layiq ola. Fəhlə nəkarədir çıxsın qızımın qabağına? Dünyanın axırı deyil ha…"

Qız da eşitdi bu əhvalatı. Qəhərləndi yaman. İçin-için qovruldu qız. Dişi bağırsağını kəsirdi onun. Lakin nə edə bilərdi, qız? Aciz idi ana hökmü qarşısında. Ağ olmayacaqdı ki anaya? Çıxa bilərdimi sözündən? Həya pərdəsini götürəcəkdimi qız, aradan? Əsla yox!

Geri qayıtdı elçilər. Kor-peşman. Oxları daşa dəymişdi onların.

…Qıza elçi gəldi. El adəti ilə. Yenə ana çıxdı qapıya. Qarşıladı qonaqları. Əvvəlki tək: soyuq. Qaşqabaqlı. Namehriban. Tanıyırdı gələnləri. Bilirdi mətləblərini. Niyyətlərindən xəbərdar idi arvad. Yenə sinəsini verdi qabağa. Qoymadı elçiləri ağızlarını açmağa. Qalxdı ayağa, nə qalxdı. "Tanıyıram oğlanı. Sizdən də yaxşı, - dedi. Pis oğlan deyil. Di gəl ki quru maaşa baxır. Mən deyən kimi çıxa bilməz qarşıma. Tələblərimə cavab verə bilməz əsla. Zəhmət çəkib qız böyütmüşəm. Oxutmuşam. Ali təhsil vermişəm ona. Dostdan çox düşmənim var mənim. Qərəz, baş tutmaz bu sevda. Bunu bəri başdan yaxşı bilin siz. Budur, sözümün canı…"

Beləcə, keçdi günlər. Ötdü fəsillər. Dolandı illər. Gəldi elçilər. Getdi elçilər. Neçə dəfə döyüldü qız qapısı. Neçə dəfə gediş-gəliş oldu. Ancaq ana yumşalmadı. Heç cür ipə-sapa yatmadı. Dönmədi inadından. Hikkəsindən-hökmündən. Hər gələnə bir irad tutdu. Yeni tələblə çıxdı elçilərin qarşısına. Böyüdü, artdı, şişdi iştahı. Tamahı üstələdi hər şeyi.

Sovuşdu vaxt – vədə. Ay-aya çalandı. İl-ilə qovuşdu. Qız qapısı döyülmədi bir də. Elçilər ayaqlarını kəsdilər qız qapısından. Son qoyuldu gediş-gəlişə.

Günlərin bir günü zilləndi ananın gözləri qızının qar ələnmiş saçlarına. Diqqət kəsildi illərin qırış açmış üzünə. Qarşılaşdı ana ilə qızın baxışları. Özünü itirdi ana. Yaman itirdi. Dözə bilmədi qızının baxışlarına: məzəmmət qığılcımları alov saçırdı ordan anasının üstünə. Təşvişə düşdü ana. Sonra…

Sonra ana özü başladı qızına nişanlı axtarmağa. Vasitəçi tapmağa. Minnətçi gəzdi. Amma buna ehtiyac vardımı?! Artıq keçmişdi iş-işdən: nə qızın yaşı o yaş idi, nə həvəsi o həvəs…

1972

Qoşa qanadım mənim

Bir cüm övlad payı düşüb qismətimə. Belə bir pay kaş hamıya qismət ola. Çox razıyam taleyimdən. Çox razıyam onun mənə bəxş etdiyi qismətindən. Bəxtəvərəm bu dünyada. Bəxtəvərəm. Bəxtəvərəm mən.

Bir cür şirin-şəkər balam qoşa qolum-qanadımdır. Qoşa qolum-qanadımdır mənim məsum bir qız balam, mənim parlaq ulduz balam. Mənim bircə oğul balam, şirin-şəkər, qoğal balam. Nə qədər ki onlar vardır mən də varam. Mən onlarla nəfəs alır, onlarla da bəxtiyaram.

Bir cüt balam xəzinəmdir, sərvətimdir. Tükənməyən nemətimdir övladlarım. Mənim varım – dövlətimdir bir cüt balam. Başqa heç nə lazım deyil mənə əsla. Lazım deyil. Gözüm yoxdur bu dünyada heç bir şeydə.

Vüqar ilkim – oğul payım. İlk uğurum, ilk ovumdur, nübarımdır. Şan-şöhrətim, vüqarımdım Vüqar balam. Vüqar mənim sağ qanadım – sağ qolumdur. Əzəmətim, gücümdür o. Ürəyimə hərarətdir, ürəyimə qüvvətdir o.

Həyatımın baharıdır qızım mənim – Jaləm mənim. Tər bənövşəm, incigülüm, incə gülüm, yasəmənim, laləm mənim. Ondan alıb bütün güllər təravəti. Ondan alıb

incəliyi. Bircə məsum baxışını dəyişmərəm bu cahana. Bircə incə gülüşünü dəyişmərəm mən heç nəyə. Dəyişmərəm. Heç bir zaman. O güləndə çiçək açır, bahar gülür şən qızımın gözlərində. Həyat gülür, dünya gülür gülüşündə.

Mənim qızım bu həyatın təbəssümü, günəşidir. Bu həyatın sevincidir. Mənim Jaləm sol qanadım – sol qolumdur. Köksüm altda hey döyünən ürəyimdir, solmaz arzum – diləyimdir.

Bir cüt şirin-şəkər balam qoşa qolum-qanadımdır. Qoşa qolum – qanadımdır mənim məsum bir qız balam, mənim bircə oğul balam…

1980.

Yaxşılıq

(Oğlum Vüqar üçün)

Yaxşılıq et, oğul. Yaxşılıq et dünyada. Bacardığın qədər. Hamıya, hər kəsə. Hamının, hər kəsin ehtiyacı var yaxşılığa. Əl tutmaq Əlidən qalıb – deyiblər.

Yaxşılıq et, oğul. İtməz etdiyin yaxşılıq. Yoxa çıxmaz, ölməz, unudulmaz heç vaxt. Onu da bil amma: yanaşı addımlayır yaxşılıqla pislik. Yaxşılarla naqislər kimi. Axı dünyada pislər də, naqislər də çoxdur. Yaxşılar da az deyil əsla. Qat-qat çoxdur pislərdən, naqislərdən. Elə yaxşılara söykənməyibmi, onlara arxalanmayıbmı bu əmmalı, qoca dünya? Yoxsa məhv olardı, öz məhvərindən çıxa bilərdi o.

Bir də ehtiyatlı ol həyatda, oğul! Bacar yaxşını pisdən, naqisdən, yaxşıları pislərdən, naqislərdən ayırmağı. Çox mühüm şərtdir bu. «Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq Hər kişinin…» Ataların bu hikmətini unutma heç vaxt.

Ehtiyatlı ol, hər papaq qoyana uyma, oğul. Yaxşıları ara, çat onlara. Cərgələrinə qoşul. Birgə addımla onlarla. Qoymazlar darda səni. Öyrən yaxşılardan: əsl kişi kimi

yaşamağı da, dünyada yaxşılıq etməyi də. Elə naqislərə nifrət bəsləməyi də bacar.

Bir şeyi də unutma: etdiyin yaxşılığı heç vaxt vurma üzə, soxma gözə, başa qaxınc etmə, bala. Gözləmə əvəz. Umma təmənna. Vaxt gələr, çıxar qarşına. Özü tapar səni etdiyin yaxşılıq. Tapar səni harda olsan. Tapar gec-tez. Tapar, oğul, tapar!

1979

Elə bilirdim ki…

Elə bilirdim ki, qəlbimin məhəbbət simi düşüb kökdən. Bir də köklənməyəcək. Könül rübabım dilə gəlib məhəbbət nəğməsi çalmayacaq. Sevda gəmim haradasa daşlara toxunub parçalanıb artıq. Vüsal sahilinə gedib çıxa bilməyəcək.

Elə bilirdim ki, illər işini görüb də. Ömrün xəzan fəslinə qədəm qoymuşam. Bahar çağım üz döndərib məndən. Sevdalı vədələr sovuşub gedib. Elə bilirdim ki, ürək təpərdən düşüb. Soyuyur yavaş-yavaş. Onu qızdıran tapılmaz daha.

Elə bilirdim ki…

Görünür, mən deyən kimi deyilmiş. Bədgüman olmağım əbəs imiş. Sən demə, məhəbbətin yaşı olmazmış. Məhəbbətin yaşı yoxmuş əzəldən. O, həmişəcavanmış. Vaxtsız-vədəsiz gəlirmiş. Səssiz-səmirsiz çulğayırmış qəlbi. Ürəkdə gizli tələtüm yaradırmış.

Bütün bunları sən mənə anlatdın, sən. Şübhələrimi sən pərən-pərən saldın, əzizim. Gümanlarımı həqiqətə çevirən sən oldun, gülüm. Sənlə ilk tanışlıq, ilk unudulmaz görüş kifayət etdi hər ikimizə. Əllərinin hərarəti dərhal

qızdırdı məni. Qəlbimdə yeni duyğu baş qaldırdı. İlk baxışdan aydın, pak gözlərindən qəlbimə ilıq bir nur seli axdı. Daxilimdəki lal sükutu pozdu. Şübhə buzlarını əritdi. Yerinə hərarət doldu. Şəfəqli gözlərin, nurlu təbəssümün cəsarət, cürət bəxş etdi mənə.

Yenidən kökləndi qəlbimin məhəbbət simi. Könül rübabım çaldı əvvəlki ahəngi ilə. Məhəbbət gəmim tapdı ünvanını: lövbər saldı vüsal sahilində.

Nə yaxşı taleyin qisməti varmış! Nə yaxşı qismətimə sən çıxdın, gülüm. Yeni həyat bəxş etdin mənə. Nə yaxşı həyatda məhəbbət varmış! Və nə yaxşı ki məhəbbət həmişəcavanmış. Yaşı bilinməzmiş onun…

Ümid

İzinə düşmüşəm. Gəzirəm ardınca. Axtarıram səni, ümid. Adınla yaşayıram sənin. Sənə beləcə bağlanmışam. Beləcə bel bağlamışam, sənə.

Yolumun üstündəsən. Bir dəqiqəm də sənsiz ötmür. Bir anım sənsiz olmur. Olmayacaq da, ümidim mənim!

İzinə düşmüşəm. Gəzirəm ardınca. Axtarıram səni. Sabahım səninlə açılır. Günüm adınla bağlıdır. Gümanım sənədir mənim. Yolumun ağzındasan. Səndən keçir ömür yolum: gün-gün, fəsil-fəsil, il-il. Yolumun başlanğıcındasan: arzularıma aparan yolumun başlanğıcında. İnanıram, ürəkdən inanıram: arzuma çatdıracaqsan məni. Hasil olacaq mətləbim. Mütləq olacaq. Gec-tezliyi var ancaq. Hələliksə yol gedirəm. Yoldayam hələ. Arzularımın ardınca gedirəm.

İzinə düşmüşəm. Gəzirəm ardınca. Axtarıram səni. Beləcə adınla yaşayıram sənin. İllər də işini görür amma: bir-birini qovduqca uzaqlaşır məndən. «Ömür keçir – gün keçir». Saçlara da qar ələnir. Ancaq nə qəm: sən ki mənimləsən. Səni ki itirmirəm mən. İtirmərəm də əsla. İtirsəm səni – necə yaşayaram bəs? Onda hər şeyi itirmiş

olaram ki! Nə olsun arzu deyilsən hələ! Başlıcası odur ki, inanıram sənə. Varlığım kimi. Bəli, inanıram, arzulu ümidim mənim. Həmişə də inanacağam. İnanacağam varlığına, gücünə sənin. Ümidverən adınla yaşayıram axı. Belə də yaşayacağam. Təki ürəkdə təpər olsun, dözüm olsun. Hələ ki var bu dözüm, bu təpər. Olacaq da. Çünki ümid işığında yaşayıram mən. Sənin işığında, ümidim mənim!

1979

İnan qayıdacağıma

Gedirəm. Uzaqlaşıram səndən. Hara gedirəm? Düzü, hələ özüm də bilmirəm. Bir də dünya böyük, dünya hüdudsuz, dünya gözəl.

Gedirəm, əzizim, gedirəm. Uzaqlaşıram səndən. Çətin yollar gözləyir məni: ucsuz-bucaqsız, nəhayətsiz dənizləri keçməliyəm, sərt, sıldırım qayalıqları aşmalıyam. Dənizləri də keçəcəyəm, dağları da aşacağam. Təki sən inan mənə. İnan qayıdacağıma. Qayıdacağam da. Özü də həmişəlik. Gəlib yanında qalacağam ondan sonra. İnan bu sözlərimə. İnan mənə. Özün də inamla yaşa həmişə, əzizim. Yalnız inamla. İnsanı arzuya, istəyə çatdıran, qovuşduran odur o. İnan arzunun həqiqətə çevriləcəyinə. Həqiqətin özünə inan!

İnan ulu göylərə. İnan Aya, Günəşə. Ulduzlar kəhkəşanına inan. İnan sayrışan ulduzlara. Sabahın açılmasını intizarla gözləyən gecələrin qəribliyinə. İnan mas-mavi dənizlərə. Xəzər timsallı arzular dənizinə. İnan dənizlərin qırçın ləpələrinə: qovuşmaq üçün sahillərə çırpınan ləpələrə. İnan köpüklü suların qoynunda əbədi məskən salmış qağayılara. Sulara həyan olan qığıltılı qağayılara. Azmış gəmilərə yol göstərən vəfalı qağayılara.

İnan onların dəniz haraylı, dəniz nəfəsli nəğməsinə. İnan təbiətin min bir möcüzəsi olan bakirə, qənirsiz bahara. Onun məsumluğuna, paklığına inan. İnan bolluq fəsli payıza: qızılı donlu xınalı payıza. Payız yarpaqlarının həzin, kövrək xışıltısına inan. İnan payızda isti ölkələrə köç edən qərib durnalara. Onların həzin, qəmli nəğmələrinə. İnan durnaların qayıdacağına.

İnan açılan bakirə səhərə. Sabahın nuruna inan. İnan al şəfəqlərə. Sübhün bənzərsiz gözəlliyinə, əlçatmaz, ünyetməz üfüqlərə inan. İnan taleyə, qismətə. Ülvi məhəbbətə inan. Bütün bunlara inansan – mənə də inanarsan, əzizim. Yəqin bilirəm-inanarsan. Elə qayıdacağıma da.

İnan, gülüm, inan mənə. İnan qayıdacağıma. Bil ki mütləq qayıdacağam. Özü də həmişəlik. Bəli, həmişəlik qayıdacağam, əzizim. Həmişəlik. Qayıdacağam. Qayıdacağam…

1979

Hardasan, harda?

Xeyli vaxtdır axtarıram səni mən. Gecə-gündüz: fasiləsiz-aramsız. Gündüzlər şəhərin gur yerində. Adamların arasında gözlərim dörd olubdur. Gecələrsə yuxumda. Xeyri yoxdur, mənə təkcə axtarışlar qalıb.

Səni görmək istəyirəm: quş qanadlı o illərin arxasından. Ah, ünyetməz, o əlçatmaz illərə mən necə gedim-bilmirəm. Bu həsrətdə hey qovruluram-qovruluram. Tələbəlik illərini yada salıram. O şirinli-acılı illəri, təqaüdə möhtac, bir qarnı tox, bir qarnı ac tələbəlik illərini!

Kaş bu, mümkün olaydı, kaş!... Kaş o günlər bir də geri dönəydi, kaş!. Kaş yenidən başlayaydıq o günlərə səninlə biz ikimiz! Kaş bu həyat yollarında bir ikimiz qalaydıq.

…Kaş yenə də tənəffüsdə dəhlizdə dayanaydıq üz-üzə. Qəlbimizi oxuyaydı bir cüt baxışımız. Asta-asta. Hamıdan gec auditoriyaya girəydik. Hər ikimiz: sakit, səssiz-səmirsiz. Oturaydıq eyni parta arxasında yanaşı. Duraydıq da yenə göz-gözə. Görüşəydi gözlərimiz doyunca. Bir-birinə toxunaydı əllərimiz astaca.

Gözləyəydik zəngin vurulmasını. Bayıra da hamıdan gec çıxaydıq.

…Evə də qoşa yollanaydıq dərsdən sonra hər gün biz: tələsmədən. Özü də pay-piyada. Uzun yolu uzatmağa çalışaydıq. Lal sükutu yenə də sən pozaydın. Söhbətə bir körpü salaydın. Yataqxana qarşısına çatanda, baxışımız görüşəydi bir daha. Sonra da biz ayrılaydıq: istəməsək də bunu. «Sağ ol, sabaha qədər» sözlərini səndən sonra mən də təkrar edəydim.

1975

Vida görüşü

(Xalq şairi Söhrab Tahirə)

Anaya xəbər çatdı. Gözləmədiyi, qəfil, həyəcanlı bir xəbər: oğul ilə görüşə gedirdi ana. Otuz il ayrılıqdan sonra. Yuxu bildi, xəyal bildi, sual bildi bu xəbəri ana. İnana bilmədi heç cür bu xəbərə. Gah güldü, gah nəmləndi intizar ana gözləri. Sevinclə həyəcan bir-birinə qarışmışdı. Kökçündən çıxıb, quş olub-uçmaq istədi ana qəlbi. Əlləri ilə kökçünü sıxdı ana: «Farağat dur, bir belə çırpınma. Məni oğluma yetir, nəvəmə yetir, hicrana son qoyulsun, ürəyim».

Vaxt çatdı başa. Görüş kağızını aldı ana. Yenə inana bilmədi buna. Yuxu bildi, xəyal bildi bu xəbəri.

Yola düşdü ana. Görüşə gedirdi. O şair oğlu ilə. Şair oğlunun bircəciyi, əziz-xələf qızı ilə. Adını daşıdığı, amma üzünü görmədiyi, şirin ləhcəsini eşitmədiyi nəvəsi ilə. Beşiyi başında hələ layla çalmadığı nəvəsi ilə görüşəcəkdi nənə.

Yola düşdü ana. Bundan sonra başlandı əsl intizar dəqiqələr. Ana gedirdi. Dəqiqələr isə sanki yerində sayırdı. Nə uzun çəkərmiş vüsal ərəfəsi! Ürəyi üzərmiş

vüsalqabağı dəqiqələr! Heç 30 il ərzində bu qədər saata baxmamışdı həsrətli, möhnətkeş ana.

Bu da Araz çayı. Uzun illər həsrətli könüllərin hicran nəğməsini həsrətlə, həzin-həzin zümzümə edən dərdli Araz.

«Axma, Araz, axma, Araz,

İnsaf elə bizə bir az.

Cəllad kimi bir ürəyi

İki yerə bölmək olmaz».

Araz eşidir elə bil şairin bu giley-güzarını. Xəcalət çəkir. Utanır öz-özündən Araz. Ona görə belə sakit axır, axır. Eh, Arazın nə günahı?!

Arazı adlayır ana. İşıq gəlir gözlərinə. Ümid qığılcımları parlayır gözlərində.

…Bu, necə görüşdür? Bu, necə gəlişdir? Zamanın hökmünə bax! Xəyal, röya belə çevrilərmiş həqiqətə! Hicran dalğası belə qovuşarmış vüsal sahilinə!

Üç cüt əl kəmənd olub dolandı bir-birinin boynuna. Üç cüt baxış dikildi bir-birinə. Doldu-boşaldı gözlər. Sözlü-söhbətli gözlər. İslatdı bir-birinin üz-gözünü: həyəcan, intizarın göz yaşları. Vüsalın göz yaşları.

…Amansız illər işini görmüşdü. Oğul qucaqladı anasının vaxtından əvvəl bükülmüş belini. Sığalladı gümüşü saçlarını. Öpdü ananın qırışlar yuva salmış nurani üzündən: dönə-dönə. Ananın hüzurunda dağ timsallı oğlu dayanmışdı: Savalan vüqarlı şair oğlu. Necə də çətin imiş şair olmaq?! Dünyanın dərd-sərinə şərik olmaq, yanmağı da, yandırmağı da bacarmaq! Heyran kəsilmişdi ana bu səhnəyə. Donub qalmışdı. Nələr deyirdi, nələr danışırdı bu baxışlar? Səyriyən dodaqlar?

Heç kəs fikirləşmirdi ayrılıq barədə: nə oğul, nə nənə, nə də nəvə. Nə bəxtiyar idi onlar! Elə bil dünyanın bütün sevinci onların başına ələnmişdi. Bəxtiyarlıq üz-gözlərinə qonmuşdu.

…Bəxtiyar günlər nə tez başa çatdı?! Ayrılıq qabağa düşdü. Tələsdi. Körpü saldı aralığa. Yenə üç cüt əl kəmənd olub dolandı bir-birinin boynuna. Üç cüt baxış dayandı göz-gözə. Doldu-boşaldı gözlər. İslatdı bir-birinin üz-gözünü. Ayrılığın göz yaşları. Bir az da büküldü ananın qaməti. Yumağa döndü ana. Baxışlar danışdı. Lal

baxışlar. Nəvə heyrətə gəlmişdi bu səhnədən. Nələr deyirdi bu lal sükut. Səyriyən dodaqlar!

…Getdi ana. Yox, quş olub uçdu. Bir göz qırpımında. Qeybə çəkildi. Bu, necə gəliş idi? Bu, necə görüş idi? Xəyal idimi bu gəliş? Yuxu idimi bu görüş?

…Dözmədi ana qəlbi. Dözmədi bu hicrana, bu üzüntülü iztiraba. Bu, son görüş oldu. Vida görüşü.

Amma oğluna bir şey təsəlli qaldı: ana bütünlüklə qızın-nəvənin gözlərinə həkk olunmuşdu. Anasının adını daşıdığı qızının gözlərinə.

Nənə ömrünü nəvəsinə bağışlamışdı…

Bakı, 1971-ci il.

Sağ ol, bahar!

Sağ ol, bahar! Sağ ol, təbiətin qənirə gözəli. Nazlı gəlini. Fəsillərin tacı. Əzəli, gözəli bahar! Məftunam sənə. Gəlişinə. Gözəllik çağına, ilıq nəfəsinə, xoş rayihənə heyranam sənin. Çal-çağırına, qonaq-qaralı dəminə vurulmuşam, gözəl bahar!

Xoş gəlmisən, bahar! Gəlişinlə könül cilvələnir. Qəlbə yeni həvəs, yeni ruh gəlir. Gözəllər yolunu gözləyir: böyük intizarla, səbirsizliklə. Nəfəsin duyulan kimi qarşına çıxırlar sənin. Küsülülər sən gələndə qucaqlaşır, öpüşür, barışırlar. Kin-küdurətə son qoyulur. Sənə gənclik, gözəllik, ülvilik, paklıq rəmzi deyirəm, baharım mənim!

Təbiətin məsum gözəli boynubükük bənövşəyə ürkəkliyi, abır-həyanı, bakirəliyi sən pay vermisən, bahar! O, torpaqdan boylananda, torpaq da ilıq nəfəsinlə buğlanır, ona hərarət gəlir. Ana təbiət oyanır, beləcə canlı aləm yuxusundan baş qaldırır xoş gəlişinlə sənin.

Sağ ol, bahar: fəsillərin ülvisi, mehribanı, məhrəmi. Təkcə ona görə ki sevda bağına mən də sən gələndə daxil olmuşam. Sevgi duyğuları bahar çağında baş qaldırıb

qəlbimdə. Baharda qovuşmuşam ilk məhəbbətimə mən. Sağ ol, bahar. Ona görə ki səni düşünərkən sevgilimin mehriban baxışını, onun sənin ilıq nəfəsinlə yoğrulmuş məsum çöhrəsini, incə gülüşünü görürəm. Elə sevgilimin xoş təbəssümüdür məni yaşamağa səsləyən, həyata bağlayan. Sağ ol, bahar! Ona görə ki sən bəxş etmisən sevgilimə təbiətin min bir gözəlliyini: incəliyi və məsumluğu, nəvazişi və paklığı, ülviliyi və büllurluğu. Sağ ol, bahar, bütün bunlar üçün minnətdaram sənə, səxavətli, sevdalı baharım mənim!

1982

Tələsmə, ürəyim!

Həddini aşma, coşub-daşma, ürəyim! İnsaf elə, yolunu azma, ahəngini pozma, məni üzmə belə. Qorxutma məni, ürəyim! Belə erkən ağrama, iynə olub sancılma bağrıma. Rahat vur, ürəyim! Söylə bir: qəsdin nədir? imtahanmı edirsən, sınağamı çəkirsən məni? Zarafatmı düşüb başına? Nəyə lazım bu erkən gəliş, vaxtsız təşviş?

Həddini aşma, coşub-daşma, ürəyim. Belə erkən ağrama. Rahat vur, ürəyim! Bilmirsən ki, arzular dənizində üzürəm hələ? Ümman-ümman, çin-çin arzular dənizində? Hələ nə görmüşəm bu həyatda, hansı arzuya yetişmişəm mən? Bilmirsənmi nədir istəyim mənim? Dinlə, qoy deyim: çətin sınaqlardan keçməkdir. Həyatın eniş-yoxuşlarında bərkiməkdədir istəyim. Axı Vətən övladı çağırılır adım. Ona layiq vətəndaş olmalıyam mən. Bir də hələ doymamışam bu həyatdan. Vətən torpağından, yurdumun gözəlliklərindən ayrılmaq istəmirəm hələ. Yaşamaq istəyirəm mən. Möhlət ver mənə, ürəyim! Onu da bil: baba olmaq, nəvə görmək arzusundayam. Ən böyük dövlətdir axı nəvə payı. Odur ki, tələsmə hələ, mənə möhlət ver, cəsarət ver, dəyanət ver, qüvvət ver, ürəyim! Səndədir bu hikmət, səndədir bu qüdrət. Səndədir

bu təpər, bu hünər, ey köksüm altında döyünən sağ yumruğum boyda ürəyim!

Tələsmə, səbr elə, həyatımla oynama, təşvişə salma məni, ürəyim! Əlindədir taleyim. Sənə etibar edilib varlığım. Qıyma mənə, qıyma. Tezdir hələ! İnsaf elə. Tələsmə, ürəyim! Tələsmə belə. Tələsmə! Tələsmə!

1988.

Nə yaman qarğadın məni?!

Qarğadın məni. Yaman qarğadın. Yadındamı son məktubun? Oradakı bir bayatı? Cəmi dörd misralıq, amma bir dünyalıq mənası olan bir bayatı? Mənimsə yadımdadır. Yaxşı yadımdadır. Beynimə əbədi həkk olub. Son nəfəsimə qədər yaddaşımdan silinməyəcək o bayatı:

«Əzizim unutmasın,

Yar yarı unutmasın.

Məndən qeyrisin sevsən,

Sevdan bina tutmasın».

Tutmadı sevdam bina. Səndən sonra. Tutmadı. Demə, qarğamısanmış məni. O bir bənd bayatınla ovsunlamısanmış bəxti-taleyimi. Göy əskiyə düyünləmisənmiş. Qırx düyün də vurub, qırx arşınlıq dərin quyuya tullamısanmış. Batman qıfılla qıfıllamısanmış bəxtimin dilini-ağzını. Bağlayıb da qıfılı dəryaya atmısanmış. İntəhasız bir dəryaya.

O vaxtdan bəxti-taleyimin sorağındayam. Gəzirəm onu. Amma gördüm deyənə rast gəlmirəm. O vaxtdan o quyunun başına neçə dəfə fırlanmışam – demək çətindir mənim üçün. Bəlkə bir qərinəlik günlərin sayı qədər. Nə bilim, bəlkə də çox. Neçə dəfə dərya kənarına üz tutmuşam - deməyə acizəm. O ümidlə gəlmişəm ki, bəlkə o qıfılllı bəxtimi açа bildim – lakin heç bir faydası olmayıb. Kor-peşman geri qayıtmışam. Təkcə vəfalı qağayıların həzin qığıltısı, bir də dəryanın nəğməli dalğaları azca təsəlli olub qəlbimə. Beləcə, pərişan-pərişan geri dönmüşəm. Qolu qırılmış qanadsız quş kimi. Bu minvalla davam edib günlərim. Elə indinin özündə də.

Günlərin birində üz tutdum həyat gülüstanına. İstədim bir gül dərəm. İztirablarıma son qoyulsun deyə. Dərdim də. Gözümü-könlümü tutan bir gülü. Dərhal da iylədim onu. Amma duymadım ətrini-rayihəsini. Elə göz qamaşdıran parıltısı var imiş. Qəlbimi ovutmadı – ovuda bilmədi o çiçək. Mənə qəmxar olmadı – ola bilmədi. Başa düşmədi ürəyimi. Payız çiçəyi imiş demə. Tez də saralıb soldu. Yox oldu getdi. Nə izi qaldı, nə tozu.

Bir müddət də keçdi aradan. Yenə həyat gülüstanı səmtə yol aldım. İkinci dəfə. Yenə bir gül dərdim. Özü də bir ilk baharda. Qızıl gül sanmışdım onu. Eh, o da bir

yanlış oldu. Saxta çıxdı o gül də. İtburnu imiş. Əsil itburnu.

…Bir xeyli vaxt da sovuşdu aradan. İllər üst-üstə calanmışdı. Düz bir qərinəyə bərabər vaxt arxada qalmışdı. Günlərin birində haradansa «Atalar üçdən deyib» kəlamı girdi ağlıma. Özümü topladım bir az. Amma arada tərəddüd də etdim bir xeyli. Qərara gəldim axır ki. Yenə yan aldım həyat gülüstanı tərəfə. Bir gül dərdim bu dəfə də. Bir incə qönçə idi dərdiyim gül. Uzaqdan cəlb etmişdi diqqətimi. Doymaq olmurdu rayihəsindən – təzə-tər idi. Şehi də hələ üstündə. Qönçə ilk anlardan ağlımı başımdan almışdı mənim. Düşünürdüm: yaşadacaq bu qönçə məni – ömrümün axırına kimi. Ancaq belə olmadı əsla. Gecikmişdim o gülü dərməyə. Xeyli gecikmişdim. O qönçə hara, mən hara?!

Peşmançılıq mənə rahatlıq vermirdi – üçüncü dəfə cürət edib həyat gülüstanına girdiyimə görə. Qıyıb da o qönçəni dərdiyim üçün. O ki var qınadım – danladım özümü. Dəfələrlə. Gecə-gündüz. Bu da üçüncü cəhd. Bu da taleyin bir sınağı. Bu da kor bəxtim…

Bəs sən necəsən? Bilmirəm. Haradasan? Onu da deyə bilmərəm. Nəhayət, xoşbəxtsənmi? Kaş belə olaydı. Belə olaydı kaş…Sizi qoşa görəydim: bir neçə anlığa. Amma

siz məni görməyəydiniz. Ələlxüsus da sən. Bir qərinədən sonra nəyə lazımdır sənin məni görməyin? Saç-saqqalın bəyaz vədəsində bu, nə görüş olardı? Təkcə mən sizi seyr edəydim. Bir xeyli arxanızca baxaydım-baxaydım. Bəlkə bu vaxt unudaydım öz halımı – kəm bəxtimi. Elə səni də bağışlardım onda. Qınamazdım daha – məni qarğadığına görə, bəxtimi ovsunladığına – məni tilsimə saldığın üçün. O bayatını bir daha zümzümə edərdim: astaca, dodaqaltı:

Əzizim, unutmasın,

Yar-yarın unutmasın…

1987.

Qibtə

Sənə qibtə edirəm, Günəş! Misilsiz, təmənnasız səxavətinə görə. Heyranam sənə. Qəlbinin genişliyinə valehəm sənin. Hamıya eyni səxavət göstərdiyin üçün var ol, Günəş! İnsanlara işıq payladığına görə, hamının uğuruna nur səpdiyin üçün. İşığın-nurun, alovun-odun azalmasın, hərarətin tükənməsin, ulu Günəş!

Bütün canlılardan çox-çox uzaqlardasan: əlçatmaz, ünyetməz yüksəklikdə qərar tutmusan. Amma o ucalıqdan da hamını eyni gözdə görürsən. Hamıya eyni nəzərlə baxırsan. Narahat dünyamızda yaşayanların hamısına: irqindən, dini mənsubiyyətindən, dərisinin rəngindən asılı olmayan bütün bəşər övladına.

Sağ ol, Günəş, ömrün uzun olsun sənin. Yaşa, bu qoca dünyamız durduqca, yaşa beləcə. Misilsiz səxavətin, ülviyyətin bəllidir hamıya. Onunçün bəşər övladı hər an sənə səcdə edir. Baş əyir hərarətin qarşısında. Sənə and içir. Başına fırlanır sənin: gecə-gündüz, fasiləsiz-aramsız. Elə qoynunda yaşadığımız bu Yer kürəsi də. O da hey fırlanır başına. Nə yoruldum deyir, nə usandım. Belə lazımdır, Günəş! Layiqsən bu ehtirama. Adamlar kimi, Yer kürəsi də, üzərində qərar tutduğumuz ana torpaq da

sənə borcludur, Günəş! Odundan-alovundan, tükənməz hərarətindən pay verdiyin üçün. Adamlara nur bəxş etdiyinə görə.

Sağ ol, Günəş! Qızılı şüaların insanların qəlbini daim beləcə isitsin, torpağa isti nəfəs, hərarət versin. Sağ ol, Günəş, sağ ol, dünyanın bəzəyi, nuru, ulu Günəş, nurlu Günəş!

1990

Torpaqdan pay olmaz

…Hətta candan pay olar, torpaqdan yox! Yox, əsla yox!.. Torpaq heç nəyə tay tutula bilməz. Qoy yaxşı bilsin, sırğa edib qulağından assın bunu torpaq hərisləri – nankor qonşularımızı (hərgah dil də gəlmir onlara «qonşu» deməyə!) Birdəfəlik agah olsunlar ki: varlıqdır, yaşayışdır, həyatdır torpaq! Namusdur, şərəfdir, qeyrətdir torpaq! Firavanlıqdır, əvəzsiz nemətdir, sərvətdir, bəxtiyarlıqdır, səadətdir torpaq! Yüksəliş də torpaqdadır, dirçəliş də, nemət də torpaqdadır, qüdrət də. Hünər də torpaqdadır, qeyrət də!

Qoy nankor və nadanlar öz arşınları ilə ölçməsinlən hər şeyi. Axı haradan bilsinlər bu «yazıqlar» namus, qeyrət, şərəf sözlərinin həqiqi mənasın?! Nə evlərində bişib, nə də qeyrət dağarcığı olan səxavətli türk qonşularından öyrənmək, götürmək istəyiblər! Elə bir vaxt gorbagor babaları Andronik də bilmək istəmədi bu həqiqəti: torpaq alınmaz, satılmaz, bəxşiş verilməz! Müqəddəs torpaqlarımıza qarşı hərislik göstərdi. Cavabında cəzasını da aldı: tay qulaq qaldı, birtəhər aradan çıxıb Fransaya çatdıra bildi özünü.

Yağı düşmən bilmədi, bilmək istəmədi ki, qoynunda əbədi məskən salmış Babək timsallı ər babaların, Həcər qeyrətli nənələrin uyuduqları müqəddəs türbətdir, bəşər övladının səcdəgahıdır torpaq! Üstündə yaşayanların əzəli və son mənzilidir torpaq! Torpaqdan müqəddəs, torpaqdan ulu and yeri yoxdur axı! Çünki torpaqdan yaranan axırda da torpağa tapşırılır. Əbəs yerə torpaq uğrunda həlak olanlara şəhidlər demirlər ki! Qeyrət rəmzi, torpaq rəmzi, ölməzlik rəmzi olan şəhidlər!

Nə qədər ki murdar haylar müqəddəs torpaqlarımızda gəzir, onu ləkələyir, məkrli ayaq izləri bu torpağı narahat edir, rahat nəfəs ala bilməz halallıq rəmzi olan torpaqlarımız, üzü gülməz mərd oğul və qızlarımızın, namuslu ana və bacılarımızın!

Vəbasınız, bu dünyamızı dolaşırsınız – fitnə-fəsad toxumu səpən nagahan bəlasınız. Aləmi zəhərləyirsiniz – keçici xəstəlik kimi! Murdar caynaqlarınız kök atıb başqalarının torpaqlarına. «Zavallı», «yazıq» millət deyə-deyə hər yerdə acı göz yaşları axıtmaq vərdişinizə çevrilib artıq. Quzuya da dönürsünüz yeri gələndə – canavar dərisinə girmiş quzuya. Mötəbər məclislərdə dəmtutanlarınızın köməyilə aləmə car çəkmək üçün dəridən-qabıqdan çıxırsınız siz. Əslində isə qəddarlığınız – heç bir ölçü-biçiyə, əndazəyə gəlməz vəhşi

hərəkətləriniz adamda sizi ana doğduğuna şübhə oyadır bəzən. Xocalı soyqırımı – dünyanın bu ən böyük faciəsi bunu bir daha sübut etmirmi?!

Yetər artıq! Yetər məkrli niyyətlərinizlə ah-nalə qopardığınız. Açılıb paxırınızın üstü, çirkin, mənfur içiniz üzə çıxıb daha. Qoca tarix həqiqət pərdəsini cırıb töküb. Sağlam zəka qabağa düşüb bu gün. Ağı qaradan seçməyə başlayıb xeyirxah insanlar. Keçməz daha dəmtutanlarınızın üzərinizdə etdiyi qəyyumluğu. Hiylə dağarcığınız şişib - partlamaq üzrədir. Eyiblәriniz çıxıb üzə. Yaman çıxıb. Torpaq iddialarınız baş tutmayacaq bundan belə. Baş tutmayacaq əsla. Uduzmusunuz, vallah, billah uduzmusunuz! Zori Balayanlar, Şaxnazaryanlar, Silva Kaputikyanlar, Serj Sarkisyanlar, Robert Koçaryanlar...dünya qarşısında cavab verəcəklər. Onlar dar ağacından asılmağa layiqdirlər…

İyul 1993.

LİRİK DUYĞULU ŞEİRLƏR

Söylə bir nə etdin?!

Ağlatdın içimi. Dənizə döndü,

Hicran pərvanəsi çiynimə qondu.

Eh, son ümidim də beləcə söndü –

Söylə bir nə etdin, söylə, vəfasız?!

O şəhla gözlərin gör kimə baxır,

Həsrət qılıncını köksümə taxır.

Belə olduğunu bilirdim axır –

Söylə bir nə etdin, söylə, vəfasız?!

Gözəlliyin tutdu öz gözlərini,

Əşya hərisliyi düz gözlərini.

Hələ naz-qəmzəylə süz gözlərini,

Söylə bir nə etdin, söylə, vəfasız?!

Idrisin naləsi tez tutar səni,

Sahilsiz dənizə tez atar səni,

Bəs onda neylərsən, başa sal məni,

Söylə bir nə etdin, söylə, vəfasız?!

2001-ci il.

Qayıtdın könül evimə

Bilirdim onsuz da qayıdacaqsan,

Dözə bilməz idin bu ayrılığa.

Sevdasız yaşamaq – işgəncə, zindan…

Sevilənlər düşməsinlər uzağa.

Nə yaxşı qayıtdın könül evimə,

Yenə də Yer üzü nura boyandı.

Şıltaqlıq eyləyib dəydin qəlbimə,

Günahsız ürəyim alışıb yandı.

…Nə yaxşı qayıtdıq könül evimə,

Nə yaxşı hicranı yaxın qoymadın.

Kimə söyləyərdim dərdimi, kimə?

Yazılıb köksümün gözünə adın.

Hələ köksüm altda ürək döyünür,

Adın da orada yaşayacaqdır.

Heç zaman sönməyə qoymaram səni

Ürəyim alışan oddur, ocaqdır.

2 iyul, 1992-ci il.

Sən küsəndə

Yenə niyə küsdün, sözüm-söhbətim?

Məsum baxışını çevirmə yana.

Ürək hərarətim, gücüm-qüvvətim,

Rəvamı qüssədən qəlbim odlana?

Yenə niyə küsdün, ürək həmdəmim?

Gözucu baxmadın evə gələndə.

Axı sənsən mənim sevincim-qəmim,

Dünya gülür sən üzümə güləndə.

Yenə niyə küsdün, arzum-həvəsim?

Güman etmə küsmək sənə yaraşır.

Duyğum-hissim, mənim isti nəfəsim,

Sən küsəndə dünya başıma aşır.

Tez-tez küsmə, sükut salma araya,

Sən susanda sanki aləm dayanır.

Razı olma qalmaqala, haraya,

Söz-söhbətdən qəlb odlanır, qəlb yanır.

Bu umu-küsülər çox uzanmasın,

Rəqib kam almasın bu gündə bizdən.

«Ayrılıq heç kəsə qismət olmasın»,

Heç vaxt ayrılmayaq bir-birimizdən.

10.04.96.

Yanım gözlərində

İstədim bir həftə görməyim səni,

İstədim bu yolla səndən soyuyum.

Yoxsa hər görəndə qəlbimin simi

Az qala qırıla, ay mənim yavrum.

Nə edim: özümlə bacarammadım,

Gözlərim arayıb tez tapdı səni.

Axı sənsən mənim qolum-qanadım,

Özün de, unutmaq olarmı səni?

Gəl otur yanımda, baxım gözünə,

Alışım gözündə, yanım gözündə.

Soyuya bilmərəm səndən heç zaman

Soyusam, düşərəm sənin gözündən.

Məndən xoşbəxt yoxdur bu Yer üzündə.

10 may, 2001

Bu Sevinc nə gözəlləşib?

Ay aman, bu Sevinc nə gözəlləşib?

Şirin, mələhətli, incə qız olub.

Bu bahar gələli necə dəyişib

Bilirsiz o, necə, necə qız olub?

Üz-gözünə bahar çəkib sığalı,

Boyayıbdır yanağını çiçəklər.

Dilinə qatıbdır qəndi-noğulu,

Tellərini darayıbdır küləklər.

Qara qıvrım tellər göz oxşayır, göz,

İncə qamətinə yaraşır kəmər.

Onu vəsf etməyə söz tapmıram, söz,

Gül üzü görməsin qüssə, qəm, kədər.

Gülümsəyib dodaqları qaçanda,

Çöhrəsinə bahar qonur, gül açır.

Kəpənəklər güllər üstə uçanda,

Sevincin xoş arzuları dil açır.

İncəlikdən yoğrulubdur mayası,

Gözü incə, üzü incə Sevincin.

Neçə gəncin qəlbinə od salası,

Bədən incə, özü incə Sevincin.

Ay aman, bu Sevinc necə gözəldir?

O ala gözləri gör necə gülür?

Oğlanlar, növbəyə düzülün bir-bir,

Görək kim qəlbini ovlaya bilir…

8.07.96.

Bu payız toyunu görək

(Gözəllər gözəli Fatma üçün)

Yenə bahar gəlib, hər yan gül-çiçək,
Sən də Gülüstanda çiçəksən, Fatma!
Darayır telini bahar nəsimi,
Özün də bahara bəzəksən, Fatma!

Zəka dəryasısan uşaq yaşından,
Daim seçilirsən yar-yoldaşından.
Tanınsa da hər bir üzük qaşından,
Sən də nəslimizə gərəksən, Fatma!

Hər gözələ tay bilmirəm səni mən,
İnan gözəlliyin enib göylərdən.

Ülvi məhəbbətdən don geyinmisən,

Arzu dolu coşğun ürəksək, Fatma!

Büllurdan yoğrulub boyun, qamətin,

Hər yerdə deyilir sözün-söhbətin,

Yüz kişiyə bərabərdir qeyrətin –

Türfə gözəllərə örnəksən, Fatma!

Halal süd əmmisən halal anandan,

Nə bilər qədrini sənin hər nadan?

Qoy çıxsın qarşına ağ atlı oğlan –

Bu payız da toyunu görək, Fatma!

5.5.2015

Təki bizə gələsən

Yollara gül düzərəm,

Təki bizə gələsən.

Hey arxanca gəzərəm,

Təki bizə gələsən.

Qaranquş verər xəbər,

Ulduzlar yerə enər.

Ürəyim dağa dönər,

Təki bizə gələsən.

Noğul-şəkər paylaram,

Göyləri haraylaram.

Nə qədər ki mən varam,

Təki bizə gələsən.

Həsrət kəməndə düşər,

Yoxa çıxar xata-şər.

Gör bir könlüm nə istər -

Təki bizə gələsən.

Yol üstə dayanmışam,

Əlimdə də bir cüt şam.

Fərq etməz səhər-axşam,

Təki bizə gələsən.

Təki bizə gələsən.

4.7.97.

O qara gözlərin bəsimdir mənim

Bu dünyanın hər üzünü görmüşəm,

Həm qışını, həm yazını görmüşəm.

Həm çoxunu, həm azını görmüşəm,

Toxdur gözüm, bu, düz sözümdür mənim

O qara gözlərin bəsimdir mənim.

Çırpılmışam hər qayaya, hər daşa,

Çox durmuşam taleyimlə savaşa.

Ölümlə aramda gedib tamaşa,

Qismətimə düşən dözümdür mənim,

O qara gözlərin bəsimdir mənim.

Bu günsə qış darvazamı alıbdır,

Bahar ömrüm artıq vaxtsız solubdur.

Nə qaldı ki? Artıq olan olubdur

Qalan təkcə, təkcə izimdir mənim,

O qara gözlərin bəsimdir mənim.

O gözlərlə bu dünyaya baxıram,

Ulduzlara, günə, aya baxıram.

Gözlərinlə ürəyinə baxıram

O gözlərin elə gözümdür mənim

O qara gözlərin bəsimdir mənim.

15 noyabr, 2001.

Yan getmə

İnsafa gəl, kifayətdir, kifayət,

Ürəyimi qətrə-qətrə əritmə.

Hər an səndən gözləyirəm mərhəmət,

Bir bəri bax, üz çevirmə, yan getmə.

Nə müddətdir baxışına, üzünə,

Şaxta qonub, qırov qonub, qar qonub.

Gəl utanma, suçumu de üzümə,

Bəlkə elə üzün məndən düz dönüb?

Xoş söz söylə, qırışların açılsın,

İçim donur sən susanda, küsəndə.

Tək səni bilmişəm baharım, yazım –

Çovğun, boran aramızı kəsəndə.

Şıltaqlığın üzər məni, tez üzər,

Onsuz da dünyamız qüssədir, qəmdir.

Ətrafa bax, sevənlərə sal nəzər:

Hamı gülür, mənim gözlərim nəmdir.

Bilmirsən ki, varlığımı almısan?

Gəl qınama, eşqimi ucuz tutma.

Səni sevdiyimi sanma qəbahət,

Sənin əsirinəm – bunu unutma…

2.10.92.

Kədərlənmə, sevgilim

Kədərlənmə, sevgilim,

Həyat gözəldir, gülüm.

Öt qarşımda, bülbülüm –

Qəm görməsin könüllər.

Şənlən, gül səhər-axşam,

Dayanmır – gedir zaman.

Ömür keçir, ay aman -

İşini görür illər.

Kol basdıraq, gül əkək,

Güllərdən çələng hörək.

Bu geniş dünyamızı

Laləzara döndərək –

Yorulmasın gül əllər.

Həyat bizə yar olsun,

Düşmənimiz xar olsun.

Ömürlər bahar olsun –

Açsın təzə-tər güllər,

Açsın təzə-tər güllər.

1.5.96

Gəl yapış əllərimdən

And verirəm günə, aya,

Yox etibar bu dünyaya.

And verirəm haqqa-saya –

Dur gəl, yapış əllərimdən,

Qurtar möhnətdən məni sən.

Bəsdir hicran üzdü bizi,

Gendən baxıb süzdü bizi,

Tutdu: üzdü, üzdü bizi,

Dur gəl, yapış əllərimdən,

Qurtar möhnətdən məni sən.

Qanad açıb uçur illər,

Uzaqlaşıb köçür illər.

Ağ don geyir qara tellər –

Dur gəl, yapış əllərimdən,

Qurtar möhnətdən məni sən.

Tükənibdir səbir daha,

Ömür ucuz, rüzigar baha.

Bax Tanrıya, bax Allaha –

Dur gəl, yapış əllərimdən,

Qurtar möhnətdən məni sən.

15.04.2001.

Ürək çalan gözlər

Ulduzmu parlayır gözlərində, qız?

Bəli, o gözlərdə yatır kəhkəşan.

Baxım gözlərinə, baxım qış-payız,

Qoy yandırsın məni hər vaxt, hər zaman.

Ulduzmu gözlərin, parlayır par-par,

Söylə, belə parlaq heç göz olarmı?

Baxdıqca qəlbimi eyləyir tar-mar,

Belə ürəkçalan heç göz olarmı?

…Məndən uzaq gəzmə, soyuyar içim,

Bax, bax, gözlərimə, alışıb-yanım.

İzin ver, daimi gözünə köçüm,

Orada əbədi heykələ dönüm.

23 oktyabr,1996.

Yüz yaşa, Rafiq müəllim!

(Milli Parkda tanış olduğum, qısa zaman kəsiyində zəngin daxili aləminə, ziyalılığına heyran qaldığım Rafiq Məlikova həsr edirəm)

Neçə sınaqlardan çıxdın üzüağ,

İnsanlara oldun sən işıq, mayak.

Fəxr edir adınla anamız torpaq,

Şərəflə yaşadın, Rafiq müəllim,

Eldə gəzir adın, Rafiq müəllim.

Kübarlılıq oxunur, üz-gözündən,

Doymaq olmur söhbətindən-sözündən.

Abır-həya süzülür gül üzündən.

Əsil ziyalısan, Rafiq müəllim,

Necə mehribansan, Rafiq müəllim!

Neçə məsul vəzifədə çalışdın,

Neçə əngəl, neçə maneə aşdın.

Haqq yolunda namərdlərlə savaşdın,

Ədalət carçısı, Rafiq müəllim,

Kişilərin xası, Rafiq müəllim!

Şirin Bakı ləhcən şəkər, bal dadır,

Çinar boyun necə gözəl aldadır,

Sadiq dostlar sağında, solundadır.

Bir gün dostsuz olma, Rafiq müəllim,

Daim şux qal, solma, Rafiq müəllim!

Rafiq-Rəfiq-dost deməkdir, bilirsən,

Nadanlara gülüb dodaq büzürsən.

O geniş qəlbinə əhsən, min əhsən!

Bulvara yaraşıq, Rafiq müəllim,

Bulvar sənə aşiq, Rafiq müəllim!

Yetişmisən sən müdriklik çağına,

Göz dəyməsin bostanına, tağına,

İdris vurulub zəkana, ağlına,

Yüz yaşa, yüz yaşa, Rafiq müəllim,

Arzun yetsin başa, Rafiq müəllim!

4 avqust, 2012.

İstədim

(A üçün)

İstədim ki, səni xoşbəxt eyləyəm,
Bunu bacarmadım – edə bilmədim.
İstədim car çəkəm, hamıya deyəm,
Arzu-istəyimə yetə bilmədim.

Dedim: unutdurram əzablarını,
Silləm qəlbindəki möhnət qarını.
Qovaram uzağa qəm-qübarını,
Sevinci sevincə qata bilmədim.

Dedim: süd gölündə üzdürrəm səni,

Əngin səmalarda gəzdirrəm səni,

Saysız səyahətlə bezdirrəm səni –

Həyat köhləninə yata bilmədim.

Üzümə gülmədi əzəldən baxtım,

Məndən uzaq qaçdı, vallah, hər addım.

Nə özümə, nə sənə gün ağladım –

Qəm yükünü kənar ata bilmədim.

…Məsumluq oxunur mələk üzündən,

Heç vaxt çıxmamısan, vallah, sözümdən,

Məzəmmət tökülür bəzən gözündən –

Elə bilmə bunu tuta bilmədim.

Sənsən bu dünyada məni yaşadan,

Səni mənə çox görməsin Yaradan.

Dəysin qada-balan canıma, canan –

Demə sənə qurban gedə bilmədim.

27.12.96.

Aç qollarını, yavrum!

(Türkiyədə yaşayan nəvəm Aysəma üçün)

Gəlirəm yanına, mənim Aysəmam
Qarşıla babanı, qarşıla, yavrum!
Söylə, qulağına çatırmı sədam?
Qarşıla babanı, qurbanın olum!

Gör neçə sənədir həsrətəm sənə
Hələ gül üzünü görməmişəm mən.
Qurbanam o adı sənə verənə
İpək saçlarını hörməmişəm mən.

Tək cocuq şəklini görmüşəm sənin,
Bilirəm gözlərin aladır, yavrum!

Bir də eşitmişəm körpə səsini

Bilirəm yanağın lalədir, yavrum!

Bircə qız nəvəmsən, bircə gül balam,

Səni görmək üçün tələsir ürək.

Doğma Bakımızdan İqdıra salam!

Körpə yarpaq təki bax, əsir ürək.

Gəlirəm yanına, aç qollarını,

Gəl, basım bağrıma, öpüm üzündən.

Bütün həsrətlilər vüsala yetsin,

Gülüş əskilməsin ala gözündən.

27 may, 2006

Bilikdir dövlət-var, Cahan!

(Sevimli Elxanla mehriban Tünzalənin nübar nəvəsi Cahan bala üçün)

Xəzərdən su içib ala gözlərin,

Şəkərdir, nabatdır şirin sözlərin,

Qoy qalsın hər yerdə ayaq izdərin

Hələ açılmamış qönçəsən, Cahan,

Necə təzətərsən, incəsən, Cahan!

Xurmayı saçların ipəkdir, tüldür,

Yanaqların, vallah çiçəkdir, güldür,

Danış, gül, gülüşlə cahanı güldür

Evin-eşiyinin bəzəyi Cahan,

Baba, nənələrin ürəyi, Cahan!

Bahar çiçəkləyir təbəssümündə,

Güllər ləçəkləyir təbəssümündə,

Bülbül cəh-cəh vurur şaqraq səsində

Dan yerinin şəfəqisən sən, Cahan,

Gül, danış, fərəhlən, fərəhlən, Cahan!

Yer üzüsən, sən həyatsan, sən həyat,

Sən dünyasan, kainatsan, kainat,

Hər arzuya, hər istəyə, kama çat

Sənə həyan Nadir qardaşın, Cahan,

Həm qardaşın, dostun, sirdaşın, Cahan!

Enişdir, yoxuşdur ömür yolları,

Büdrəmə, möhkəm at sən addımları,

Əsas sayma əsla dövləti, varı.

Bilikdir həm dövlət, həm də var, Cahan,

Ol dünyada xoşbəxt, bəxtiyar, Cahan!

6.09.2010-cu il.

Zəhmət dünyasının mələyi Anaş

(Bacım Şükufənin mərd və cəsur qızı Elmira - Anaşa)

Sən zəhmətlə doğulmusan anadan,
Zəhmət dünyasının mələyi, Anaş.
Yoğrulubdu halal zəhmətdən mayan
Ey yıxılı evin dirəyi, Anaş!
Zəhmət dünyasının mələyi, Anaş.

Ali savad ala bilməsən də sən
Həyat ali məktəbi bitirmisən.
Neçə alimlə də tən gələrsən, tən

Bütün nəslimizin ürəyi, Anaş!

Zəhmət dünyasının mələyi, Anaş.

Nənə qulluğunda durdun neçə il,

Bunu hamı bilir – yaxın oba, el.

Cənnətməkansan əzizim, bunu bil

Hər bir çətin anın gərəyi, Anaş,

Zəhmət dünyasının mələyi, Anaş.

İndi də ananın qulluğundasan,

Pərvanətək başına fırlanırsan,

Səndən razı getdi mehriban atan

İsti ocağının bəzəyi, Anaş,

Zəhmət dünyasının mələyi, Anaş.

Mehriban anasan, əziz nənəsən,

Yaş ötsə də hələ təzəsən, tərsən.

Vallah, göz dəyməsin, nə bəxtəvərsən?

Könüllərin arzu-istəyi, Anaş

Zəhmət dünyasının mələyi, Anaş**.**

9 sentyabr, 2012-ci il

Zəka bulağısan, Elbəy bacoğlu

(Ömür yoluna qibtə etdiyim, qəlbimdə xüsusi yeri olan Elbəyə)

Zəka bulağından su içmisən sən,

Dərin təfəkkürün dəryaya sığmaz.

Çətin həyat sınağından keçmisən,

Çətinlik görməsən, səadət olmaz

Elin bəzəyisən, Elbəy bacoğlu,

Gözə gəlməyəsən, Elbəy bacoğlu!

İmanqulu əmin verib adını,

Qoy ruhu şad olsun o rəhmətliyin!

Tanrı versin gənclərin muradını

Gəlin bilək qiymətini gəncliyin.

Köçənlərə rəhmət, Elbəy bacoğlu!

Ruhlarına hörmət, Elbəy bacoğlu

Təhsil dövrün Moskvada keçibdir

Tulada eşqin badəsini içmisən.

Bir vəfalı rus gözəli seçmisən

Bahar ona sevgidən don biçibdir

Tulada ağsaqqal, Elbəy bacoğlu,

Həmişə belə qal, Elbəy bacoğlu.

Sevdalı illərin bəhrəsin verib,

Düşüb qismətinə cüt övlad payı.

O qisməti, payı Tanrı göndərib

Adınla fəxr edir mənimtək dayı

Kamalına heyran, Elbəy bacoğlu,

Min bir dərdə dərman, Elbəy bacoğlu.

Əyilmə, zamanın sınağına döz,

Hələ xoş günlərin irəlidədir.

Şəninə nə qədər söz deyərəm, söz –

Deyiləsi sözlər ürəyimdədir.

İlk nəvəyə baba, Elbəy bacoğlu

Səni sevir bu el-oba, Elbəy bacoğlu.

Cavan yaşında da müdrik qocasan,

Dədə Qorqud müdrikliyi səndədir.

Uca dağsan, ucadan da ucasan,

Həm də körpə kövrəkliyi səndədir.

Ürəyincə yaşa, Elbəy bacoğlu,

Öz yarınla qoşa Elbəy bacoğlu!

14 sentyabr, 2010-cu il.

Məhəbbət rəmzidir qızlar

(Mərdəkandakı «Qaranquş» sanatoriyasının qızlarına)

«Qaranquş»da bir neçə qız çalışır,
Mərhəmət, səxavət rəmzidir qızlar.
Gözəllikdə bir-biriylə yarışır
Ədalət, məhəbbət rəmzidir qızlar.

Əlləri şəfalı, dilləri şirin,
Dilləri şəfalı, əlləri şirin.
Baxışlar mülayim, mənası dərin,
Elə bil bir hikmət rəmzidir qızlar.

Baş tibb bacısıdır Şəfəqqət xanım,

Qulluğunda durur xəstə insanın,

Bir cüt balası var bu gənc ananın,

Ülviyyət, qüdsiyyət rəmzidir qızlar.

İncəlikdən yoğrulmuşdur Səidə

Mehribandır, xoşqılıqdır, həm sadə,

Ölçü-biçi var onun hər işində,

Həm hörmət, həm izzət rəmzidir qızlar.

Qızların gəncidir incə Maisə,

Söz-söhbəti incə, qönçə Maisə.

Gör xalat yaraşır necə Maisə!?

Lətafət, məlahət rəmzidir qızlar.

Kəmalədən söhbət açmasam, olmaz,

Onun kimi nikbin qızlar çox olmaz,

Yanağında çiçək açıb bahar-yaz,

Həm qüvvət, həm qüdrət rəmzidir qızlar.

…Şəfa verdi qızlar mənə ilk gündən,

Azar-bezar çıxıb getdi tənimdən,

Belə qızlarınla xoşbəxtsən, Vətən!

Cəsarət, fəxarət rəmzidir qızlar.

18 dekabr 2001

Tanrı qüdrətindən yaranan Pəri!

Bu dünyanın gözəlləri təzə-tər,

Bu dünyanın gözəlləri bəxtəvər,

Dünya gündə min-min gözəl yetirər,

Birincidir, vallah, onlardan Pəri

Göz dəyməsin sənə heç zaman, Pəri!

Bu dünyada çox hüri, çox pəri var,

Hər ürəyin bir istəkli yarı var.

Hər gözəlin öz ətri, öz yeri var –

Sənin hər ürəkdə yerin var, Pəri

Ömrün heç görməsin qar-boran, Pəri!

Hərə bir sevdada, bir məhəbbətdə,

Hərə bir qüdrətdə, bir fəzilətdə,

Hərə bir ovqatda, bir xasiyyətdə,

Sən saf duyğulusan, xoşbəxtsən, Pəri

Səni doğan anaya əhsən, Pəri!

Min məna oxunur qara gözündə,

Necə hikmət yatır şirin sözündə,

Sən su sonasısan gölün üzündə

Ey adı özünə yaraşan, Pəri

Xoş sözü ellərdə dolaşan Pəri!

26.01.2002.

Qoy şəhla gözlərin töksün qanımı

Siyah tellərini sər sinəm üstə,

Ətrindən məst olum, doya bilməyim.

Lalə yanağından diləyim busə,

Aldığım busəni saya bilməyim.

Süzülə-süzülə şəhla gözlərin,

Şux baxışın nazla alsın canımı.

O gözlər nə qədər mənalı, dərin?!

Halaldır, razıyam töksün qanımı.

Yaxına gəl, əlini ver əlimə,

Nəfəsin içimə versin hərarət.

Çatdır məni muradıma, əhdimə,

Gülsün üzümüzə daim səadət.

15 iyun, 2001.

İki Lalə

Bir otaqda iki Lalə oturub:

Biri incə, biri totuq Lalədir.

Birinin gözündə ildırım çaxır,

Birinin gözləri lap piyalədir.

Biri şux qamətli-durnaya bənzər,

Biri-yeriyəndə yer edər həzər.

Biri baxışıyla ürəklər üzər –

Ay qabaqlı, günəş üzlü Lalədir.

Bir Lalə işvəli, nazlı, qəmzəli,

Bir Lalə dünyanın türfə gözəli,

Bir Lalə baharın ilki, əzəli,

Tər güldür, ənbərdir, şehdir, jalədir.

Bir Lalə həyata yaraşıq, zinət,

Bir Lalə sədaqət, vəfa, məhəbbət.

Bir Laləyə çoxu aparır həsəd –

Biri belə, biri elə Lalədir…

Mələksən, Qumru!

Gənc pianoçu Qumru xanımın ad günü şərəfinə

Özün bir bənövşə, yanağın lalə,
Baxışın bir aləm, gözün piyalə,
Səndən heç bir ana doğmayıb hələ –
Göydən enmiş huri-mələksən, Qumru!

Çal, şair qəlbini dilə gətir, sən,
Həzin nəğmələri elə yetir sən,
Bülbülün naləsin gülə yetir sən –
Arzusan, necə xoş diləksən, Qumru?!

Bədirlənmiş aymı deyim üzünə?

Şirin-şəkər, balmı deyim sözünə?

Sürmə çəkmə nə qaşına, gözünə –

Sən elə binadan göyçəksən, Qumru!

…Bir ağ atlı oğlan çıxsın bəxtinə,

Cavab versin ülvi məhəbbətinə,

Həyat yollarında düşmə çətinə –

İncə ruhlu bir saf ürəksən, Qumru!

2012

Qəlbləri oxuyan Məlahət xanım

Sirsən, möcüzəsən, Azəri qızı,
Qəlbləri oxuyan, Məlahət xanım.
Mat qoymusan göydə Ayı, ulduzu
Gül ətri qoxuyan, Məlahət xanım,
Ürəklər oxuyan, Məlahət xanım.

İlahi vergisi verilib sənə,
Bu vergi çətin ki bir gün tükənə.
Sən lazımsan el-obaya, Vətənə,
Gücün tükənməsin, Məlahət xanım,
O səsin, nəfəsin, Məlahət xanım.

Cəzasına çatır sənə gəc baxan,
Qəm-qüssəyə batır sənə gəc baxan,

Sənsən məlhəm olub qəlblərə axan,

Rahatlıq yaradan, Məlahət xanım,

Hifz etsin Yaradan, Məlahət xanım.

Görürsən xalqının bu gün halını,

Sabahkı gününü-istiqbalını,

«Qovarıq ölkədən mütləq yağını» -

Bunu sən demisən, Məlahət xanım,

O fəhminə əhsən, Məlahət xanım.

Sirri-İlahisən əzəl yaşından,

Mələksən, enmisən göyün qaşından,

Heç vaxt əskilməsin bir tük başından,

Müqəddəs köklüsən, Məlahət xanım,

Halal süd əmmisən, Məlahət xanım.

24.12.94.

Baxışınla məni çalma, amandır…

Səni and verirəm dinə, imana,
Mənimlə üz-üzə gəlmə, amandır!
Dözə bilməyirəm baxışlarına,
Baxışınla məni çalma, amandır!

Hər baxanda, əriyirəm içimdə,
Gözlərin qəlbimi alıb aparır.
Ola bilməz sənəm sən tək biçimdə,
Gözəlliyin məni məndən qoparır.

Belə baxma, sarsılıram, ay afət,
Cəllad olub nə durmusan qəsdimə?!
Axı səndən gözləyirəm mərhəmət

Baxışınla qoşun çəkmə üstümə!

Səni and verirəm dinə, imana,

Mənimlə üz-üzə gəlmə, amandır.

Dözə bilməyirəm baxışlarına

Baxışınla məni çalma, amandır.

16 iyun, 2001.

Adın mənə bəsdir

Sənsən mənim təsəllim,

Mənim yaxın həmdəmim.

Deyib-gülsən mənimlə

Bu dünyada nə qəmim?!

Sənsən mənim həyatım,

Sənsən qolum-qanadım.

Səndən qeyri-kimsəm yox

Sənsən vüqarım, adım.

Sənsiz dünyam qəfəsdir,

Uzaq qaçma, ta bəsdir.

Nə lazım dünya malı?

Tək adın mənə bəsdir.

30 yanvar, 2010.

Yara yazıbdır

Gərək taleyimlə savaşa çıxam –

Niyə bu baxtımı qara yazıbdır?

Hamıya bir xoş gün-güzəran yazıb:

Bəs mənim baxtımı hara yazıbdır?

Nə qədər ümidlə yaşamaq olar?

Nə qədər gümanı daşımaq olar?

Nə qədər taleylə barışmaq olar?

O, mənim bəxtimi para yazıbdır.

Deyirlər: səbr elə, hələ döz bir az,

Ötər qara günlər, belə də qalmaz.

Məclissiz keçməyir Kaman, qaval, saz:

Çoxları xoş sözü tara yazıbdır.

Oxu, ey Firudin, el nəğməsini,

Eldən yapış, dinlə elin səsini,

Oxu bu şeirimin hər kəlməsini

Axı İdris onu yara yazıbdır.

30 may, 1991-ci il.

Bu sevda öldürər məni

Erkən uğuruma sən çıxaydın kaş,
Bəlkə xoşbəxt idim indi dünyada.
Ömür yollarında olardıq sirdaş,
O illər nə vaxtdır qalıb arxada.

De, niyə gecikdin böylə, əzizim?
Niyə erkən yolum üstə çıxmadın?
Xətrinə dəyməsin gileyim, sözüm,
Üzümə gülməyib arzu-diləyim.

İndi bəs nə edək, gülüm, özün de?
Bu, gecikən səadətmi, görəsən?
Özün qərar çıxar, amma düzün de:
Gözlədiym məhəbbətmi, görəsən?

Mən – payız ömrümün qatarındayam,

Sən – yaz qatarının sərnişinisən.

Mən artıq babayam, çoxdan babayam,

Sən – üfüqdən boylanan bir günəşsən.

Yox, yox, bu gecikən, küsən sevdadır,

Bu sevda aldadar – öldürər məni.

Mən necə deyim ki, şirin, bal dadır?

Bu gecikən sevda «güldürər» məni?!

Aprel, 2001.

Aşiq olmuşam

Bir totuq gözələ aşiq olmuşam,

Qəmzəsi canımı alıb, nə alıb.

Qərarımı alıb həm gündüz, axşam,

Məni kəməndinə salıb, nə salıb.

Yerişi astadır, boyu da bəstə,

Gözləri piyalə, dodağı püstə,

Vallah, billah, mənlə durubdur qəsdə,

Dəli könül xəstə olub, nə olub.

Laləyə pay verib yanağı onun,

Qoy çıraqban olsun otağı onun,

Olsa bir gecəlik qonağı onun

Şair İdris razı qalar, nə qalar…

01.02.2001.

Təzə ömür

(A üçün)

Bəs harda qalmışdın bu çağa kimi?
Niyə gizləmişdin üzünü məndən?
Gəlmisən ömrümə bir çağa kimi,
Təzədən həyata başlamışam mən.

İndicə bilirəm bu həyat nədir,
Necə sevinərlər, necə gülərlər.
İndicə bilirəm məhəbbət nədir,
Sevinci, kədəri necə bölərlər.

Mən indi bildim ki, adi baxışda,
Bir ömrü yaşadan bir məna varmış.

Mən indi bildim ki, adi baxış da

İnsana ən yaxın həmdəm olarmış.

Tanrının nəzəri olsa üstündə,

Axırın xeyr olar – atalar demiş.

Mən bir həqiqəti tapdım özümdə –

Tanrı mənə təzə ömür bəxş etmiş.

12.04.1988

Gözüm qaldı tellərində

Ağxalatlı qız görmüşəm,

Sordum adı Nazilədir.

Bir alagöz qız görmüşəm,

Tibb bacısı Nazilədir.

Şirin-şəkər sözləri var,

Səni işarədən duyar.

Baxışında yatıb bahar,

Tibb bacısı Nazilənin.

Ağ xalat ona yaraşır,

Üzündə sevinc qaynaşır,

Baxan kimi ağlın çaşır,

Tibb bacısı Nazilənin.

Şəfa vardır əllərində,

Əlac edər hər bir dərdə.

Gözüm qaldı tellərində,

Tibb bacısı Nazilənin.

Görüm Tanrı hifz eləsin,

Bəd nəzərə tuş gəlməsin.

Ala gözü nəmlənməsin

Tibb bacısı Nazilənin.

20 noyabr, 2003.

“Semaşko” adına xəstəxana

Gəlib keçdilər

Dənizin seyrinə dalmaq istədim,

Üç dilbər qarşımdan gəlib keçdilər.

Xəyaldan ayrılıb onları süzdüm,

Dala baxmadılar, gülüb keçdilər.

Birinin olardı 16 yaşı,

Birinin xoş üzü, hilaldı qaşı.

O biri mələkdi, gözəllər başı

Qəlbimi büsbütün dəlib keçdilər.

Biri bahar qızı xoş ətir saçır,

Biri danışdıqca könlünü açır.

Birinin xəyalı göylərdə uçur,

İstədim yanaşam, bilib keçdilər.

Birinin qadası İdrisə dəysin,

Birisi xoş sözlə qoy məni döysün.

O biriylə qəlbim birgə döyünsün,

Hər üçü də razı qalıb keçdilər.

1968.

Məsim hey!

Juk Zakirin dilindən

Sən həyatım, sən qanadım, adımsan,

Sən şərbətim, sən şəkərim-dadımsan.

Vəfada da Həcər kimi qadınsan,

Məsim mənim, Məsim mənim, Məsim hey!

Arzum-kamım, xoş avazım, səsim hey!

Qurban olum qismətimə, bəxtimə.

Tanrı məni yetiribdir əhdimə,

Sən yetirdin məni şahlıq təxtimə

Məsim mənim, Məsim mənim, Məsim hey!

Arzum-kamım, xoş avazım, səsim hey!

Həm övladım, həm qardaşım-bacımsan,

Həm dövlətim, həm də taxti-tacımsan.

İlk bəxtimsən, ilk baharım-yazımsan:

Məsim mənim, Məsim mənim, Məsim hey!

Arzum-kamım, xoş avazım, səsim hey!

Şirin ixtilatım, şirin sözümsən,

Dünyanı seyr edən bir cüt gözümsən,

Mən sənənəm, sən də mənim özümsən,

Məsim mənim, Məsim mənim, Məsim hey!

Arzum-kamım, xoş avazım, səsim hey!

Zakir deyər bu dünyadan doymaram,

Bir an səni gözdən kənar qoymaram.

Mən dönüm başına, sənə qıymaram –

Məsim mənim, Məsim mənim, Məsim hey!

Arzum-kamım, xoş avazım, səsim hey!

29 iyun, 1993-cü il.

Ömür qatarım

Yenə incik saldım onu, ilahi!

Bilmirəm nə edim mənlə barışsın.

Necə əllərini sıxım ovcumda,

Nəfəsimiz bir-biriə qarışsın!

…Getdi, sevincimi apardı özü,

Görən onu necə geri qaytarım?

Yadımdan çıxmayır söhbəti, sözü,

Getdi, niyə getdi ömür qatarım?

Qayıt, ömrüm-günüm, tez qayıt geri,

Həsrət dəryasında boğullam, ölləm.

Ömür qatarımı sən qaytar bəri,

Qaytara biləmməz yığılsa aləm.

30 oktyabr, 1993.

Dünyada bir Azadə var…

Dünyada bir Azadə var,

İkincisi ola bilməz.

Vallah, billah ola bilməz,

Bütün güllər sola bilər,

O Azadə sola bilməz.

Nə çoxdur biganə qızlar,

O, biganə qala bilməz.

Ərşi-fələk qılınc çala

Onu məndən ala bilməz.

Vallah, billah ola bilməz.

O, yanımda olsa əgər,

Ölüm yaxın gələ bilməz.

Vallah, billah ola bilməz

Kim deyər ki şair İdris

O gözəlin gözəlliyi

Qarşısında ölə bilməz?!

Vallah, billah ölə bilər.

2003.

Asta yeri, inciməsin ayaqlar

(Günel xanım üçün)

Çox gəzmişəm mən bu qoca dünyanı,
Sənin gözlərinə tay görməmişəm.
Gəzmişəm düzləri, dağı, aranı,
Yanağın tək parlaq ay görməmişəm.

Uca boylü, sərv qamətli gözəlsən,
Yapon, firəng gözəlindən gözəl-sən.
Vallah, göydən yerə enmiş mələksən
Səsin tək şəlalə, çay görməmişəm.

Asta yeri, inciməsin ayaqlar,
Neçə igid səni deyib-soraqlar.

İnşallah, qarşıdan gələn bu bahar

Evinizdə olar toy- görməmişəm.

Xonçalar düzülər sizdə yan-yana,

Toy-nişan ruh verər hər bir insana.

Gözün aydın olsun, mehriban ana!

Sənin verdiyin tək pay görməmişəm.

21 noyabr, 2009.

Gözlərində İldırım çaxır

(Dağlı qızı Bəsirə xanıma)

O qara gözlərdə ildırım çaxır,
Lalə yanaqların təsvirə gəlməz.
Ay gözəl, o gözlər de, kimə baxır?
Könül o gözlərdən ayrıla bilməz.

Kaş gözə gəlməsin çinar qamətin,
Şirin söz-söhbətin qəlbə məlhəmdir.
Ümmanlara sığmaz saf məhəbbətin,
İnsafa gəl, coşan qəlbimi dindir.

Yerli-yataqlısan başdan-binadan,
Əndamına göz dəyməsin, ay gözəl!

Səni hifz eləsin Ulu Yaradan,

Yazaram hüsnünə min şeir, qəzəl.

Ulu Tanrı versin, bəxtini, gülüm,

Sən xoşbəxt olmağa, vallah, layiqsən!

Görməyəsən nə bir əzab, nə zülüm,

Süd verən anana əhsən, min əhsən!

20 noyabr, 2009.

Bəxtəvərsən dünyada

(Zarafatyana)

Ay qız adın Əntiqə,
Gəl qulaq as məntiqə.
Mənimlə düz dolansan,
İşin olar əntiqə.

Doğrudan Əntiqəsən,
Sığmazsan məntiqə sən.
Xəyalımda yaşarsan
Hər an, hər dəqiqə sən.

Məntiqlə danışırsan,

Dürr tökülür ağzından.

Sən danış, mən dinləyim,

Ləzzət alım nazından.

Naz da sənə yaraşır,

Söz də sənə yaraşır.

Qaş-gözün bir yanadır,

Üz də sənə yaraşır.

Heykəltəraş olaydım,

Sənə heykəl qoyaydım,

Durub sənlə üz-üzə,

Baxmaq ilə doyaydım?

Su ilanı olaydım,

Dolçalara dolaydım.

Səni doğan anaya

Daim səcdə qılaydım.

Mələhət var səsində,

Məhəbbət var gözündə.

O göz yadlara baxsa,

Donar dilim ağzımda.

Yoğrulub mayan nədən?

Olarmı belə bədən?

Baxanda üzülürəm,

Ay səni ölməyəsən!

Bəri bax, gözəl, barı,

Sənsən dünyanın varı,

Xoş çağında yaradıb

Sən o Ulu Tanrı.

Dünyaya bəzək sənsən,

Solmayan çiçək sənsən.

Min bir dərdin dərmanı,

Döyünən ürək sənsən.

Yazılmamış əsərsən,

Ürəklərə təpərsən.

Nə lazım sənə dövlət?

Tanrıdan bəxtəvərsən.

Xoşbəxt gələcəyin var,

Həmişə tər-ilk bahar.

İllər təsir eyləməz,

Laləzarsan, laləzar.

Hifz etsin səni xuda,

Düşmə alova, oda.

Sənintək yarı olan,

Bəxtəvərdir dünyada

Bəxtəvərdir dünyada.

11 may, 2001

Tibb bacısı Elmiraya

(Tükənməsin mərhəmətin)

Qaşın bir gəlindir, gözün bir gəlin,

Üzünü oxşayır qıvrım tellərin.

Xəstəyə məlhəmdir o şirin dilin,

Şirin dilin lal olmasın, Elmira.

Gözün yaşla heç dolmasın, Elmira.

Səliqə-sahmanın göz oxşayır, göz,

Bədnəzərdən uzaq, göz dəyməsin, göz.

Səni vəsf etməyə söz tapmıram, söz,

Düşmənin gözünə bıçaq, Elmira.

Kişi kimi igid, qoçaq, Elmira.

Mehriban, xoşrəftar, gülər üzlüsən,

Vallah, xəstələrin şirin sözüsən.

Sən elimin baharısan, yazısan,

Tükənməsin mərhəmətin, Elmira,

Əskilməsin heç şəfqətin, Elmira.

Üç övladın xeyri-bəhrin görəsən,

Göyçək qızın tellərini hörəsən.

Bir payızda onu ərə verəsən,

Qoşa gəlin gətirəsən, Elmira!

Ömrü başa yetirəsən, Elmira!

Sən üzüağ, qəlbi toxsan həmişə,

Bütün arzuların kaş yetsin başa.

Üzünü ağ edib seçdiyin peşə.

Övladlardan yarıyasan, Elmira!

İpək kimi qarıyasan, Elmira!

Bacım kimi fəxr edirəm sənlə,

Axırda gəl şair İdrisi dinlə:

Əbədi xoşbəxtsən səxavətinlə,

Qoyduğun körpüdən keçsin övladın,

Sən içən şərbətdən içsin övladın.

Sabunçu xəstəxanası

DOĞMALARIMA, YAXINLARIMA, DOSTLARIMA ƏRMƏĞAN ETDİYİM ŞEİRLƏR

Anam layla, anam layla…

(Elegiya)

Həyatda xoş gün görməyən,

Anam layla, anam layla.

Heç nəvə saçın hörməyən,

Anam layla, anam layla.

Qəm-kədərlə ömrü keçən,

Əzab çəkib, qovğa biçən.

Qüssəni şərbət tək içən,

Anam layla, anam layla.

Kirpiyində od götürən,

Taleyində dərd bitirən.

Ürəyi qübar gətirən,

Anam layla, anam layla.

Üzü çiçək, özü mələk,

Yanaqları al çiyələk.

Sənə necə qıydı fələk?

Anam layla, anam layla.

Övladları başsız qalan,

Gözləri qan-yaşla dolan.

Gül rəngi heyva tək solan,

Anam layla, anam layla.

Səkkiz övlad böyütsə də,

Rast gəlsə də min bir dərdə.

Baş əyməyən bir namərdə,

Anam layla, anam layla.

Qovurğa tək hey qovrulan,

Öz oduna özü yanan.

Zaman-zaman alovlanan,

Anam layla, anam layla.

İyirmi il xəstə yatan,

Ah-naləsi göyə çatan.

Dərdin dəryasında batan,

Anam layla, anam layla.

Həkimlərdən şəfa uman,

Dərdinə dərman tapmayan.

Erkən həyata göz yuman,

Anam layla, anam layla.

Heç ər çörəyin yeməyən,

Kimsəyə dərdin deməyən.

Qan-yaş tökən ləyən-ləyən,

Anam layla, anam layla.

Həyatı nağıla bənzər,

Ruhu səmalarda gəzər,

Ordan övladların süzər.

Anam layla, anam layla.

Sonam layla, sonam layla.

10.01.99.

Tale gülün bitmədi…

(Ailəmizin ilkini Nəsibə bacıma)

Gözəlliyin bəla oldu başına,
Qoşulmadın yarına-yoldaşına.
Yaramazlar zəhər qatdı aşına,
Bac vermədin xəbislərə heç zaman –
Bəxtini bəd yazdı əzəl yaradan.

Səliqə-sahmanlı oldun əzəldən,
Seçilərdin min bir türfə gözəldən.
Amma bəxtin qara gəldi göylərdən,
Kirpiyində od götürdün bacı, sən,
Kədər-qüssə axdı daim gözündən.

Müharibə erkən uddu ərini,
Ölənəcən gözlədin xəbərini.

Uddun taleyinin qəm-kədərini.

Nadanlar əlində köləyə döndün,

Öz odunda yandın, odunda dondun.

Qara saçlar dərddən ağ don geyindi,

Ürəyin hey səksəkəylə döyündü.

Səslənərdin: Allah, bu, nə oyundu?!

Daş qəlblilər harayına yetmədi,

Tale gülün əkdin, əfsus, bitmədi.

Ana oldun sən iki övladına,

Yandın diri-diri hey odlarına.

Heç biri yetmədi öz muradına,

Sonra yorğan-döşəyə məhkum oldun,

Əcəl gəldi – gültək saralıb-soldun…

20.03.2000

Ölmədin, bacım!

(Mərhum bacım Həbibənin ruhu şad olsun)

Bu geniş dünyada əl-qol açaraq,

Bolluca sevinib, gülmədin, bacım!

Kədər dənizində daim boğuldun,

Xoş gün nə olduğun bilmədin, bacım!

Taleyin qəm gəldi əzəl yaşından,

Qovğalar hey aşdı-daşdı başından

Erkən ayrı düşdün öz yoldaşından

Sirrini yadlarla bölmədin, bacım!

Əzablarla keçdi ömrün, həyatın,

Hasilə yetmədi arzun, muradın.

Çox erkən qırıldı qolun, qanadın

Beləymiş sənin də qismətin, bacım!

Xəstəlik güc gəldi erkən çağında.

Şamama tək tez soldun göy tağında.

Əksin qalıb yatdığın otağında,

Üzür indi bizi həsrətin, bacım.

Yadından çıxmırsan uzağın, yadın.

Bizimçin əzizdi ismətin, adın.

Səndən yadigardır yeddi övladın

Kifayətdir bizə qeyrətin, bacım!

Güclü dağ çayıtək tez axıb-getdin

Ölümün gözünə düz baxıb getdin.

Çiyninə bir dəstə gül taxıb getdin

Qəlbimizdə qaldın, ölmədin, bacım!

6.02.99.

Zamana etibar yoxdu

(Bacım Məşədi Şükufəyə)

Mehriban anamı itirən gündən,
Sən olmusan mənə həm ana, bacım!
Qayğımı çəkmisən gecə və gündüz,
Qoymamısan düşüm borana, bacım!
Yarpaq tək üstümdə əsmisən hər an.
Məni qorumusan min bir bəladan
Gecə yatağında yatdığın zaman,
Qıymamısan qardaş oyana, bacım!

Dözmüsən hər şıltağıma, ədama,
Çətin anda sən çatmısan dadıma.
O günləri mən salanda yadıma
Az qalır ürəyim dayana, bacım!

Tələbə adını qazananda mən,

Təbrik etdin məni hamıdan erkən.

Təzə kostyum əynimə geyindirən

O zamana mən olum fəda, bacım!

…Keçir aylar, keçir illər, ötür yaş,

Bel bükülür, diş tökülür, ağdır baş.

Ömür köç eləyir, eh, yavaş-yavaş,

Baxmayır alimə, nadana, bacım.

Səndən gen düşmüşəm xeyli zamandır,

Ona görə halım mənim yamandır.

Gözlərim yumular sənsiz, amandır,

Yoxdur bil etibar zamana, bacım.

Hər zaman halını bilmək istərəm,

Sənlə ağlayıb-gülmək istərəm.

Öləndə yanında ölmək istərəm,

Qalma məndən bir an o yana, bacım!

4.02.99.

Əli aşiqiydin…

Atam əvəzi Kərbəlayı Ağababa qardaşımın ruhu qarşısında baş əyirəm!

Atamızı erkən itirən gündən,

Sən bizə atalıq etdin, qardaşım!

Hərbin o ağrılı illərində sən,

Ölümlə üz-üzə getdin, qardaşım.

Yenicə bığ yerin tərləyən zaman,

Kişilərin cərgəsinə qoşuldun.

Qeyrət rəmzi doğulmuşdun anadan,

Yüz kişiyə bərabər bir oğuldun.

Dayaq oldun bacı-qardaşlarına,

Ölüm kabusunu yaxın qoymadın.

Unutdurdun dərd-kədəri anana,

İgidlər içində çəkildi adın.

Bir çətən külfətə sərkərdə oldun,

Heç birinin qanamadı burnu da.

El atası daim çağrıldı adın,

Bac vermədin nə namərdə, nə yada.

Qismətinə düşdü vəfalı qadın,

Baş qoydunuz bir yastığa 50 il.

75 il şərəfli ömr yaşadın,

Doqquz övlad böyütmək asan deyil.

…İki oğul dağı sinənə dəydi,

Üstəlik də igid qardaş yarası.

O dağlar bəlkə də qəddini əydi,

Sağalarmı övlad, qardaş yarası?

Kərbəlayı oldun, çatdın arzuna,

Əli aşiqiydin, Əli şiəsi.

Əl tutdun hər zaman yada, yaxına,

Dilində həmişə Allah kəlməsi.

Həyata rahatca yumdun gözünü,

Ana torpaq səni aldı qoynuna.

Unutmuruq söhbətini, sözünü,

«Qonşu» getdin həm atana, anana…

10.12.2012.

Daralma, qardaşım!

İpək qəlb daşıyan mehriban qardaşım Əlvan üçün

Uşaq kimi sadəlövhsən əzəldən,
Mayan yoğrulmuşdur şeir-qəzəldən.
Əfsus, çox əfsus ki, şair deyilsən,
Amma çox şairdən təblisən, qardaş!
O təmiz zəkana min əhsən, qardaş!

Sinən söz-söhbətlə doludur sənin,
Daim qayğılıdır qara gözlərin.
Hikmətlə yoğrulub vallah sözlərin,
Möhkəm iradəli, Əlvan qardaşım,
Əyə bilməz səni zaman, qardaşım!

Zəhmət dünyasında gülüng çaldın sən,

Nur tökülür hər bir gördüyün işdən.

Həyat səni sıxmaq istəsə bəzən,

Ruhunu sındıra bilmədi, qardaş!

Zəmanə üzünə gülmədi, qardaş!

Üç qız, bir oğula atasan, ata,

Övlad-nəvələrin yetsin murada.

Tanrı zəhmətini verməsin bada,

Axırın xeyr olsun, əziz qardaşım,

Ürəyi ipəkdən təmiz qardaşım.

Halal süd əmmişik halal anadan,

Haram tikə dadmamışıq heç zaman.

Daim dayaq olub bizə Yaradan,

Belə yaşamışıq, belə, qardaşım,

Uymamışıq fitnə-felə, qardaşım.

…Son vaxtlar yamanca qəribsəmişəm,

Körpətək kövrəlmək olubdur peşəm.

Axı bacı-qardaşlar itirmişəm,

Səni tez-tez görmək istərəm, qardaş,

Barı bir həftədə bir kərəm, qardaş!

İllər gəlib keçir acı yel kimi,

Didib parçalayır qüssə qəlbimi.

Ölsəm, yanımda ol, bas gözlərimi

Bu, bir vəsiyyətdir, daralma, qardaş,

Gözüm yumulanda saralma, qardaş!

8.12.2012.

Sonbeşik qardaşım, yetim qardaşım

(Sonbeşik qardaşım Böyükağaya)

Evimizin sonbeşiyi sən oldun,

Sonbeşik qardaşım, yetim qardaşım.

Hələ körpəlikdə saralıb-soldun,

Qəm-qüssə udaraq sən yaşa doldun –

Sonbeşik qardaşım, yetim qardaşım.

Altı aylığında ata itirdin,

Ürəyində yetimliyi bitirdin.

Evimizə atasızlıq gətirdin,

Dünyaya sığmadı kədərin-dərdin,

Sonbeşik qardaşım, yetim qardaşım.

Ananı da ata bildin özünə,

Yetimliyi vururdular üzünə.

Düz baxırdın həqiqətin gözünə,

Qulaq asdın öz qəlbinin sözünə –

Sonbeşik qardaşım, yetim qardaşım.

Amma Tanrı sənə fərasət verdi,

Bir az təpər, bir az cəsarət verdi.

Unutdun aldığın qüssəni, dərdi

Yaxın buraxmadın nakəs-namərdi –

Sonbeşik qardaşım, yetim qardaşım.

Öz yolunla getdin, uğur qazandın,

Ali təhsil alıb, çörək qazandın.

Tay-tuş arasında çəkildi adın,

Dünyada kimsəyə borclu qalmadın –

Sonbeşik qardaşım, yetim qardaşım.

Ehtiyacı olanlara əl tutdun,

Səxavət göstərib, savaba batdın.

Paxıllığı, qısqanclığı unutdun,

Əskilməsin heç vaxt alovun, odun –

Sonbeşik qardaşım, yetim qardaşım.

Üç övladın sənin ömür çırağın,

Sən ağacsan, onlar sənin budağın,

Gəlsin qulağına nəvə sorağı.

Aç qapını, gəlib olum qonağın –

Sonbeşik qardaşım, yetim qardaşım.

14.12.2012.

Мой милинький внук

(Внуку Фариду)

Фарид мой милинький внук,

Он мне и верный друг.

Сладко с ним говорить

Вечно он что то творит;

«Дед, я весь твой» - говорит

Очень весело с ним,

Вместо мы обо всем говорим.

Умные глаза у него,

Его понять очень легко.

Как заботливый он

И крепкий и сильен.

Занимается спортом,

Соревнуется с отцом.

И маме помогает,

О отца не забывает.

Учится он отлично,

Оценки пятерки вечно.

Трудиться любит,

«Ленивость – человека губит», - говорит.

Хочет быть космонавтом,

Об этом говорил с отцом.

…Добрый путь моему Фариду,

Пусть не подойдет в беду!

13 марта, 2008.

Vətənə dayaq ol, Zakir!

(Babasının adını daşıyan bala Zakirə 1 yaşı münasibətilə)

Zakir bala, bu 1 yaşın mübarək,

Xoş gəlmisən sən bu gen dünyamıza!

Üstündən əsməsin bir acı külək,

Çat sən yüz bahara, çat sən yüz yaşa!

Sən Zakir babanın yadigarısan,

Daşıyırsan o babanın adını.

Fəsillərin ətirli baharısan,

Tanrı versin hər arzu-muradını.

Atdığın ilk addımların mübarək!

Qədəmlərin möhkəm və mətin olsun!

Bütün diləklərin açsın gül-çiçək,

Əməllərin dillərdə dastan olsun!

Zöhrə bacına da həyan ol, həyan,

Sən onun qolunun gücüsən, Zakir!

Baban o balaca boyuna qurban!

Sən Zakir adınla ucasan, Zakir!

Nənələrin baxsın sənə, fəxr etsin,

Ata-ananın gözünə çıraq ol!

Bütün qəm-qüssələr yox olub getsin,

Vətənə dayaq ol, elə dayaq ol!

Vətənə dayaq ol, elə dayaq ol!

İdris baban,

25.II.2015. Saat 12:00, 13:00.

Düşmənin gözünə bıçaq olun!

(Sevimli Şahinin Yaşar oğlu dünyaya gəlib)

Soyuq bir qış günü doğulsan da sən,

Dünyaya hərarət gətirdin, bala!

Tanrının verdiyi o paya əhsən!

Şükür edək göylərə, qadir Allaha!

Gül bala, sən bir müqəddəs varlıqsan,

Çöhrənə bir parlaq nur ələnibdir.

O, adi nur deyil - enib göylərdən,

Dünyamıza bir vətəndaş gəlibdir.

Ətir saçır süd qoxulu nəfəsi,

Körpə təbəssümü çiçək, gül açır.

Yayılsın aləmə avazı, səsi,

Deyək ki, bu körpə bala dil açır.

Ay xanım nənələr, gözünüz aydın!

Mehdiyə bir həyan qardaş gəlibdir.

Sən də muştuluq ver, ay müdrik baba,

Mehdiyə həm qardaş, sirdaş gəlibdir.

Adın Mehdi verib: Yaşar söyləyib,

Siz qoşa böyüyün, qoşa, qardaşlar!

Ömür yollarında hünər göstərin,

Arzunuz dəyməsin daşa, qardaşlar!

Sənə alqış düşür, ay Şahin ata!

Qoşa oğlun-qoşa qolun-qanadın!

O cüt balan yetsin arzu-murada,

Yüz yaşa, onlara süd verən qadın!

Mehdi bala, tut qardaşının əlindən,

Vətənə sönməyən bir, çıraq olun!

Qoy sizə güvənsin bu el, bu oba,

Düşmənin gözünə ox, bıçaq olun!

22.III.2015.

Qəlbin daim var olsun!

(İmanov Hüseynə 60 illik yubileyi münasibətilə)

Bu gün əlamətdar, gözəl bir gündür,

Bu, nə çal-çağırdır, nə toy-düyündür!

Söylə, ay İmanov, bu, nə «oyundur?»

Sənin ad günündür? Olsun mübarək!

Sənin şad günündür, olsun mübarək!

Mən də söz verirəm bu gün qələmə,

Son qoyuram qəm-qüssəyə, ələmə,

Səsimi yayıram elə, aləmə;

Dostlar, ad günüdür bu gün Hüseynin,

Yeyin, için, şad günüdür Hüseynin!

…Dünyaya göz açdın payız fəslində

Kəbləyi Alının ali nəslində.

Sadə oğlan oldun özün əslində.

Əvvəldən qılıqlı gəzdin həyatda,

Neçə gözəlləri üzdün həyatda.

Bu gün xoşbəxt yoxdur səndən dünyada,

Yetişmisən hər arzuya, murada.

Sözün gəzir, yaxın eldə, obada,

Övladların sənə qoldur, qanaddır,

Nəvələrin yeni ömür, həyatdır.

Zatın, mayan zarafatdan yoğrulub,

Sadəlikdən, səxavətdən yoğrulub.

Bu həyatdan, bu büsatdan yoğrulub,

Büllur sutək pakdır ürəyin sənin,

Tükənməsin arzu, diləyin sənin.

Deyəsən, kişilər azalır bir-bir,

Deyəsən ömürlər qısılar bir-bir.

Yaxşılar dünyadan tez köçüb gedir,

Hərənin bir qisməti var dünyada

Hərənin bir həsrəti var dünyyada.

Talış dağları tək ucadır başın,

Yığışıb məclisə yarın, yoldaşın,

Bu gün tamam olur düz altmış yaşın,

Amma ömrün hələ güllü bahardır,

Sənin Zakir kimi gənc dostun vardır.

Bugünkü məclisə Zakir də gəlib,

O da sadəliklə eldə yüksəlib.

Allah səxavətdən ona pay verib,

Məclislərdən əskik olma heç, Zakir,

Dostlarının sağlığına iç, Zakir!

İllər keçib gedir, illərə nə var?

Yubilyar, onu bil qocalmaq da var.

Deyirsən ki, hansı oğraş qocalar?

Düzdür, yaraşmayır sənə qocalıq,

Amma qocalıqdır ömrə ucalıq.

Altmışa quş qoydun, yüzə nə qaldı?

Çox dağları aşdın, düzə nə qaldı?

Çox canana baxdın, gözə nə qaldı,

Baxma, yenə canın suludur hələ,

Deyirsən savabdır baxmaq gözələ.

Altmış il ömür sürmək heyrətdir,

Altmış il ömür sürmək cürətdir,

Altmış il ömür sürmək qeyrətdir,

Bir altmış da belə yaşa, ay Hüseyn,

Ömür yoldaşınla qoşa, ay Hüseyn!

Nəvələrin toylarını vur başa,

Sən lazımsan hələ qohum, qardaşa,

Hələ yaşa, hələ yaşa, hey yaşa!

Yaşamalı kişi sənsən dünyada,

Səndən başqa kim layiqdir bu ada?!

…Sözlər çoxdur axıb gəlir sel kimi,

Amma vaxt da ötüb keçir yel kimi.

Yubilyar, qəbul et bu təbrikimi,

Ulu Tanrım daim sənə yar olsun,

Geniş qəlbin dağlar kimi var olsun!

20 oktyabr, 1992-ci il.

Neçə qızın qəlbinə od salmısan

(Sevimli Elçinə!)

İyirmi beş bahar, iyirmi beş qış
Sənin ömür kitabına yazılıb.
Gəlibdir təbrikə bu gün dost, tanış
Gözlərindən şadlıq sevinc asılıb.

İyirmi beş - ömrün tər yaz çağıdır
Gülüstana bənzədərəm o çağı.
İyirmi beş - ömrün solmaz çağıdır –
Bir köklü ağacın qolu, budağı!

Əsrin dörddə biri- iyirmi beş il!
Bu illər ərköyün çağıdır ömrün.

Bu illər yaddaşdan silinən deyil

(Mənin o çağımı mənə qaytarın!)

...İllər necə uçur, quş tək - sürətlə

Sən o gün o körpə Elçin deyildin?

Səni çiynimdə mən gəzdirən zaman

"Mənə maşın da al" o vaxt deyərdin.

İndi günəş üzlü igid olmusan

Hər bir gözəlliyin yerli-yerində.

Neçə qızın qəlbinə od salmısan

(Kaş ki mən olaydım sənin yerində).

Gözəllər saçının sanı qədərdir

Onlardan birini sevib seç, Elçin!

Çox götür-qoy etmə bunca - hədərdir

Qəlbinə yatanı özün seç, Elçin.

Anan da qocalıb, gəlin gözləyir

Ona layiqin seç - bir nazlı pəri.

Gör bir şair qəlbi sənə nə deyir:

Tək sevdalı keçsin ömrün günləri.

Yubiley ad günün mübarək, Elçin,

Bütün arzulara yet bu dünyada.

Sənin bəyliyini tez görək, Elçin

Dayın da bolluca süzsün ortada!

13.02.1987.

Saat: 15:18

Baba Hüseyn – bala Hüseyn

Elçin bacıoğlunun ilkini bala Hüseynin 1 yaşı münasibətilə

Baba Hüseyn – nəvələrin babası,

Bala Hüseyn – oğul cigərparası.

Baba Hüseyn – on nəvənin babası,

Bala Hüseyn – bir igidin balası.

Baba Hüseyn – nəvələrin dayağı.

Bala Hüseyn – iki nəslin mayağı.

Baba Hüseyn – bir elin ağsaqqalı.

Bala Hüseyn – şanın təzə may balı.

Baba Hüseyn - çatıb müdrik yaşına,

Bala Hüseyn – hələ bircə yaşına.

Baba Hüseyn - dünya görüb-götürüb,

Bala Hüseyn! Səni Tanrı yetirib!

Baba Hüseyn neçə qış, bahar görüb,

Bala Hüseyn – bir qış, bir bahar görüb.

Baba Hüseyn - həyatdan kamın alıb,

Bala Hüseyn – hər şeyə məəttəl qalıb.

Çünki beyni yazılmamış ağ varaq,

Zehni hələ bərkiməmiş ağappaq.

Şirin sözə, təbəssümə möhtacdır,

Şəkər üçün, şirin şeyçin o acdır.

Üzünə gülənlə o da dost olur,

Kim gəc baxsa – yaman qanı qaralır.

Bala Hüseyn təzə açan qönçədir,

Gəlişi hamının ürəyincədir.

Bala Hüseyn – təbərrik, nur parçası,

Şirin-şəkər, noğul-nabat xonçası.

Babası-nənəsi qoşadır onun,

Dayılar, əmilər yaşadır onu.

Xalalar, bibilər yaşadır onu.

Gözün aydın olsun Süriyyə nənə!

Hüseyçin muştuluq vermədin mənə,

Eyb etməz, dözərik, nəvən sağ olsun!

Xoşbəxt ömür sürsün, kama da dolsun!

Gözün aydın olsun, ay Xalıq baba!

Sənin də sevincin gəlmir hesaba.

Sənin Hüseyn nəvən çatıb bir yaşa.

Onun heç arzusu dəyməsin daşa!

Niyə qımışırsan Şükufə nənə?

Sevinc də, fərəh də yaraşır sənə!

Sən mələk simalı, mələk ruhlusan,

Xoşbəxt nənə, həm də xoşbəxt anasan!

…Bu evin daima ötən bülbülü!

Ay mənim fərəhim, ay bala Hüseyn,

Həmişə fərəhlən, gül, bala, Hüseyn!

Təbəssüm üzündən əskik olmasın,

Bir an da gözlərin nəmlə dolmasın,

Yeri, addımların olsun mübarək,

Sinəndə döyünsün bir odlu ürək!

İki böyük nəslə nümunə ol sən!

Bacar ayırmağı dostu-düşməndən.

Möhkəm, qayım olsun atdığın addım,

Gül açsın istəyin, arzun, muradın.

Mehriban ol, daim yara, yoldaşa,

Həyat yollarında qəlbincə yaşa!

Bundan böyük arzu olmaz dünyada!

Toyunda oynasın kaş Hüseyn baba!

26 iyun, 1992-ci il.

Əmi xeyir-duası

Sevgilinlə qoşa qarı

(Sevimli Naibəyə toy günü münasibətilə)

Bu gün ata evindən köç edirsən,
Düşdüyün ocaqdan yarı, Naibə!
Bu obadan-o obaya köçürsün,
Sevdiyinlə qoşa qarı, Naibə!

Bizim nəslimizin parlaq ulduzu,
Elimin-obamın ismətli qızı,
Sənsən qəlbimizin ilkin arzusu,
Ailənin ilk nübarı, Naibə!

Sadə qəlbin bulaq kimi təmizdir,
Arzuların ümman-ümman dənizdir.

Adın bizim dilimizdə əzizdir,

Könlümüzün düz ilqarı, Naibə!

Göydən gəlmiş sən incə bir mələksən,

Neçə-neçə qəlbə arzu-diləksən.

Bir odlu-alovlu sönməz ürəksən,

Sənsən ilin xoş baharı, Naibə!

Ayağı uğurlu, üzü ruzulu,

Söhbəti ruzulu, sözü ruzulu,

Əli bərəkətli, özü ruzulu,

Tükənməsin evin varı, Naibə!

Qaynatan-qaynanan – ata anandır,

Baldız-qayınların sənə həyandır.

Ömür-gün yoldaşın başa sultandır,

Sən də onun vəfadarı, Naibə!

Getdiyin ocağa bərəkət apar,

Xoş duyğu, xoş söhbət, xoş niyyət apar,

Ömürlük özünlə hərarət apar,

Ol evinin ixtiyarı, Naibə!

Al, yadigar saxla əmi sözünü,

Xoşbəxt yaşayasan ömrü uzunu.

Tanrı xoş vaxtında yazıb yazını,

Sən qoru bu etibarı, Naibə!

Öz evinin ixtiyarı, Naibə

Sevdiyinlə qoşa qarı Naibə!

Kərbəlayı Vüsal, adına qurban!

Atam əvəzi qardaşım Kərbəlayı Ağababanın nəvəsi Kərbəlayı Vüsala

Halal ocaqda həyata göz açdin,

Sadə insanlarla gəzib-dolaşdın.

Nakəs, namərdlərdən, hey uzaqlaşdın,

Saf əqidən, saf niyyətin var olsun,

Bütün arzuların müstəcəb olsun!

Dinə meyil saldın sən gənc yaşından,

Fərqlənirsən yarından-yoldaşından.

Əskik olmasın bir tük də başından,

Kərbəlayı Vüsal, adına qurban,

Şirin-şəkər, balsan, dadına qurban!

Tanınmış bir nəslin övladısan sən,

Mərhəmət oxunur ala gözündən.

Doymaq olmur söhbətindən-sözündən,

Kərbəlayı Vüsal, ey gözəl oğlan,

Görüm hifz eləsin səni Yaradan.

Sənin nə qədər də geniş qəlbin var,

Orda yuva qurmuş ətirli bahar.

Üstündən əsməsin bir acı rüzgar,

Kərbəlayı Vüsal, nümunə ata,

Cüt övladın yetsin arzu-murada.

Kərbəlayılar nəvəsisən, nəvəsi,

Atan Hacbabadan almısan dərsi.

Nə çoxdur səndə yaşamaq həvəsi?!

Anan Nazxanım da Kərbəlayıdır.

Bu qismət də ona Tanrı payıdır.

Müdrik çəkilisən cavan çağında,

Xoş ovqat çağlasın can otağında.

Əzizim, yüz yaşa ömür bağında,

Tərk etməsin səni bir an səxavət,

Saf ilqar, səadət, təmiz məhəbbət!

Ömür-gün yoldaşın layiqdir sənə,

Halalındır, çıxıbdır qismətinə.

Sən baba olasan, o da ki nənə,

Ətrafında dolaşsınlar nəvələr.

Şair İdris sənə bunları dilər,

Şair İdris sənə bunları dilər.

Azalmasın sənin bir tük başından

(Elsevər Aslanoğluna)

Nə yaman da yuxa ürəyin varmış!
Vardım mən o qəlbin dərinliyinə.
İnsan bu qədər də həssas olarmış?!
Tək Allah qıymasın gül bədəninə.

Bu qəlb yanarlığı hardan almısan?
Bir belə səxavət de, səndə hardan?!
Sən bütün qəlblərdə yuva salmısan,
Səndən razı qalsın bizi yaradan.

…Bıçaq altında da ayıq-sayıqdın,
Təmkinli, gülərüz, sadə, mehriban.

O qara gözlərin gör necə aydın?!

Halal süd əmmisən, halal anandan.

Bu əliaçıqlıq, qəlb genişliyi,

Mayana hopubdur erkən yaşından.

Möhtaca verərsən sən son qəpiyi,

Azalmasın sənin bir tük başından.

Allah ürəyincə versin hər zaman,

Dosta qismət olsun halal çörəyin.

Hifz etsin nadandan səni yaradan,

Yüz illər döyünsün təmiz ürəyin.

Hər sənə baxanda qəlbim dağ olur,

Həyat mənim üçün olur mənalı.

Beləcə bu dünya boşalır, dolur,

Çoxu anlamayır heç bu məlalı.

El sevir, sevəcək səni hər zaman,

Əbəs yerə adın deyil Elsevər.

Xoşbəxt doğulmusan, vallah, anadan,

İdris Paşa səni daim çox sevər.

3 oktyabr, 1986-cı il.

Xeyirlidir ocağın

(Ürəyimin ürəyi Elsevərə 30 yaşı münasibətilə)

Dünyaya gəlmisən qızıl payızda,

Min toylu-düyünlü gözəl payızda.

Vüsal tapan neçə gözəl payızda,

Sayalıdır ayağın da, Elsevər,

Xeyirlidir ocağın da, Elsevər!

Evin-ocağın ilkini sən oldun,

Bir dünya sevinclə qəlblərə doldun.

Hamıyla fərəhi, kədəri böldün,

Uşaqlıqdan xeyirxahsan, Elsevər,

Mehribansan, mehribansan, Elsevər!

Səndə mərhəmət də, ədalət də var,

Səndə insanlıq da, səxavət də var.

Səndə təmiz ürək, saf dilək də var,

Sənə süd verənə rəhmət, Elsevər,

Ruhuna bizdə var hörmət, Elsevər!

Günəş şəfəq saçıb güləş üzünə,

Ay da nur pay verib qara gözünə,

Kim şirinlik qatıb şəkər sözünə!?

Söz-söhbətli, zarafatlı, Elsevər,

Şən nəğməli, toy-büsatlı, Elsevər!

Mən sənin o şirin dilinə qurban,

Gülnarına, qoşa oğluna qurban.

Ömür yoldaşının elinə qurban!

Qeyrət dağarcığı sənsən, Elsevər,

Sənինlə fəxr edir Vətən, Elsevər!

İki nəslin sevincisən, sözüsən,

Məclislərin yaraşığı, gözüsən,

Heç bilmirəm, vallah, kimsən, düzü, sən…

Bilirəm ki, həqiqətsən, Elsevər,

Saf duyğusan, məhəbbətsən, Elsevər!

Hənc yaşında el-oba ağsaqqalısan,

Bu adı qazanmaq deyildir asan.

Yüz yaşda el ağsaqqalı olasan,

Nəvə-nəticə görəsən, Elsevər,

Həmişə pay-puş verəsən, Elsevər!

Bu məhəbbət eldən gəlir, bil onu,

Elin sevincinin olmayır sonu.

Tanrı hifz eləsin sən eloğlunu,

Sən lazımsan el-obaya, Elsevər,

Sən yetənsən hər haraya, Elsevər!

Əzizim, ay Elsevər,

Canım-gözüm, Elsevər!

Söylə, bu nə hikmətdir –

Səndə böylə, Elsevər!?

Sənə söz deməyə acizdir qələm,

İstərəm hər həftə evinə gələm.

Xoş üzünə baxıb, doyam-dincələm,

Rahatlansın könül evim, Elsevər,

Deməyəsən «neynim-neynim» Elsevər!

Tanrı səni sevindirsin təzədən,

Oğul payı versin sənə – təzədən.

Allaha şükr edək biz sübh tezdən,

Kəsəsən sən neçə qurban, Elsevər,

Qara gözlərinə qurban, Elsevər!

Ne kladi qozuna sən heç nəyi,

Çin olsun qəlbinin hər bir istəyi,

Sənsən mənim ürəyimin ürəyi –

Qulağıma səsin gəlsin, Elsevər,

Həmişə də üzün gülsün, Elsevər!

Otuzu haqladın, qırxa nə qaldı,

Görəsən əllinin, altmışın dadın

Bir də gördün dörd otuzu haqladın,

Pirani qoca olasan, Elsevər,

Həmişə belə qalasan, Elsevər!!!

14 avqust, 1992-ci il.

Evin ilk qaranquşu

(Gülnara ad günü münasibətilə)

Bu gün Aslangildə toydur, bayramdır,
Bu gün şənlik edir bu ev, bu ocaq.
Bu ocaq həmişə qonaq sayandır,
Bakıdan da gəlib bir xeyli qonaq.

Gözün aydın, Aslan baba, can baba!
İlk nəvənin ad gününə gəlmişik.
Əlli yaşlı, ey qəlbi cavan baba,
İlk nəvənin şad gününə gəlmişik.

Ağa baba, Xəccə nənə, bibilər,

Bircə xala, qoşa əmi, dayılar,

Qohum-qonşu, ad gününə gələnlər,

Deyin: bu ad günün mübarək, Gülnar!

Gülnar balam, sən xoşbəxtsən, bəxtəvər,

Həyata gəlmisən ilk bahar çağı.

Ayağı sayalı, daim gülümsər,

Ardınca gəlibdir bir oğlan payı.

İndi tək deyilsən, ay ilk baharım,

Ceyhun qardaşın doğulub arzudan.

Sənsən şirin sözüm, ilkim, nübarım,

Sizi hifz eləsin bizi yaradan.

Sən ilk qaranquşsan bu doğma evə,

Düşüb el-obaya söhbətin, Gülnar!

Qəm-qüssədən kənar bax bu dünyaya,

İlk baharsan, ilk baharsan, ilk bahar.

Yapış qardaşının qolundan bərk-bərk,

Gözə dolan bu eli-obanı, quzum!

Bir gün də yığışıb toyuna gələk,

Ortada rəqs edim, «Mirzəyi» süzüm.

9 mart, 1988-ci il.

Qızıl payız fəslində

(Sevdaya ad günündə)

Qızıl payız fəslində

Paşayevlər nəslində

Dünyaya gəldi bir qız

Bir sönməz, parlaq ulduz.

O evə sevinc gəldi,

O evə sevinc qondu.

O evə gülüş gəldi

O evdən qəm qovuldu.

Sevindi qoşa nənə,

Nur gəldi gözlərinə.

Şadlandı ata-ana,

«Şükr olsun yaradana».

Qanad açdı xalalar,

Şadlıqdan gözəl nə var?!

Dayılar qürrələndi

Qəlblərə nur ələndi.

Qımışdı Hüseyn baba,

Tanışdı Hüseyn baba:

Boğazını yaşladı

Baxmayaraq yaşlıdı…

Bəs Zema bibi hanı?

Oxucum, onu tanı!

Ayağı yer tutmurdu.

Allahı unutmurdu

Ala gözlər sevincdən,

İnan, nəmləndi bəzən.

…Ad gəzib aradılar,

Saçları daradılar.

Neçə ad sadalandı,

Arzular qanadlandı.

Bibi düşdü qabağa:

- Çox getməyin uzağa.

Adını qoydum Sevda.

Çatsın arzu-murada.

Hamı da razı oldu.

Gözlər sevinclə doldu.

…Bax, bizim günəş bala,

Bax, bizim güləş bala,

Bu gün çatıb bir yaşa,

Sevda quzum, yüz yaşa!

Böyü ata-analı,

Böyü bibi-xalalı.

Böyü nənə-babalı.

Nənələr layla çalsın,

Şən laylalar ucalsın.

Üstündən əsməsin yel,

Keşiyində durub el.

…Ay dəcəl Sevda bala,

Hardaydın, harda, bala?!

Hifz etsin səni Tanrı,

Yola sal qış-baharı

Oxşa xanım bibinə,

Ela, Şükü nənənə.

Xalalarına oxşa,

Ellər etsin tamaşa!

Gəz, qədəmin mübarək!

İlkin ilkin mübarək!

Olsun bacın-qardaşın,

Sadiq dostun-sirdaşın.

Gül, gül dodaqlı bala,

Ol min budaqlı, bala.

…Bir azdan yaz gələcək,

Sevda yaztək güləcək,

Yüksələcək qəh-qəhi,

Tükənməyən fərəhi.

Hamı biləcək bunu.

Paşayevlər nəslində,

Qızıl payız fəslində

Dünyaya bir qız gəlib,

Bir parlaq ulduz gəlib.

31 oktyabr, 1990.

Həyat çalışqana borclu qalmayır

(Gəncliyə nümunə olan sevimli Kamilə)

Daha bir sınaqdan çıxdın üzüağ,
Daha bir imtahan arxada qaldı.
Hər qəza-bəladan olasan uzaq,
Həyatın sınanmış, igid övladı.

İki il Vətənin keşiyində sən,
Durdun ayıq-sayıq əlində silah.
Bu vaxtda nə qədər kamilləşmisən,
Səni hifz eləsin müqəddəs Allah.

Nə qədər çətinlik çıxdı qarşına,
Hamını dəf etdin Vətən naminə.

Səni bəsləmişdir müqəddəs ana,

Onunçün çətinlik gəlmir vecinə.

Cənub sərhədləri qorudun, oğul,

Onun hər qarışı sənə əzizdir.

Yaşa bu dünyada, sən bəxtiyar ol,

Bu gün arzuların bitməz dənizdir.

Sən hərbi xidmətdə nümunə oldun,

Siyasi və döyüş hazırlığında.

Komandirlərinin yadında qaldın,

Hər bir tapşırığa hazır olanda.

Əsil igid kimi geri qayıtdın,

Bu şərəf hamıya nəsib olmayır.

Bir uğurlu addım irəli atdın,

Həyat hünərvərə borclu qalmayır.

İndi hər bir çətinlikdən uzaqsan,

Açılıb qarşında geniş üfüqlər.

Vallah, Kamil, qoçaqdan da qoçaqsan,

Ömrünə yazılsın işıqlı günlər.

Müqəddəs arzuyla yaşayırsan sən,

Hər bir istəyinə çatasan, Kamil!

Eşit bu sözləri şair İdrisdən,

Daha mətin addım atasan, Kamil!

7 noyabr, 1989-cu il.

Dağlar boyda qeyrətin var…

(Oğul qədər sevdiylm, qeyrətilə öyündüyüm Qüdrət Şamilə)

Çinar boyun, şux qamətin var sənin,
El-obaya məhəbbətin var sənin.
Dağlar boyda bir qeyrətin var sənin,
Qurban qeyrətinə mən, Qüdrət Şamil,
Qolun-qanadındır qardaşın Kamil.

Sən ey gözəl insan, ey cavan oğlan,
İnan, səxavətdən yoğrulub mayan.
Belə istiqanlı, belə mehriban,
Bir gənc görməmişəm mən, Qüdrət Şamil,
Qolun-qanadındır qardaşın Kamil.

Sən nəfəs alırsan anan Məryəmdən,

Ona məhəbbətin gəlir göylərdən.

Lazım olsa, anana can verərsən.

"Uf" deməzsən sən əsla, Qüdrət Şamil,

Qolun-qanadındır qardaşın Kamil.

Köklü-köməcli bir nəslin oğlusan,

Tərbiyəni bu nəsildən almısan.

Səni hifz eləsin Ulu Yaradan,

Fəxrim, vüqarımsan sən, Qüdrət Şamil,

Qolun-qanadındır qardaşın Kamil.

Bircə bacın sənin başının tacı,

Qoşa dayıların dərdin əlacı.

Xalaların evlənməyin möhtacı,

Gözlər səni xoş iqbal, Qüdrət Şamil,

Qolun-qanadındır qardaşın Kamil.

Bəsdir, gəl at subaylığın daşını,

Tap özünə ömür-gün yoldaşını.

Toy qurulsun, yeyək dadlı aşını,

Meydanda rəqs edək hey, Qüdrət Şamil,

Qolun-qanadındır qardaşın Kamil.

Hər dəfə söz-söhbət düşəndə səndən,

Ruhum təzələnir, fərəhlənirəm.

Deyirəm: ay oğul, südünə əhsən!

Yaşa, xoşbəxt yaşa, ay Qüdrət Şamil,

Qolun-qanadındır qardaşın Kamil.

10 noyabr, 2003.

Ruslan, a Ruslan

Bacım nəvəsinə ithaf edirəm

Bu gün iki yaşın tamamdır sənin
Həm dəcəl, həm də ki mehriban Ruslan!
Qəm-qüssə görməsin mavi gözlərin
Gələcəyi parlaq olasan, Ruslan.

Təzə dil açırsan, dil-dil ötürsən,
Qəlbə fərəh gəlir hər bir sözündən.
Demirəm şəkərsən; ondan şirinsən
Daim belə şirin qalasan, Ruslan.

Beynin hələ yazılmamış ağ varaq,
Ora həyat kəlamıyla dolacaq.
İrəlidə xoş günlərin olacaq,

Doğulmusan sən o günlərçin, Ruslan!

Hələ ki bilmirsən kədər, qəm nədir,

Nə biləsən bu zil nədir, bəm nədir.

Biləcəksən bu el, bu Vətən nədir

Ona layiq övlad olasan, Ruslan!

Gümüşü saçların güntək bərq vurur,

O mavi gözlərin Xəzərdir, gülür.

Yanağına aydan inci süzülür,

Sən özün də ilkin baharsan, Ruslan!

Atanın-ananın bircə balası,

Ətrafında əmi, bibi, babası.

Tap özünə bacı-qardaş, qadası,

Gələcəkdə darıxmayasan, Ruslan!

Səni tərk etməsin təbəssüm bir an,

Xoşbəxt böyüyəsən, gülüm, hər zaman.

Ömür dastanını yazsın bu dövran,

Kam alasan sən bu dövrandan, Ruslan.

Daim isti olsun öz yurdun, yuvan,

Esmira, Elmira, bibin Natəvan.

Həm Şükufə nənən, həm Hüseyn baban

Sulasınlar toyunda meydan, Ruslan.

Xoş xəbər quş kimi uçsun Tulaya,

Kövrəlsin sevincdən nənə Marusya.

Qoşulub nənəyə baban Volodya,

Gəlsinlər təbrikə oradan, Ruslan.

30.11.84.

Nəslin adını ucalt

(Zakir bacıoğlunun sonbeşik övladına)

Çılğın doğulmusan anadan, Nicat,
Çılğınlıqla keçir günlərin sənin.
Həyat diktə edir, deyir: qur, yarat!
Qoy düşsün dillərə hünərin sənin.

Təmiz qəlbin sənin ipəkdən nazik,
Mehribansan hər bir qohum-qardaşa.
Tez qərar çıxarma, tələm-tələsik,
Sən daim səbirlə, təmkinlə yaşa!

Sadiq dostların var, saysız-hesabsız,

Onlara arxalan sən bəd ayaqda.

Elə insan yoxdur səhvsiz, nöqsansız,

Öz səhvini özün araşdır, ara.

Xoşbəxt olsun sənin Fəridə qızın!

O, sənin nübarın, həm vüqarındır.

Əzizlə, başını tumarla hər gün,

O, sənin ilk ovun, ilk baharındır.

Nəslinin adını ucalt həmişə,

Çalış ki, həyatda qalsın bir izin.

Seçmisən özünə layiqli peşə,

Dinlə öyüdünü dayın İdrisin.

May, 2000.

Böyü, hünər göstər

(Bacım nəvəsi Aytəkinə ad günü münasibətilə)

Sən bir xoş baharda gəldin dünyaya,

Ana təbiətin oğlan çağında.

Gəlişin səs saldı elə-obaya,

Toy-büsat quruldu bahar bağında.

Sən başdan-dırnağa bahar donunda,

Bahar rayihəsin sənə göndərib.

Bəslənmisən əziz ana qoynunda,

Sənə qismətindən nübar pay verib.

Hər il bahar sənə bir don geydirir,

Üstündən təravət gözəllik verir.

Üzünə, gözünə yaz ətir səpir,

Qəlbinə bakirə, təzəlik verir.

Hələ səkkizinci baharındasan,

Hələ açılmamış körpə qönçəsən.

Həyatda yenicə addımlayırsan,

Güllərin ən incəsindən incəsən.

O aydın baxışın necə mənalı?

Qayğıkeşsən, mehribansan, Aytəkin!

Böyü qardaşınla, böyü analı,

Qəlbinə yad olsun küdurət və kin.

Hər bir hərəkətin yerli-yerində,

Dediyin hər sözdən dürr tökülür, dürr.

Neçə arzu yatır körpə qəlbində,

Sinəndə bir təmiz ürək döyünür.

Bu qoca dünyanın əlifbasını,

Təzə öyrənirsən, ağıllı bala.

Görməyəsən həyatın qovğasını,

Öz alın tərinlə sən çat kamala.

Bilmirəm mən səni nəyə bənzədim?

Məsum baxışını necə vəsf edim?

Başqa şeyə səni niyə bənzədim?

Elə Aytəkinsən, bəli, ay təkin.

Böyü, hünər göstər, parla Ay kimi,

Nur saç bu dünyaya gecə və gündüz.

Qəlbinin səsinə qulaq as təki,

Böyük nəsihəti olmaz faydasız.

21 mart, 1986.

Ellərə yayılsın adın, hünərin

(Sevimli Azada)

Bu azad yurdumun azad övladı,

Bir xoşbəxt dövranda doğuldun, Azad!

Atanın-ananın qolu-qanadı,

Evin ilk uşağı sən oldun, Azad!

Sən sevinc gətirdin, sən ümman-ümman,

Güldü gəlişinlə bu yer, asiman.

Dünyaya gəlmişdin bir qara oğlan,

Böyüyüb tez yaşa sən doldun, Azad!

Əzəldən ayağı ruzulu oldun,

Əzəldən ürəyi arzulu oldun.

Söhbətli, nəğməli, xoş sözlü oldun,

Qəlblərdə beləcə sən qaldın, Azad!

Bu gün ad günündür, düz 10 yaşın var,

Rəşad adlı sənin bir qardaşın var.

Xoş gün görün, həyat olsun sizə yar,

Paxılların gözü kor olsun, Azad!

İncə dodağında gülüş bol olsun,

Ömrün bahar kimi çiçək-gül olsun.

Xeyir-dua verən sənə el olsun,

Hamı səndən hey razı qalsın, Azad!

Qara kişmiş kimi şirinsən, şirin,

Ellərə yayılsın adın-hünərin.

Ağıllı balasan dərindən-dərin

Heç bir dərdin-qəmin olmasın, Azad!

Sən İdris dayının şən balasısan,

Beləcə mehriban, şən qalasısan.

Üstündən əsməsin boran, çən, duman,

Gözünə qəm-kədər dolmasın, Azad!

22.XII.1984.

Çat kamala, Rəşadım!

(Bacım nəvəsinə)

Anadan olsan da payız fəslində,

Bahar ətirlisən, gülüm, əslində.

Gül qoxusu vardır hər bir sözündə

Pakdır, müqəddəsdir qəlbin, Rəşadım,

Xoş gündə dünyaya gəldin, Rəşadım!

Bu Vətən bağının tər çiçəyisən,

Evin, ailənin sən bəzəyisən,

Atanın-ananın sən ürəyisən,

Elinə-obana mayaksan, Rəşad!

Qardaşın Azada dayaqsan, Azad!

Nurlu, rövşən olsun məktəb yolların,

Əyilməsin biləklərin, qolların.

Ətrafında gəzsin sadiq dostların –

Həyat sənə daim yar olsun, Rəşad!

Dostların həmişə var olsun, Rəşad!

Düz söz uşaqlıqdan düşmür dilindən,

Düz danışan dodağından öpüm mən.

Beləcə, gen düşmə haqq, ədalətdən,

Haqq yolunda daim dönməz ol, Rəşad!

Yəqin bil: tək budur doğru yol, Rəşad!

Gələcək sənindir, əzizim, sənin,

Səadətlə keçsin ömrün, günlərin,

Əlini möhkəm sıx hər al səhərin!

Üzü günəşə addımla, Rəşadım!

Xoşbəxt böyü, çat kamala, Rəşadım!

I.09.85.

Şirin dili bir qız olub

(Qardaşım oğlu Mehmanın balaca Günelinə)

Bir körpə dünyaya gəldi payızda,

Kiçik ailəyə sevinc gətirdi.

Bir körpə dünyaya gəldi payızda,

Ürəklərdə xoş arzular bitirdi.

Bir körpə dünyaya gəldi payızda,

Sədası yayıldı obaya, elə.

Bir körpə dünyaya gəldi payızda,

Həyata göz açdı o gülə-gülə.

Bir körpə dünyaya gəldi payızda,

Köksünə sığmadı ata sevinci.

Bir körpə dünyaya gəldi payızda,

Parladı bələkdə bir parça inci.

Bir körpə dünyaya gəldi payızda,

Bir ana laylası artdı o payız.

Bir körpə dünyaya gəldi payızda,

Adi körpə deyil- bir parlaq ulduz.

O ulduz nur saçdı oda-ocağa,

Ona ad qoydular, dedilər: Günel.

İməklədi, sonra qalxdı ayağa,

Təbrikə gəldilər: qohum, qardaş, el.

Bir körpə dünyaya gəldi payızda,

İndi neçə payız arxada qalıb.

Bir körpə dünyaya gəldi payızda,

İndi şirin ləhcəli bir qız olub.

Günel cəh-cəh vurur bir bülbül kimi,

Körpə təbəssümü nur paylayır, nur.

İşi-gücü mat eləyib aləmi,

Hər sözü-söhbəti şəkər, bal dadır.

Payızın ləzzəti, dadı və tamı,

Günelin dilinə şəkər qatıbdır.

Nurdan mayalanıb – söyləyir hamı,

Günelim nabata, qəndə batıbdır.

Nə deyim mən sənə, Günelim, gülüm?

Təbəssüm üzündən əskik olmasın!

Səndən razı qalsın Vətənim, elim.

Qara gözlərinə qüssə dolmasın,

Bir körpə dünyaya gəldi payızda,

İndi iki yaşlı bir qız olubdur.

Bir körpə dünyaya gəldi payızda,

Aləmə nur saçan ulduz olubdur.

Günel haqqında bayatılar

Əzizim Günel bala,
Sənə qurban el, bala.
Ata-analı böyü,
Sevin bala, gül bala.

Günel dağda al lalə,
Gözləri cüt piyalə.
Kirpiklərin qaldırıb,
Günel gedib xəyala.

Bu Günel nə Güneldi,
Təzə-tər, inci güldü.
Baxdım gül təbəssümə,
Ürəyimə gül doldu.

Qoşa qolum-qanadımsız

(Gəlinim Zeynəb, oğlum Vüqara)

İlk dəfə mənimlə görüşə gəlib,

Mənim ciyərparam, mənim gəlinim.

Sevimli oğlumla o qoşa gəlib

Sevincdən sığmayır köksümə qəlbim.

İlahi, çox şükür kəramətinə,

Ən böyük arzuma yetirdin məni.

Qurban olum sənin mərhəmətinə,

Qələm yaza bilmir ürək deyəni.

Ömrümdə ən əziz bir gündür bu gün,

Elə bil təzədən doğulmuşam mən.

Bütün ürəklərdə olsun toy-düyün,

Daim alovlanan, sönməz şamam mən.

Bu gün ki mən sizi qoşa görmüşəm,

Olmuşam dünyanın ən bəxtəvəri.

Bu gün ki mən sizi qoşa görmüşəm,

Unutmuşam qəm-qüssəni, kədəri.

Qoşa qolum-qanadımsız siz mənim,

Ürəyimə hərarətsiz, hərarət.

Zeynəb, sənsən həm qızım, həm gəlinim,

Qoşa qızım – qollarıma güc-qüvvət.

Əziz balalarım, həyat yolunda,

Qoşa addımlayın, qoşa dolanın.

Sizdən uzaq olsun, bala, qan-qada,

Al Günəşin şəfqətinə boyanın.

30 sentyabr, 1996.

Gözəllərin əzəli

(Sevimli İlahəyə)

Günəş küsər məndən, sənə ay desəm,

Ay inciyər sənə Günəş desəm mən.

Yayın son günündə gəldin dünyaya,

Qovuşdurdun iki fəsli, İlahə.

Səni bənzədimmi Günəşə, Aya,

Sevindirdin sən bir nəsli, İlahə.

Ay inciyər sənə Günəş desəm mən,

Günəş küsər əgər sənə Ay desəm.

Bilmirəm, vallah, nəsən, nəsən, sən?!

Ay baxışlı, Günəş üzlü, İlahə!

Bahar kimi ətirlidir gülüşün,

Tamaşadır oturuşun, duruşun.

Məzəlidir, lap nağıldır hər işin,

Xoş müjdəli, arzu səsli, İlahə!

Bir yaşın yenicə yetibdir başa,

Bu xoş xəbər çatıb qohum-qardaşa.

Nənələr, babalar gəlib görüşə,

Al yanaqlı, ala gözlü, İlahə!

Yeni addımların olsun mübarək,

İllər ötsün, səni böyük qız görək.

Sənə həsrət çəkir, gülüm, gül-çiçək

Söz-söhbətli, incə, nazlı, İlahə!

Sən çiçəksən, ətrin tutur hər yanı,

Sən ürəksən, ürəklərin dərmanı.

Sən mələksən, Tanrı verib fərmanı,

Bütün gözəllərin ilk, əzəli, İlahə!

Kiçik ailənin ilkin barısan,

Evinizin dövlətisən, varısan.

Yüz il yaşa, ol «babuşka», qarı sən,

Ömrün keçsin bahar-yazlı, İlahə!

Atanla-ananla böyü bəxtiyar,

Səndən gen düşməsin heç vaxt ilk bahar.

İdris dayın vüsalından hey yazar,

Yaşadırsan sən bir nəsli, İlahə!

31.08.83.

Dörd dost

(Həyatdan erkən köçmüş qardaşım oğlu Mehmanın əziz xatirinə)

Dörd dost tanıyıram: dörd ürək dostu,

Dörd həqiqət dostu, dörd dilək dostu.

Cib, süfrə, pul dostu deyillər onlar,

Belə düşünülsə, qəbahət olar.

Çıxıblar dostluqda hər bir sınaqdan,

Həyat edibdir onları imtahan.

Bəs kimdir, o dostlar, nədir adları?

Eləsə, tanıyın dörd dostu-yarı:

Biri xoş simalı, qara gözlüdür,

Şirin ləhcəlidir, şəkər sözlüdür.

Baxışı mənalı, dərindən-dərin.

Od salıb qəlbinə xoş gözəllərin.

Qıvrım saçlarını küləklər darar,

Qoy ona yar olsun nəğməli bahar.

Bu dostun adına Mehman deyərlər,

Səxavətdə ona yoxdur bərabər.

Hala süd əmmişdir Mehman anadan,

Köməyinə çatsın bizi yaradan!

Nəriman dostlardan yaşca kiçikdir.

Qəlbi çox nazikdir, sapdan tünükdür,

Dostlara həqiqi yol göstərəndir,

Dəyərli məsləhət, öyüd verəndir.

Bütün məclislərdə başda Nəriman,

Onunla yanaşı oturur Mehman.

Üçüncü dostunsa adı Ənvərdir,

Bahar övladıdır, bahardan tərdir.

Dostlarla yanaşı gedəndə Ənvər,

Hamı deyir: necə bəxtəvərdirlər?

Hələ bir Mətləbdən söz açım sizə

Dostluğa layiqdir, gəlməsin gözə.

Mətləb həyalıdır, dostlar yanında

Həqiqi dostluğa layiqdir o da.

Onlar bir-birini tamamlayırlar,

Hərənin qəlbində min-min arzu var.

Hər bir arzunuza çatın, a dostlar!

Şad günü bir yerə qatın, a dostlar!

Əbədi yaşayın qəlblərdə ancaq,

Səadət bağından düşməyin uzaq.

Bu sözlər İdrisdən qalsın yadigar,

İstəsəniz o da sizə dost olar.

13 may, 1985.

Natəvan

(Bənövşə gözlü bacım qızına)

Bu gün nə xoş gündür, nə xoş məqamdır,

Sanki təbiət də gülür, Natəvan!

İlhamım, di sən də gəl çat dadıma,

Bu gün hər yan nəğmə deyir, Natəvan!

Ömrün iyirminci baharındasan,

Özün də ətirli bir ilk baharsan.

Təravətin əskilməsin heç zaman,

Bunu təmiz qəlbim deyir, Natəvan!

Gözlərin mavidir göy gölüm kimi,

Ürəyin təmizdir bu elim kimi.

Yoxdur belə baxış baxışın kimi

Bir parça nur yaranıbdır Natəvan!

Məlahət, nəvaziş yatıb səsində,

İncəlik, zəriflik var hər sözündə.

Bir parlaq ulduzsan göyün üzündə,

Gözəl, xoş günlərin gəlir, Natəvan!

Həyat meydanında, ömür yolunda

Rast gəlmə namərdə, rast gəlmə yada,

Çat hər bir arzuna, çat hər murada,

Qarşında bax, dan sökülür, Natəvan!

Bahar səpsin yollarına işıq, nur,

Sevgilinlə ömrü qoşa başa vur.

Bununçün insana verilir ömür

Neynim demə, xoş dövran sür, Natəvan!

Arzum səni daim xoşbəxt görməkdir,

Dayı xeyir-duasını verməkdir.

Sinən altda döyünən saf ürəkdir,

Sənə uğur, bol-bol uğur, Natəvan!

İgidlikdə bir dənəsən, Murad bəy!

(Qardaşım nəvəsi Murada toy günü münasibətilə)

Bu gün subaylığın daşın atırsan,

Bu gün arzu-muradına çatırsan.

Bu gün «eşqin dəryasına batırsan»,

Bu toy-düyün mübarəkdir, Murad bəy!

Köksün altda saf ürəkdlr, Mursd bəy!

Nurdan yaranmısan başdan-binadan,

Xoşbəxt doğulmusan oğul, anadan.

Qoy sənə yar olsun Ulu Yaradan,

Bəxtəvərsən, bəxtəvərsən, Murad bəy

Süd verən anana əhsən, Murad bəy!

Gözün aydın olsun, ata Sücəddin,

Qol götür, rəqs elə, sevin, şadlan, din.

Ay gənc ana, aydın olsun gözlərin!

Arzuna çatdırdı səni Murad bəy,

Yaxşı tanı dost-düşməni, Murad bəy!

Qəlbini ovladı bir qonşu qızı,

O, adl qız deyil, bir dan ulduzu.

Gözəllər içində gözəllər gözü,

O gözəl bəxtinə düşdü, Murad bəy!

Arzuların aşıb-daşdı, Murad bəy!

Bil ki, mürəkkəbdlr həyat yolları,

Daim axtar etibarlı dostları.

Sev hər fəsli, sev payızı, baharı,

Heç vaxt həyatda büdrəmə, Murad bəy!

Sədan yayılsın aləmə, Murad bəy!

Evinizdən gəlsin bir körpə səsi,

Sizi isindirsin körpə nəfəsi,

Səni tərk etməsin gənclik həvəsi,

Sən gəncliyə nümunəsən, Murad bəy!

İgidlikdə bir dənəsən, Murad bəy!

25 oktyabr. 2010.

Qəlbim dilə gəlir sizi görəndə

(Qardaşım Kərbəlayı Ağababanın böyük gəlini Nazxanıma!)

Deyirsən: bu qədər sözü-söhbəti
Sən hardan tapırsan, ay Mirzə əmi?
Eşit sözlərimdə bir həqiqəti:
Mən sizdən alıram eşqi-ilhamı.

Gördükdə sizin tək qohumları mən
Qəlbim sevincindən bir dağa dönür.
Qələmim bu zaman tutur əlimdən,
Sizdən ilham alır, sizlə öyünür.

Hər dəfə gələndə doğma kəndimə,

Üzlərdəki gülüş mənə bəs edir.

Çatdırır taleyim məni əhdimə,

Hələ az yazmısan, hələ az deyir.

Nə qədər mehriban, səmimisiniz,

Vallah, hər biriniz bir dastansınız.

Həyatda qalacaq sizin iziniz,

Həm layiqli ana, həm qadınsınız.

Siz ey qardaşımın yeddi gəlini!

Hər biriniz bir ay, bir ulduzsunuz!

Allah sizə halal ocaq bəxş edib,

Halaldır suyunuz, çörək-duzunuz.

Sizin qaynananız-qibləgahınız,

Mənim də anamdır, bunu da bilin!

Qaynatanız – ikinci Allahınız,

Onlardan güc alın, sevinin, gülün!

…Bütün bunlar məni gətirir dilə,

Arabir yazıram yeri gələndə.

Sizdən ayrılanda qərib oluram,

Qəlbim dilə gəlir sizi görəndə.

30 iyun, 1992-ci il.

Arzu adlı bir qız dünyaya gəldi

(10 yaşlı Arzu üçün)

Bir ümid, bir istək arzuya döndü,

Bir parlaq, bir sönməz ulduza döndü.

Qaranlıq gecələr gündüzə döndü,

Arzu adlı bir qız dünyaya gəldi.

Bahar qış fəsliylə yarışa çıxdı,

Buludlar kişnədi, şimşəklər çaxdı.

Günəş otağından boylanıb baxdı –

Arzu adlı bir qız dünyaya gəldi.

Gül açdı, bir səhər nəsimi əsdi,

Təbiət sevindi, bu nə həvəsdi?

Arzular çağladı, hamı tələsdi –

Arzu adlı bir qız dünyaya gəldi.

Qəlblərə nur doldu, könüllər güldü,

Çiçəklər dil açdı, bülbüllər güldü.

Hamıdan çox xanım nənələr güldü –

Arzu adlı bir qız dünyaya gəldi.

Quşlar nəğmə dedi bağçada-bağda,

Lalə yanağını bəzədi dağda.

Həzin pıçıltıyla dindi bulaq da –

Arzu adlı bir qız dünyaya gəldi.

Aralığa söhbət düşdü, söz düşdü,

Qarabağdan Lənkərana səs düşdü.

Bəxtimizə bir qaragöz qız düşdü –

Arzu adlı bir qız dünyaya gəldi.

Vəfada xan Nigar, hünərdə Həcər,
Qara kişmiş olub, ciblərdə gəzər.
Atalı-analı xoşbəxt, bəxtəvər –
Arzu adlı bir qız dünyaya gəldi.

Evin nübar qızı, nübar uşağı,
Qohum-əqrəbanın yar-yaraşığı.
Bir ata vüqarı, bir göz işığı –
Arzu adlı bir qız dünyaya gəldi.

Mərd kişilər bayramında doğulan
Mayası mərd oğullardan yoğrulan,
Min igidə bərabər bir qız olan –
Arzu adlı bir qız dünyaya gəldi.

…Arzu 20 yaşına çatıbdır,

Sevincini sevinclərə qatıbdır.

Şirin-şəkər, bal-noğula batıbdır –

Arzu adlı bir qız dünyaya gəldi.

20 fevral, 1993-cü il.

Gecə-gündüz qardaşları araram

Elegiya

(İki il öncə hacı Rizvan qardaşımı, üstəlik, əmi cənazəsi üstünə gələn, əmi yoxluğuna dözməyib oradaca keçinən Mehmanı, bu yaxınlarda onun atası kərbəlayı Ağababa qardaşımı itirdim)

Əzrail tuş gəlib ünvanımıza,

Döyür qapımızı vaxtsız-vədəsiz.

İstərik yetişək bahara, yaza,

Tez gəlib can alır, qoymayır bir iz...

Dəymişdi qəlbimə bir qardaş dağı,

Əlavə bir dağ da üstünə gəldi.

Soldu ömrümüzün bostanı, tağı,

Dünya boyda bir dağ üstümə gəldi.

Atamın əvəzi böyük qardaş da,

Uçub əlimizdən quş kimi getdi.

Böyük arxa idi elə, elata,

Elə bil nəslimin günəşi batdı.

Nurdan yaranmışdı hər iki qardaş,

Biri kərbalayı, o biri hacı.

Biri ata idi, o biri sirdaş,

Biri məsləkdaşım, biri baş tacım.

Hər ikisi elin vuran qoluydu,

Canlarından keçərdilər el üçün.

Yolları müqəddəs İslam yoluydu,

Onlarsız ötməzdi məclis, toy-düyün..

Hacı Rizvan bir ulusa yaraşıq,

Kərbəlayı Ağababa bir aləm.

Hər ikisi həzrət Əliyə aşiq,

Onlar təki aşiq mən görməyirəm.

...Cavan Mehman əmiyə qurban getdi,

Əmi yoxluğuna dözə bilmədi.

Bir cüt qızlarına "əlvida" etdi,

Onların toyunu görə bilmədi.

Məni qınamayın ağırdır, ağır,

Bir cüt qardaş dağı dəyib sinəmə.

Fələk qılıncını köksümə sancır,

Dözmək asan deyil belə sitəmə.

Qoşa qolum idi cüt qardaşlarım,

İndi bir qanadsız quşa bənzərəm.

Onlar idi mənim dövlətim-varım,

Gecə-gündüz qardaşları gəzərəm,

Mehman yoxluğuna necə dözərəm?!

Ulu Tanrı sizə yar olsun, Şahlar!

(Qardaş oğlu Şahlar bəyə toy günü münasibətilə)

Qızılı payızın nübar çağında,
Səadət qapısın açırsan, Şahlar!
Məhəbbət mülkünün kəhkəşanına
Sevdalı ürəklə uçursan, Şahlar!
Səadət qapısın açırsan, Şahlar!

Sevdalı ürəyin heç vaxt sönməsin,
Məhəbbət yolunda qoy qalsın izin.
Dil-dodaqda gəzsin söhbətin, sözün,
Yalnız saf eşqinin qulu ol, Şahlar!
Məhəbbətlə yaşa, kama dol, Şahlar!

Qismətinə düşüb öz xalan qızı,

O, adi qız deyil, bir dan ulduzu.

Yola salın neçə payızı-yazı,

Sevdasız keçməsin bir anın, Şahlar!

Gəzib bu dünyanı dolanın, Şahlar!

Dünyanın hələ ki bilinmir yaşı,

Məhəbbət onunla gedir yanaşı.

Sən sevda yolunda deyilsən naşı –

Həyatı sevdayla siz vurun başa

Qoşa qarıyaraq çatın yüz yaşa!

Oğul, qız yetirib, atın qol-budaq,

İşığınız gəlsin, hey qucaq-qucaq.

Sizlərdən bizlərə çatsın xoş soraq –

Xoşbəxt ömür sürün dünyada, Şahlar!

Bac vermə nakəsə, sən yada, Şahlar!

Əmin İdris sizi təbrikə gəlib,

Sizinlə fəxr edib, sizinlə gülüb.

Sizi qollarına qüvvət, güc bilib,

Ulu Tanrı sizə yar olsun, Şahlar!

Saf məhəbbət daim var olsun, Şahlar!

3 sentyabr, 1993-cü il.

Sən güləndə dünya nura boyanır

(Nəsirovlar nəslinin gözəli Tutu xanıma)

Qara gözlü, siyah zülflü gözəl qız,
Xoş çağında Tanrı yaradıb səni.
Göydə sənə həsrət çəkir ay, ulduz
Yerdə bəzəyirsən çölü, çəməni.

Sən güləndə dünya nura boyanır,
O günəş üzündən şəfəq süzülür.
Neçə cavan tamaşana dayanır,
İgidlər dərdindən yanır-üzülür.

Çinar timsallıdır boyun, qamətin,

Yerişin ceyranı qoyur kölgədə.

Hamıya bəllidir həyan, ismətin,

Səni tərk etməsin qismət heç vədə.

Qızlar bulağından sən su içmisən,

Bulaq suyu kimi təmiz qəlbin var.

Süd verən anana alqış, min əhsən,

Donunu biçibdir ətirli bahar.

Sənsən bu gen dünyamızın bəzəyi,

Xoşbəxtlik yazılıb alnına sənin.

Sənsən nəslimizin arzu, diləyi,

Bəxtəvər qızısan ana Vətənin.

10 mart, 2012.

Altı yaşlı Cavidi təbrik edin

(Bacım nəvəsi Cavidə ithaf olunub)

Altı yaşı tamam olub Cavidin,

Gəlin bu gün Siz onu təbrik edin.

Qurban olum onun qara gözünə,

Şirin şəkər – bal süzülən sözünə.

Nuranə bacısı heyran özünə,

Altı yaşı tamam olub Cavidin –

Gəlin bu gün Siz onu təbrik edin.

Dərsə gedir altı yaşı olmamış,

Kiçik qəlbi görməsin heç boran-qış.

Ata-anasına alqış, min alqış!

Altı yaşı tamam olub Cavidin –

Gəlin bu gün Siz onu təbrik edin.

Yaşa dolsun bizim Cavid balamız,

Böyük oğlan olsun igid balamız.

Ürəklərdə qalsın Cavid balamız,

Altı yaşı tamam olub Cavidin –

Gəlin bu gün Siz onu təbrik edin.

Xoşbəxt olub igidlərə qoşulsun,

İgidlər içində tərlan quş olsun,

İçək Cavid sağlığına, nuş olsun!

Altı yaşı tamam olub Cavidin –

Gəlin bu gün Siz onu təbrik edin.

Gözün aydın olsun Şakir atası,

Nə gözəldir qızıl gülün butası.

Sən də bir söz söylə, Əli babası,

Harda qalıb bəs İbrahim babası?

Altı yaşı tamam olub Cavidin –

Gəlin bu gün Siz onu təbrik edin.

Nə gözəldir belə şadlıq gecəsi?

Gəlib çıxsın bura Zakir əmisi.

Bir gün olsun Cavidin toy məclisi.

Bu gün isə Cavidin ad günüdür,

Bu gün isə Cavidin şad günüdür,

Altı yaşı tamam olub Cavidin –

Gəlin bu gün Siz onu təbrik edin.

15 noyabr, 1995-ci il.

Mübarəkdir toy-düyünün, Elnur bəy!

(Qardaşım nəvəsinə həsr edirəm)

Bu gün vüsal qapısını açırsan,

Arzuların qanadında uçursan.

Öz bəy otağına işıq saçırsan,

Mübarəkdir vüsal günün, Elnur bəy,

Mübarəkdir toy-düyünün, Elnur bəy!

Bugünkü gəncliyə sən nümunəsən,

Sevinir səninlə, öyünür Vətən.

Ey oğul anası, südünə əhsən,

Səadətlə keçsin ömrün, Elnur bəy

Hər saatın, hər bir günün, Elnur bəy!

Baban, nənən sənin boyuna qurban,

Necə gülərüzsən, necə mehriban.

Valideynin sən nübar övladısan,

Xoşbəxtlik nəsibin olsun, Elnur bəy

Qəlbin arzularla dolsun, Elnur bəy!

Seçmisən özünə gözəl bir nigar,

Sevin bir-birini olun bəxtiyar.

Ömrünüzə ətir sərsin ilk bahar

Qoşa addımlayın hər an, Elnur bəy!

Sizdən razı qalsın dövran, Elnur bəy!

Gözün aydın ana, mehriban ata,

Övladınız yetişibdir murada.

Ellər yığışıbdır bu toy-büsata!

Olasan gələn il ata, Elnur bəy!

Eşq olsun bu şən həyata, Elnur bəy!

23 iyul, 2003.

Sənə layla çalsın çiçəkli bahar

(Bacım nəvəsi Hacıya ithaf edirəm)

Babalar dünyadan köçüb gedəndə,

Nəvələr göz açıb dünyaya gəlir.

Babalar həyata vida deyəndə

Nəvələr dil açıb həyata gülür.

İllər öz işini gördü nə gördü,

Bir körpə bir evə sevinc gətirdi.

Ürəklər sevindi, fərəhlə doldu

Tale bizə nəvə Hacı bəxş etdi.

Bala Hacı indi iki yaşdadır,

Şirin-şəkər, gözəl bir bala olub.

Qaşı-gözü indi adam aldadır,

Ağıllı-kamallı şir bala olub.

Yeni ilin ilk ayında doğulub,

Arzu qanadında böyüsün Hacı.

İstəkli, sevimli bir oğul olub,

Qoy olsun elinin o şöhrət tacı.

Qayğısız böyüsün, ərsəyə yetsin,

Üstündən əsməsin heç acı rüzigar.

Atanı-ananı bəxtəvər etsin

Ona layla çalsın çiçəkli bahar.

Yanvar, 1985.

Gözünüz aydın, əzizlərim

(Qardaşım oğlu Şahin ata oldu)

Gözün aydın olsun, a Şahin kişi,

Allaha min şükür, ata olmuşam.

Gör nə qəribədir dünyanın işi?!

Çoxdankı arzuna - kama çatmısan.

Nə vaxtdı üzürdü bizi bir həsrət:

Körpə səsi gəlsin sənin evindən.

Axır Ulu Tanrı etdi mərhəmət,

Bu hala sevindim sizdən çox mən də.

İlahi, çox şükür kəramətinə,

Hərəyə öz ürəyincə verirsən.

Min-min lənət səni tanıtmayana

Tanrı qismətinə mərhəba, əhsən!

Mənim mərifətli qızım, Fərqiyyə,

Qurban olum ana olan adına.

Mehribanım, şirin sözüm, Fərqiyyə,

Tək hamı yetişsin öz muradına.

Kərbəlayi Ağababa, eşit bir,

Sənin duaların müstəcəb oldu.

Bilirdim bu dünya xali deyildir!

Şahin ata oldu! Çox əcəb oldu.

Anam yadigarı Xədicə nənə,

O qara gözlərin qoy aydın olsun!

Köhnə dostum Adil, nə deyim sənə?!

Ilkin nəvən igid bir oğlan olsun!

Nurani üzündən gəl öpüm sənin

Ay qeyrətli anam, ay Sibi nənə.

Bircə oğlun baba olubdur sənin

Bəs söylə muştuluq vermirsən mənə?

Çox şey istəmirəm: bir qızıl xoruz,

Verməsən də olar, versən xoş olar.

Daim artıq olsun verən payınız,

Hamınıza Ulu Tanrı olsun yar.

Sənin gözün aydın, Ağanaz bacım,

İntizara son qoyuldu, nəhayət.

Sevincdən az qalır quş olub uçum,

İntizar heç kəsə olmasın qismət.

Başınıza dönüm ay xan əmilər

Nəslimizə bir oğul da pay gəldi.

Sizə kömək olsun o ulu göylər

Bu sevincdən şair qəlbi kövrəldi.

Sizə quzu kəsim qoşa bibilər,

Şahin tərəfindən oldunuz rahat.

Dərdlərin dərmanı əziz Elsevər,

Plov qazanının yanında ye-yat.

Ay xanım xalalar, igid dayılar,

Sizin də gözünüz çox aydın olsun.

Səs salmayın, incə bəbə ayılar

Şirin yuxusuna şəkər, bal dolsun.

Mənim süd qoxulu a Sirac balam,

Qədəmlərin qayım, ruzulu olsun!

Əzizlər, Bakıdan sizlərə salam!

Bir daha gözünüz qoy aydın olsun

Bir daha gözünüz qoy aydın olsun.

1 iyul, 1996.

Vəfa üçün

Xəstəxanada ağrılardan əzab çəkən bu iflic qız ürəyimi dağladı

Adın özünə

Yaraşır sənin.

Kədər görməsin

Ala gözlərin.

Necə şirinsən,

Şəkər, bal kimi?!

Səsin, sorağın

Tutsun aləmi.

Bizim gəncliyə

Sən nümunəsən.

Daim nikbin ol,

Qəlbinə əhsən!

Xoşbəxt olmağa,

Sən layiq qızsan.

Ulu Tanrıdan

Şəfa taparsan!

Həyat yolunda

Ümidlə yaşa.

İstədiyin tək

Ömrü vur başa!

…Ağ atlı oğlan

Çıxsın bəxtimə.

Çıxın dünyanın

Qoşa seyrinə.

Sizi alqışlar

Bu şair İdris.

Ömür yolunda

Qalsın iziniz.

12.01.2012-ci il.

Həyat meydanında büdrəmə

(Gənc həkim dostum Zamana ad günü münasibətilə)

Ad günün mübarək, gənc dostum mənim!

İlləri adlayıb yüzə çatasan.

Sənինlə fəxr etsin bu oban-elin,

Səndən ayrılmasın arzum heç zaman.

İlk qar kimi təmiz qəlbin var, Zaman,

Ömrün olsun daim yaz-bahar, Zaman!

Tanrı qüvvət versin qoşa qoluna,

Qoy səni çatdırsın hər muradına.

Səadət nur səpsin ömür yoluna,

Həyat meydanında büdrəmə, Zaman,

Xoş sədan yayılsın aləmə, Zaman!

Bugünkü gəncliyə sən nümunəsən,

Sinəndə narahat qəlb gəzdirirsən.

Səntək təmiz qəlbli insana əhsən!

Zamanın səsinə cavab ver, Zaman!

Hər cür çətinliyə sinə gər, Zaman!

Ümman ürəyində min-min arzu var,

İstək varsa, arzu-kam da çin olar.

Qəvvas dərinlikdə mirvari tapar.

Qəvvas ol, dəryaya baş vur, ay Zaman!

Xoşbəxt günlərini bir-bir say, Zaman!

Gələcək sənindir, sənindir xoş gün,

Hələ irəlidən gəlir toy-düyün.

Qismətinə layiq bir gözəl düşsün,

Toyunda bolluca süzüm mən, Zaman!

Körpə səsi gəlsin evindən, Zaman!

19.02.94.

Atanın-ananın arzu-diləyi

(Səfuraya ad günü münasibətilə)

Evin sonbeşiyi, gülü-çiçəyi,

Xoş sözü-söhbəti sənsən, Səfura!

Atanın-ananın arzu-diləyi,

Ürək hərarəti sənsən, Səfura!

Uzun-əyri kirpiklərin yan-yana,

Ala gözün işıq saçır cahana.

Yüz yaşasın ay səni doğan ana!

Övlad məhəbbəti sənsən, Səfura!

Yanağına şəfəq qonub Tanrıdan,

Sənlə öyünür mehriban atan.

Hifz eləsin görüm səni yaradan,

Yüz oğul qeyrətli sənsən, Səfura!

Doymaq olmur şirin-şəkər sözündən,

Nur tökülür yanağından, üzündən.

Amma keçmə bəzən hikkə, nazından,

Atanın şöhrəti sənsən, Səfura!

Qurbanam əzəldən adına sənin,

İyinə, qoxuna, dadına sənin.

Şəkərmi qatılıb zatına sənin?!

Dünyanın şərbəti sənsən, Səfura?!

Qoşa bacın sənin qolun-qanadın,

Arzu baş tacındır, Aysel muradın.

Gəzsin el-obada, ellərdə adın,

Elin güc-qüdrəti sənsən, Səfura!

Nənənə layiq bir nəvəsən, gülüm!

Tər çiçəksən, qönçə, təzəsən gülüm.

Atanın ömrünü bəzə sən, gülüm!

Evin naz-neməti sənsən, Səfura!

Ad günün mübarək olsun, Səfura!

Dərd-qəm səndən uzaq olsun, Səfura!

Gözlərin sevinclə dolsun, Səfura!

Dünyanın ləzzəti sənsən, Səfura!

13 oktyabr, 1992-ci il.

Toyun mübarək!

(Gülnara xanım üçün)

Baharın bu gözəl, əlvan çağında,

Mübarək toy günün, Gülnarə xanım!

Xoş günlərin keçsin ömür bağında,

Qoşa xoşbəxt olun, Gülnarə xanım!

Səadət, sədaqət sizə yar olsun,

Həyat yollarınız ilk bahar olsun.

Qoy bütün sevənlər bəxtiyar olsun

Arzu-kama dolun, Gülnarə xanım!

Bilməyin qəm-qüssə, bilməyin kədər,

Ananın zəhməti getməsin hədər.

Hamı sizi qoy çağırsın bəxtəvər,

Əhdə vəfa qılın, Gülnarə xanım!

Sizi qorxutmasın nə boran, tufan

Birgə addımlayın daim, hər zaman.

Görüm hifz eləsin sizi yaradan,

Dost olsun ətrafın, Gülnarə xanım!

Gül, sevin, fərəhlən, ay qız anası

Ver qızına ana xeyir-duvasın.

Bir qız böyütmüsən – bir su sonası

De ki, ağbəxt olsun, Gülnarə xanım!

Xoşbəxt ol, xoşbəxt ol, daim xoşbəxt ol,

Həmişə beləcə təravətli qal.

Qismətinə düşsün neçə qız, oğul

Anan nənə olsun, Gülnarə xanım!

İlhama gətirdin şair İdrisi,

Ürəyimdə coşdu gənclik həvəsi.

Sizi tərk etməsin bahar nəfəsi

Baharla öyünün, Gülnarə xanım!

1985.

Ona bahar yaraşır

(Gülsara xanıma 20 yaşı münasibətilə)

Asudə vaxtlarında
Tanrı yaradıb onu.
Bahar sığal çəkərək
Geyindirib donunu.

Yanağı al lalədir,
Gözləri zülmət gecə.
Durur tamaşasına
Neçə tin, neçə küçə.

Həsəd aparır ona
Neçə qız, neçə gəlin,

Cavanlar, yan ötməyin

Tələsin, yaxın gəlin.

Yoxsa ağatlı oğlan

Alıb onu aparar,

Gedər üzü bahara.

Özünə eləyər yar.

Tanış olun o qızla

Adı nədir? - Gülsara!

Bahar ona yaraşır

Onun özü bahara!

Bu da qızın ünvanı:

"Gələcək gün" qəzeti

İgid oğlan, gəl ovla,

Əldən vermə fürsəti!

Əldən vermə fürsəti!

20 mart, 2004

Adın yaraşır özünə

(Sevimli İradəyə)

Böyük bacımızın ilk qız nəvəsi,
Qışın əvvəlində dünyaya gəldin.
Özünlə gətirdin bahar nəfəsi,
Elə bil baharda açan tər güldün.

O gündən ev-eşik gül-çiçək açdı,
Qəh-qəhən yayıldı qonum-qonşuya.
Üzlərdən qəm-kədər tez uzaqlaşdı,
Sevincin qədəri gəlmədi saya.

Xoş sözün-söhbətin elləri gəzdi,

Yaxın da, uzaq da səndən danışdı.

Ömür kitabını taleyin yazdı,

Böyük də, uşaq da səndən danışdı.

Böyüdün sən gündə bir arpa boyda,

Səmimi, mehriban bir qız oldun sən.

Özün də bilmədən, quzum, İradə,

Səmada bir parlaq ulduz oldun sən.

Daxilində qeyrət-namus yurd salıb,

İsmətdə Nigarsan, qeyrətdə Həcər.

Bunlar nənələrdən sənə irs qalıb

Yeddi igid pəhləvana bərabər.

Gör necə yaraşır adın özünə,

Sənə belə ad verənə min alqış!

Bel bağla həyatda öz iradənə

İradənə söykən, sən ondan yapış.

Onda çətinlik də səndən gen keçər,

Həyat imtahanı qorxutmaz səni.

Qəlbin istək-arzulardan su içər –

Əgər ki dinləsən ürək deyəni.

Dünən şagird idin, bu gün tələbə,

İstəsən sabah da alim olarsan.

Hər bir çətinliyə çalsan qələbə –

Andına həmişə sadiq qalarsan.

Xoşbəxt çağlarındır sənin, İradə,

Ömrün bahar fəslindəsən sən bu gün.

Bahar çağlarındır sənin, İradə,

Bu fəsildə sənçin olsun toyun-düyünün!

El yığışsın səni təbrikə gəlsin,

Bahar libasını geydirsin sənə.

Hamı bir ağızdan ürəkdən desin:

Bir mərd igid çıxsın kaş qismətinə!

7 noyabr, 1984.

Bu toy günün mübarəkdir, Anar bəy!

(Kərbəlayı qardaşın Ağababanın Anar nəvəsinə onun toy günü münasibətilə)

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Bu gündən başlanır vüsal dəmlərin,

Üzünə nur səpsin hər al səhərin

Yayılsın aləmə ən xoş xəbərin

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Gözün aydın olsun, ay Telman ata!

Nübar oğlun yetir arzu-murada,

Heç vaxt tuş gəlməsin namərdə-yada,

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Sən də sevin, bəyə süd verən ana,

Xeyr-dua söylə Anar balana,

Evə gəlin gələn şux nigarına,

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Sizə quzu kəsim, ay xan əmilər,

Sizin sevinciniz göylərə yetər,

Əmi övladları sevinib deyər:

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Bugünkü gəncliyə nümunəsən sən

Adınla fəxr edir anamız Vətən,

Ətrafında açsın nərgiz, yasəmən,

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Sevgilinlə ömrü qoşa vur başa,

Görüm heç bir arzun dəyməsin daşa.

Əbədi sadiqsən dosta-sirdaşa.

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Həyat yollarında heç vaxt büdrəmə,

Təslim olma nə bir dərdə, nə qəmə,

Namərddən, nakəsdən aman gözləmə,

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf ürəkdir, Anar bəy!

Səndən nəvə payı gözləyir atan,

Sizi hifz eləsin Ulu Yaradan,

İdris əmin bəstə boyuna qurban,

Bu toy günün mübarəkdir, Anar bəy!

Köksündəki saf iirəkdir, Anar bəy!

8 oktyabr, 2008. Boradigah qəsəbəsi

Gözütox ziyalı dostum

(İltimas müəllimə ad günü münasibətilə)

Gənc bir ailəyə qonaq gəlmişik

Burda hər şey, hər şey göz oxşayır, göz.

Üzə gülür, vallah, billah, ev-eşik,

Fikrimi deməyə söz tapmıram, söz.

Bu evdə təzə bir körpə dil açır,

Hələ ilk addımı ata bilməyir.

Bu evdə təzə bir körpə gül açır,

Körpə qəhqəhəsi heç əskilməyir.

Babası ad verib ona: Ruqiyyə!

Adıyla böyüsün bu qız balamız.

Şükr olsun Xudaya, o Ulu Göyə,

Göylərdən enibdir ulduz balamız.

Altı aylığında ilk dəfə körpə

Ata qucağına özünü atıb.

Nübar balasını, o öpə-öpə,

Körpə, qucağında yuxuya batıb.

Bu hissi keçirən mehriban ata,

Sanki bir dünyalıq sevinc qazanıb.

Ata yetib ilk arzuya, murada,

Qəlbinə od, qoluna güc qazanıb.

…Bu gün ad gününə yığışmışıq biz,

A mənim gözütox ziyalı dostum!

Ürəyi günəştək parlaq, pak, təmiz,

Pərdəli, abırlı, həyalı dostum.

Təbrikə gəlmişik dostumla səni,

Ömrünün ətirli bahar çağında.

Qələm, sən də söylə ürək deyəni,

Bülbül cəh-cəh vursun gül budağında.

Eşit sözlərimi gənc dost, İltimas,

Qəm-qüssə görməsin o geniş qəlbin!

Qəlbinin səsinə hər an qulaq as,

Yerində söz danış, yerində də sus!

Təmiz, səliqəli ev-eşiyinə,

Sadiq dostlarının ayağı dəysin.

İbrahim müəllim yuxarı başda,

Oturub məclisdə sağlıq söyləsin!

Ruqiyyə balamız pərvazlansın, hey!

Nəğməsi yayılsın elə-obaya.

Qoy ona yar olsun mavi dəniz, göy,

Sorağı ucalsın Günəşə, Aya.

…Gənc bir ailəyə qonaq gəlmişik,

Bu evdə həmişə ruzu bol olsun!

Üzə gülür vallah, billah, ev-eşik!

Evin xanımının eli var olsun,

Bu evdə həmişə ilk bahar olsun!

6-8 dekabr, 1966-cı il.

Sığal çəkim telinə

(Nəğmə)

İllər boyu axtarmışam səni mən,

Bəs harada gizlənmişdin, söylə sən.

Söylə, mələk, göylərdənmi enmisən?

Bir də səni gözdən uzaq qoymaram,

Qismətimə yazılmısan, Dilaram!

Nəqərat

Kəmər çox yaraşır incə belinə,

Sinəmə qon, sığal çəkim telinə.

Aman Allah, o baxış nə, o göz nə?!

Köklənmişəm, sarı simli bir sazam,

Qismətimə yazılmısan, Dilaram!

Bu dünyanın bəxtəvəri mənəm, mən,

Taleyimə səni həmdən bilmişəm.

Qoşa gəzək, uzaq bizdən kədər, qəm,

Boran bilməz, şaxta bilməz baharam,

Qismətimə yazilmısan, Dilaram!

Nəqərat

Kəmər çox yaraşır incə belinə,

Sinəmə qon, sığal çəkim telinə.

Aman Allah, o baxış nə, o göz nə?!

Köklənmişəm, sarı simli bir sazam,

Qismətimə yazılmısan, Dilaram!

Gözün aydın, oğul atası!

(Jurnalist həmkarım Habil Tağıyevin oğul balasına)

Gözün aydın olsun, Habil müəllim!

Oğul atasısan, şükür Allaha!

Ürək sözlərimi sənə söyləyim,

Elə bu gün saxlamıyım sabaha.

Nə yaxşı ki yuxum çin çıxdı mənim,

Göylərdən bir körpə endi yerlərə.

Gör necə də rahat vurur ürəyim,

Şükür olsun sənə, Tanrım, min kərə.

Rəbbin qüdrətiylə bir oğul bala,

Göz açıb həyata, gəlib dünyaya.

Süd qoxulu, şirin-şəkər, gül bala,

Sevinc bəxş eləyib elə-obaya.

Mübarək qədəmin uğur gətirsin,

Doğma ocağıma, a məsum bala!

Ruzunu qoy Ulu Tanrı yetirsin,

Budur mənim sənə ilk sözüm, bala!

Adını mən sənə verirəm, gülüm,

Vüsal! söyləyirəm, böyü adınla!

Atanın-ananın vüqarı ol sən,

Ürəkləri qızdır daim odunla!

Düşmənini tanı körpəliyindən,

Bil ki mərklidir, zatı qırıqdır!

Əl çəkən deyildir bəd əməlindən,

Bilərsən: ipləri yaman qırıqdır!

Sən qoşa babanın gözünün nuru,

Qoşa nənələrin şirin sözüsən!

Atanın, ananın ovu-uğuru,

Qollarının gücü, görən gözüsən.

Üstündən əsməsin acı küləklər,

Düşmənin gözünə iti bıçaq ol!

İsinsin əlinlə necə ürəklər,

Vətən torpağında sönməz ocaq ol!

Böyü, xoşbəxt yaşa, çat muradına

Arzuların qanadında ucal sən!

Daim xoş xəbərlər çatsın adına,

Baban kimi yüz yaşında qocal sən!

Bu gün subaylığın daşın atırsan

(Elvin bəyin toy gününə həsr olunur)

Bu gün subaylığın daşın atırsan,

Mübarəkdir toy otağın, Elvin bəy!

Uzaqdan-yaxından qonaqlar gəlib,

Xoş gəlibdir hər qonağın, Elvin bəy!

Necə saf ürəkli sadiq dostun var,

Onların önündə Xalid dayanar.

Görməsin qəlbiniz tufan, boran, qar;

Pozulmasın bu növrağın, Elvin bəy!

Gözün aydın olsun, ay bəy anası,

Bir gəlin almısan sular sonası.

Elvin olsun yeddi oğul atası,

Hər biri olsun dayağın, Elvin bəy!

Belinin gücüdür hər üç qardaşın,

Bibilər yanında ucadır başın.

Var olsun dostların-yarın-yoldaşın,

Gəlsin daim xoş sorağın, Elvin bəy!

Adınla fəxr edir igid əmilər,

Sənə daim doğru yol göstərənlər.

Səxavət dayın da sənlə öyünər,

Boradigah öz oylağın, Elvin bəy!

Ömrünüzə keşik çəksin səadət,

Yolunuza nur çiləsin məhəbbət.

And yeriniz olsun vəfa, sədaqət,

Çiçək açsın solun-sağın, Elvin bəy!

Köksündə döyünür odlu bir ürək,

Orada yurd salıb min arzu-dilək.

İdris deyir: a bəy, toyun mübarək!

Bağbanısan yeni bağın, Elvin bəy!

12.IX.2010-cu il.

Bakı. Yasamal.

Əhli-müsəlman olmusan

Hüquqşünas dostum Etibar Savalanın yeganə oğul payı Elmirin kiçik toyu münasibətilə)

Qəzəl

Gözün aydın, gül bala, əhli-müsəlman olmusan,

Baharın xoş çağında güllərə bağban olmusan.

Bəy otağın bəzənibdir gör necə də şahanə?!

Bədnəzərdən uzaq ol, təxti-Süleyman olmusan.

Yığışıbdır dostların, hər biri bir arzu-dilək,

Onların önündə sən mayak, çırağban olmusan.

Tanrının bəxş etdiyi bir parlaq nur parçasısan,

Bu böyük dünyamıza Sultani-dövran olmusan.

Sən bu gündən girmisən kişilərin cərgəsinə,

Qoy deyək ki, biz sənə bir igid oğlan olmusan.

Əhdi-peyman bağlayıb, yar olasan bir gözələ,

Söyləsinlər ki, sənə xoşbəxt bir insan olmusan.

Sən Etibar atanın layiqli övlad payısan,

Ananın gözündəsə güclü pəhləvan olmusan.

Sən bu İdris babanı şura gətirdin, gül bala,

Qısası, hamımızın qəlbində dastan olmusan.

5 iyun, 2011-ci il.

Doğmasan hər kəsə, Teymur müəllim!

Professor, əsl ziyalı, xeyirxah və müdrik insan Teymur Əhmədova

İlahidən nur ələnib üzünə,

Nuranilik sığal çəkib gözünə.

Məftunam hər söhbətinə, sözünə,

Şirin ləhcən qoy var olsun, müəllim!

Vətən sənə qoy yar olsun, müəllim!

Necə mehribandır gülümsər siman,

Qılınctək itidir işıqlı zəkan.

Bir də nəmlənməsin gözün heç zaman.

Heç bir ata övlad dağı görməsin,

Heç kəs ömrü vaxtsız başa vurmasın!

Doğmasan, munissən hər bir kəsə sən,
Vallah, dəyanətdən don geyinmisən.
Ziyalılıq süzülür üz-gözündən,
Mayan yoğrulmuşdur xeyirxahlıqdan,
Səni hifz eləsin Ulu Yaradan.

Alimlər içində öndə gedirsən,
Doğrudan da sən elm fədaisisən.
Adınla fəxr edir bu el, bu Vətən,
Nankor qonşulara qənimsən, qənim.
Çünki düz deyirsən, Teymur müəllim!

Hopub qanına nəciblik, səxavət,
Səni yaşadır xalqına məhəbbət.
Vətən verir qollarına güc, qüvvət,

Ürəyinə təpər, Teymur müəllim,

Ağsaqqal bəxtəvər, Teymur müəllim!

Kamillik, müdriklik yaraşır sənə,

Günəş şəfəq saçır güləş üzünə.

Salam söyləyirəm mən dünəninə,

Bu gününə alqış, Teymur müəllim,

Bu gününə alqış, Teymur müəllim!

25 dekabr, 2012

Alim-bəxtəvər

(Professor Musa Quluzadə üçün)

Gecə-gündüz elm yolunda çalışdın,
Çox uğur qazandın, zirvələr aşdın.
Haqq yolunda daim yandın, alışdın –
Ey elmin qapısı, Musa müəllim,
Ədalət carçısı, Musa müəllim!

Çəkdiyin zəhmət də getmədi hədər,
Ərsəyə gətirdin çox elmi əsər.
Hamı deyir sənə alim-bəxtəvər,
Ey elmin qapısı, Musa müəllim,
Ədalət carçısı, Musa müəllim!

Xidmət göstərirsən Azərbaycana,

Professor adı yaraşır sana.

Şöhrətin sığmayır heç bir dastana –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

El-oba yanında üzün ağdır-ağ,

Asan deyil əsil ağsaqqal olmaq,

Elmi əsərlərin hey yaşayacaq –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

40 ildən çox müəllim işləmisən,

İlham alırsan müqəddəs peşəndən.

Əlindən su içib neçə tələbən,

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

«Əməkdar müəllim» adın mübarək,

Köksündə döyünür odlu bir ürək.

O gün olsun biz Şuşada görüşək -

Enib, «İsa bulağı»ndan su içək,

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Üç övlad bəxş edib sənə Yaradan,

Onları hifz etsin özü Yaradan.

Səndən uzaq olsun yaramaz, nadan –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Hələ təpərlidir o saf ürəyin,

Hasil olsun hər bir arzu-diləyin.

Halal olsun dostla kəsən çörəyin –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Sənինlə fəxr edir eloğlun İdris,

Qoymusan həyatda bir əbədi iz.

Ahıl yaşda xoş keçsin günlərimiz –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Müəllimlər müəllimi

(Xeyirxahlıq və nəciblik rəmzi olan əsl ziyalı, təhsil fədaisi Nadir Ağayevə)

Çöhrəndəki təbəssüm,

Qəlbindən su içibdir.

Şərəfli ömür yolun

Zəhmətdən don biçibdir.

Neçə könül güc alır,

Ürəyinin odundan.

Vətənim qürur duyur,

Əməlindən, adından.

Abşeron torpağında

Hənirin var, izin var.

Gör bir neçə ürəkdə

Söhbətin var, sözün var?

Necə deməyim sənə

Bu yerdə Simurq quşu?

Sən bugünkü təhsilin

Ilkini – qaranquşu!

Müəllimlər müəllimi

Desəm yenə az olar.

Zəhmətdən yoğrulanın

Ömrü bahar, yaz olar.

Xeyirxahlıq, nəciblik

Rəmzimi deyim sənə?!

Yazılır hər uğurun

Vətənin sinəsinə.

Müdrikləşdirir səni

Ömrünə bəzək illər –

Nur çiləyir üzünə.

Bəyaz dona bürünür

Əvvəlki qara tellər…

1 iyul, 2012-ci il.

ŞİRİN-ŞƏKƏR BALALARA HƏSR OLUNAN ŞEİRLƏR

Jalə

O qızın adı Jalədir,

Yanaqları al lalədir.

Totuq-totuq əlləri var,

Qıvrım-qıvrım telləri var.

Qapqaradır girdə gözü,

Bal-şəkərdir hər bir sözü.

O güləndə çiçək açır

Bağça-bağlar,

Şölə saçır al yanaqlar.

Gül-çiçəyə səpələnən

Şehdir Jalə.

Ürəkləri sərinlədən

Mehdir Jalə.

Uçan-qaçan kəpənəkdir

Körpə Jalə.

Yaz ətirli tər çiçəkdir

İpək Jalə.

Uzun-uzun kirpikləri

Yan-yanadır.

Bütün qızlar bir yanadır,

Jalə qız da bir yanadır.

1976

Babanın adını şərəflə daşı

(Qardaşım Əlvanın adını daşıyan 1 yaşlı Əlvan nəvəsinə ad günü münasibətilə)

Gəlmisən dünyaya bahar çağında,

Gəlişin mübarək, a körpə bala!

Çoxdan gözləyirdik sənin yolunu

Min şükürlər olsun Ulu Tanrıya!

Bahar yağışında çimmisən, quzum,

Üzündə, gözündə yazın ətri var.

Səmada bərq vuran yeni ulduzum,

Bu gen dünyamızda yaşa bəxtiyar!

Mübarəkdir, gülüm, bir yaşın sənin,

Atdığın hər addım qoy möhkəm olsun!

Ellada, xoş gəlib qardaşın sənin,

Əlvan daim arzu, dayağın olsun!

Gözün aydın olsun, qardaşım Əlvan!

Həvən Əlvan sənin dövlətin, varın.

Ay nənələr, siz də sevinin, gülün,

Əlvandır müjdəsi bu ilk baharın.

Atanın, ananın sevinci, Əlvan,

Ruzi gətir doğulduğun ocağa.

Səni hifz eləsin bizi Yaradan,

Səsin, sədan yayılsın hey uzağa.

Babanın adını şərəflə daşı,;

Ol layiqli davamçısı nəslimin.

Sənə tuş gəlməsin nə nakəs, naşı,

Səadət, xoşbəxtlik olsun nəsibin.

Gəl öpüm üzündən, ay qara kişmiş,

Şirin, şəkər, balsan, ay noğul bala!

Sevinc, fərəhimiz əbəs deyilmiş,

Düşmənə göz dağı, ay oğul bala!

16 aprel 2012

Dəniz də yatır?

- Ata, söylə, bəs yatrmayır,

Dincəlməyir heç bu dəniz?

Dalğaları aşıb-daşır

Gecə-gündüz?

- Niyə yatmır? Yatır, qızım,

Bal yuxuya batır, qızım.

Elə yatır yorğun düşmüş

Uşaq kimi.

O yatanda üz-gözünü

Asta-asta yelpikləyir

Ağ yelkənli neçə gəmi.

Gecələrsə – sən yatanda

Şirin yuxuya batanda

Keşik çəkir mavi dəniz

Oyaq qalır.

Sənə həzin layla çalır.

İndi bildin, əziz balam,

Yatıb-durur dəniz, balam?

İnsan kimi o dincəlir,

O sevinir, o da gülür?

Gülüz qonaq gedir

Gülüzə bax, Gülüzə!

Gülüz ki gəlir bizə!..

Hə, odur tini dönür,

Kuklası da görünür.

Alıbdır qucağına -

Əcəb yaraşır ona!

Gedib qarşılayım tez,

İnciməsin qoy Gülüz.

- Ay Gülüz, xoş gəlmisiz!

Çoxdan gözləyirdik biz –

Kuklamla yolunuzu.

Gəlin, gəlin. Ay sizi…

Siz oturun dincəlin,

Özünüzə bir gəlin,

Mən gedim çay gətirim,

Sonra da yemək verim.

Ac olarsız siz yəqin,

Utanmayın, düz deyin.

Gələr indi anam da,

Şənlik qurarıq burda.

Balaca «bağbanlar»

Görürsüzmü o qızları
Gül bağında səhər-səhər?
Gül bəsləyir, çiçək dərir
O məktəbli rəfiqələr.

Tanış olun: gül sulayan
Qız ki var ha? O Tellidir
O birisi – çiçək dərən
Günəş üzlü qız – Güllüdür.

Güllü, Telli bu gün yenə
Günəşdən tez oyanmışlar.
Saçlarını səhər mehi darayıbdır –

Al şəfəqə boyanmışlar.

…Hər budaqda neçə qönçə,

Necə gözəl, necə incə!..

Gör nə qədər şeh qonubdur

Hər çiçəyə, hər qönçəyə?!

İstəyirsən damcı-damcı

Süz onları piyaləyə.

Bax, necə cür çiçək vardır

Məktəbin gül bağçasında?

Tər qızılgül neçə rəngdə

Çiçək açıb?

Elə bil ki, bütün güllər

Küləklərin qanadında

Bura uçub…

Bu balaca «bağban» qızlar,

Nəğməli, mehriban qızlar

Öz balaca əllərilə

Becərmişlər gül bağını.

Şeh qoxulu, meh qoxulu

Çiçəklər də öz rənginə

Boyamışlar.

Gül qızların yanağını.

Mən – Nərgizəm

(Dostum İbrahimin nəvəsinə)

Tanış olun: mən – Nərgizəm.

Şirin sözlü, alagözəm.

Mavi-mavi gözlərim var

Gözlərimə qonub bahar.

Mən güləndə güllər açır

Hər tərəfə ətir saçır.

Yanağımda lalə yatıb,

Bir şirin yuxuya batıb.

Saçımı darar küləklər,

Hörər xallı kəpənəklər.

Çiçəklərdən don biçərəm,

Coşğun çaylardan keçərəm.

Dərə aşıb, düz keçərəm

Soyuq bulaqdan içərəm.

Yaz çayı tək mən coşaram,

Ellərə nəğmə qoşaram.

Şehli bənövşə dərərəm,

Özümə çələng hörərəm.

Səsimə səs verər quşlar

Yazda gələn qaranquşlar.

Nəğmə deyər gülə bülbül,

Pərvazlanar, gülər könül.

Yorulub yatarsam əgər,

Meşə mənə nəğmə deyər.

Güllər yelləyər üzümü

Bənövşə oxşar gözümü.

Başım üstdən quşlar ötər,

Yuxuma bal, şəkər qatar.

Üzümə toxunar lalə

Oyanıb dallam xəyala.

Bahar qızı mənəm, mənəm,

Dan ulduzu mənəm, mənəm.

Tanış olun: mən – Nərgizəm,

Gözəl, göyçək, incə qızam.

8.06.96, Sabirabad.

Babanın sevinci

(İlk nəvəm Fəridə)

- Xoş gəldin, Fərid balam,

Mehriban, igid balam.

Sevindirdin məni sən,

Söylə, gülüm necəsən?

Baban qocalıb daha

Ümidi yox sabaha.

Tez-tez yoxla babanı

Gəl sevindir sən onu.

Hamı tanıyır səni,

Hamı qınayır məni

- Fərid niyə gəlməyir?

Əhvalını bilməyir?

Tanış-biliş soruşur.

Sevincim aşıb-daşır.

Demək, səni sevən var.

Sevilin, ay balalar!

Həm də sevin Vətəni.

Düzü, çölü, çəməni.

Vətən anadır bizə,

Bəzəkdir ömrümüzə.

Onun daşı da əziz,

Bil ki, yaşamaq olmaz,

Bu dünyada Vətənsiz.

7.06.2007.

Pişiyimin adı Sarı

Pişiyimin adı Sarı

Tükləri qırmızı-sarı.

Vardır mas-mavi gözləri,

Bəzən cırmaqlayır yeri.

Asta-asta yerişi var,

Ahu kimi duruşu var.

Hər nə versən, Sarı yeyir,

Yeyən kimi üzün yuyur.

Nəvazişi sevir yaman,

Çəkinməyir uşaqlardan.

Qucağımda xumarlanır,

Dərin bir yuxuya dalır.

Çox sevirəm Sarını mən,

O da uzaq gəzmir məndən.

20 noyabr, 2000.

Lesya Ukrainka

Ukrayna dilindən iki tərcümə

Yay çoxdan ötüb

Yay köç edib, çoxdan ötüb,

İndi hər yeri qar örtüb.

Yaman darıxıb uşaqlar,

Bir-birindən soruşurlar:

- Yaydan gözəl fəsilmi var?

Görən bu qış nəyə gərək?

Vıyıldayır soyuq külək.

Dağı-düzü boran alır,

Baxdıqca qanın qaralır.

Bütün günü pəncərədən

Nə qədər çölə baxasan?

Kimdir səni bu havada

Evdən bayıra buraxan?!

Görünməyir qışın sonu,

Dəyişməyir öz donunu.

Dayanmayır dəli külək,

Qar şaxtadan naxış çəkir.

Təbiətə vurur bəzək,

- Səbr eləyin, uşaqlar, siz,

Çox keçməz ki, görərsiniz

Yay yenə yerini alıb.

Qışdansa xatirə qalıb.

Bizim çöllər də gül açır,

Hər tərəfə ətir saçır.

Bahar ətirli çiçəklər

Əlvan-əlvan ləçəkləyər.

Bahar axşamı

Günəş batıb, axşam düşür,

Ay pəncərəmlə görüşür.

Sayrışır göydə ulduzlar,

Hər yerdə bir sakitlik var.

Çıxıb bir az gəzim bağı,

Seyr edim ulduzu, ayı.

Nə gözəldir doğma diyar?!

Ona bənzər ölkəmi var?

Gecə – bir mehriban ana,

Komamı alıb qoynuna.

Külək əsir həzin-həzin

Qoy bahara nəğmə desin.

Sevincə bax, Sevincə!

Arzulardan doğulub,

Arzu-kamla yoğrulub,

Bir yaşında qız olub,

Çevrilibdir sevincə –

Sevincə bax, Sevincə!

Dodağı süd qoxuyur,

Min söz tökür, toxuyur,

Bülbül kimi oxuyur –

Həm gündüzlər, həm gecə –

Sevincə bax, Sevincə!

Şeytan kimi dil bilir,

Gah ağlayır, gah gülür,

İstəsə hədələyir,

Günlər keçir beləcə –

Sevincə bax, Sevincə!

Xoş sözlərdən sevinər,

Soyuq baxsan deyinər,

Əməlilə «öyünər».

Tamaşadır diricə –

Sevincə bax, Sevincə!

Hələ körpə qönçəsən,

İncədən də incəsən.

Sevinc qat sevincə sən,

Addımla incə-incə –

Sevincə bax, Sevincə!

Dost haqqında bayatılar

Dağ-dərə keçərəm mən,

Güldən don biçərəm mən.

Vəfalı dost yolunda

Canımdan keçərəm mən.

Qanad alıb uçaram,

Dərd-ələmdən qaçaram.

Dostu qüssəli görsəm

Üstünə nur saçaram.

Sükansız gəmi olmaz,

Əkinsiz zəmi olmaz.

Vəfalı dost tapanın

Dünyada qəmi olmaz.

Salxım söyüd sevərəm,

Salxımları hörərəm.

Bəd ayaqda dostuma

Canımdan can verərəm.

Dərdimi yazaram mən,

Daşlara düzərəm mən.

Dostu vəfasız görsəm

Dünyadan bezərəm mən.

Yolum düşdü Salyana,

Ordan keçdim Muğana.

Dost odur yaman gündə

Sənə arxa dayana.

Ağacdan püstə düşdü,

Gəlib gül üstə düşdü.

Mən dərdi tək çəkmədim –

Yarısı dosta düşdü.

Bıçaq düşmən gözünə,

Düşdüm Muğan düzünə.

Qəzadan yan keçərdim –

Baxsaydım dost sözünə.

Burdan yaralı keçdi,

Rəngi saralı keçdi.

Yəqin dostum inciyib –

Məndən aralı keçdi.

Bu dağlar haça dağlar,

Gör necə haça dağlar?!

Əziz dostun küsməsi

Qəlbimi haça dağlar.

Bu dağ ucadır, dostum,

Bizdən qocadır, dostum.

De, məndən gen gəzəni

Halın necədir, dostum?!

Bu dağ dağımdır mənim,

Lap göz dağımdır mənim.

Xəbər verin dostuma,

Yaman çağımdır mənim.

Bu söyüd salxım söyüd,

Saçını hörüm, söyüd.

Çətin gündə yanımda

Dostumu görüm, söyüd.

Yaz səhəri yaxşıdır,

Sübh ülkəri yaxşıdır.

Düşmənin şərbətindən

Dost zəhəri yaxşıdır.

Bənövşə boynu bükük,

Nədəndir qəlbi sönük?

Gedərəm yad ellərə

Görsəm dostumu dönük.

Bənövşə kol dibində,

Danışır kol dilində.

Toy olsun, bayram olsun –

Sadiq dostun elində.

Nə böyük bir postum var,

Nə bir kəsə qəsdim var.

Nə malım, nə dövlətim –

Bir əqidə dostum var.

Mart, 1996.

Qəzəllər

YARADIB

Nədən bu Tanrı səni böylə mehriban yaradıb!

Mən kimi bir xəstənin dərdinə dərman yaradıb!

Bu, nə mürvət, nə səxavət, bu nə qüdrətdir səndə?!

Belə bir dövri-zəmanə belə insan yaradıb.

Nəzər etdim qəlbinin aynasına bircə kərə,

Gördüm orda tanrımız bağı-gülüstan yaradıb.

Gecə-gündüz oturub nazı-qəmzənə dözərəm,

Taleyim qismətimə nə yaxşı mehman yaradıb!

Bizi bir fəsli-bahar alıbdır öz ağuşuna,

Bizə bu güşəyi rizvanında dastan yaradıb.

Gün kimi aydın bilirsən sənə sadiqliyimi

Sənin üçün yaradan canımı qurban yaradıb.

Səni vəsf etməkdən ötrü çoxları aciz qalıb,

Ulu Tanrım İdrisi sənə qəzəlxan yaradıb.

BİLİRƏM

Nankor qonşu cəzasını alacaqdır, bilirəm,
Axırda özü də peşman olacaqdır, bilirəm.

Nə qədər ki uyurlar əcnəbi dəmtutanlara,
Üzlər görmüş üzləri tez solacaqdır, bilirəm.

«Dənizdən-dənizə» - deyib, ey xəyalplov yeyənlər!
Bu niyyət başınızda sınacaqdır, bilirəm.

Hey zarıyıb, «əzabkeş, yazıq millət» deyə-deyə,
Bir vaxt göz yaşlarında boğulacaqdır, bilirəm.

Bir qarış da vermərik torpağımızdan, yağı, bil,
Bu arzu ürəyinizdə qalacaqdır, bilirəm.

Canımızdır Qarabağ, çün candan ayrılmaq olmaz,

Bu dərddən düşmən hələ saralacaqdır, bilirəm.

«Yersiz gəldi, yerli qaç» məsəlini unutma gəl,

Burnun ovulub, yenə ovulacaqdır, bilirəm.

Maskalanmış iç üzün də bəlli oldu aləmə,

Zori dar ağacından asılacaqdır, bilirəm.

İdris də sizin dabbaqda gönünüzə bələddir,

Bu fələk başınıza daş salacaqdır, bilirəm.

26.07.92.

YÜNGÜLLƏŞ BİR AZ

Sirrini dostuna aç, yüngülləş bir az,

Bədəsildən uzaq qaç, yüngülləş bir az.

İnanma namərdə, keçmə körpüsündən,

Dostun körpüsündən keç, yüngülləş bir az.

Düşmən əlindən şərbət içmə, hiylədir,

Dost əlindən zəhər iç, yüngülləş bir az.

Halal süfrənə dəvət etmə namərdi,

Dostunu pis gündə seç, yüngülləş bir az.

Milyonun olmaqdansa, bircə dost ara,

Onunçün candan keç, yüngülləş bir az.

İdris, gəl uyma çox sənə dost deyənlərə,

Əsl dostçün ağart saç, yüngülləş bir az.

MÜXTƏLİF ŞEİRLƏR

Gəlibdir yaz, bənövşə!

Güllərin incəsi sən,

İncədən də incəsən.

Söylə, kimdən inciksən,

Ömrü bir yaz, bənövşə?!

Kol dibində mürgülə,

Tay deyilsən hər gülə.

Ünün yetmir bülbülə?

Bir az da döz, bənövşə!

Qar-borandan qaçırsan,

Yazda ətir saçırsan.

Başqa güllər açanda

Söylə, hara uçursan?!

Söylə bir söz, bənövşə.

Gəzdin çölü-çəməni,

Ətrin məst etdi məni.

Niyə görmürlər səni

«Heç yerdə düz» bənövşə?

Boynunu bükmə, bükmə,

Göz yaşı tökmə, tökmə.

Qəlbimi sökmə, sökmə –

Gəlibdir yaz, bənövşə!

2012

Əyilmə, dostum!

(Qaçqın ömrü yaşayan müəllim dostum Adil Loğmana)

Sənə rast gəldiyim günümə qurban!

Ulu Laçınına-elinə qurban!

Baldan şirin-şəkər dilinə qurban!

Mən sənə əbədi sirdaşam, dostum!

Mən sənə əbədi qardaşam, dostum!

Neçə ildir köçkün ömrü sürürsən,

De, Laçının kimə qaldı, de, dostum?!

Cəhənnəmin əzabını görürsən,

O gül rəngin niyə soldu, de dostum?!

De, kim buna bais oldu, de, dostum?!

Torpağını kimlər satdı, de, kimlər?

Torpağına haram qatdı, de, kimlər?

Muradına kimlər çatdı, de, kimlər?

Sərvətləri yağıya qalan dostum,

Düşmənə əyilmə, düz dayan, dostum!

Kədər yuva salıb qara gözündə,

Taqətin tükənib artıq dizində,

Bunu hiss edirsən bəlkə özün də,

Amma ki ümidlə yaşayan dostum!

Beləcə, ümidlə yaşa, yan, dostum!

Ömür sürür vaqonlarda köçkünlər,

Yayda-qışda çadırlarda köçkünlər,

Nicat hardan?- qalıb darda köçkünlər,

Ərşə dirənibdir zülüm, a dostum,

Of! Bundan yaxşıdır ölüm, a dostum!

Fəda olum sənin ümman dərdinə,

Çərxi-fələk dövr edir tərsinə,

Bircə əlacın var - hələ gər sinə,

Qoca dünya belə qalmaz, a dostum.

Bir az da döz, bir az da döz, a dostum!

P.S. Qaçqınlıq həyatına dözə bilməyən Adil 2010-cu ildə dünyasını dəyişdi.

16 yanvar 2007

«Qarabağın şikəstəsi» yüksələcək

Neçə ildir murdarlanıb torpağımız

Murdar yağı nəfəsiylə.

Neçə ildir pozulubdur növrağımız

Murdar qonşu tələsiylə.

Neçə ildir Azərbaycan övladları

Əsir-yesir, didərgindir.

Milyondan çox qaçqın-köçkün, Ulu Tanrı,

Bu, nə bəla, bu, nə gündür?

O quşqonmaz, o ünyetməz Şuşam hanı

Öz Topxana meşəsiylə?

Bəs Kəlbəcər-bütün dərdlərin dərmanı?

Bulaqların gur səsiylə?

Murovdağın bükülübdür bel-buxunu,

Qan-yaş tökür qəzəbindən.

Talayıblar bu yerlərin var-yoxunu,

Güllərini dərir düşmən.

Laçınımı – o laçınlar yuvasını

Kimlər aldı, kimlər satdı?

Qarı düşmən görüm çəksin bəlasını –

Başımızı yaman qatdı.

Dağ çəkildi Zəngilanın meşəsinə –

Hər bir ağac bir ər igid.

Viran qalmış Xocalının naləsinə

Fələklərin özü şahid.

Qarabağın ürəyinin şah damarı

Ağdam niyə süqut etdi?

Sərişləsiz rəhbərlərin tamahına,

İştahına qurban getdi.

Yağı düşmən, xoruzlanma, elə bilmə

Bu savaşda sən qalibsən.

Qürrələnmə, fərəhlənmə, hələ gülmə –

Sən axırda güləcəksən…

Yetər, artıq dünya bilir iç üzünü –

Təcavüzkar əməlini.

Azərbaycan torpağına uzadılan

Xain, xəbis, yad əlini.

Nankor qonşu, murdar əlin kəsiləcək –

Çıxacaqsan torpağımdan.

«Qarabağın şikəstəsi» yüksələcək

Unutma heç bunu, nadan…

3-5 may, 1996-cı il.

Müəllim

Ələ qələm alıb «ana» sözünü
Yazmağı bizlərə sən öyrətdin, sən.
Hər zaman hər yerdə sözün düzünü
Söyləməyi bizə sən öyrətdin, sən.

Sən öyrətdin bizə hər vaxt böyüyə,
Ehtiram və hörmət bəsləməyi də.
Vətənin yolunda candan keçməyi,
Yağıya kin, nifrət bəsləməyi də.

Təmiz ruhlu, saf niyyətli müəllim,
Biz səni görəndə, fərəh duyuruq.

Tükənməzdir məhəbbətin, müəllim,

Qəlbimizdə sənə heykəl qururuq.

Dəniz qəlbli, günəş üzlü, müəllim,

Hər sözün, söhbətin bizə əzizdir.

Xoş rəftarlı, şirin sözlü, müəllim,

Saf ürəyin coşğun çaydır, dənizdir.

25 noyabr, 1996.

Yeni il gəlir

Budur, yenə yurduma,

Yeni – təzə il gəlir.

Uşaqların sevinci

Ulduzlara yüksəlir.

Adamlar köhnə ilə

«Sağ ol» deyib ayrılır.

Qəlblərə, könüllərə –

Min arzu, dilək dolur.

Uzaqdan qonaq gəlib

Şaxta baba Qar qızla.

Vidalaşıb ayrılır

Qarlı qış boz payızla.

Ay uşaqlar, tez gəlin

Gözləyir, Şaxta baba.

Mahnı deyək, rəqs edək.

Şənlik etsin el-oba.

Qədəmlərin uğurlu

Qoy olsun təzə ilin.

Kaş hər günü xoş keçsin

Bu yurdumun, bu elin.

22.XI.96.

Mat qalmışam

(Aşıq İmrana)

- Aşıq İmran, səndən bir söz soruşum:

Niyə bu sovetlər düşdü bu hala?

Topdağıtmaz bir ölkəyə nə gəldi?

De, kim səbəb oldu bu qeyli-qala?

Bu nakəs qonşular, nankor qonşular,

O Ulu Tanrıdan niyə qorxmurlar?

Bəs kimdir onlara qahmar, havadar?

Mat qalmışam, düzü, mən bu suala.

Bu yazıq millətin nədir günahı?

Niyə heç bir yerə çatmır harayı?

Nə vaxtacan yerdə qalacaq ahı?

Anlaya bilmirəm mən bu məlalı.

Dünya özü tapmacadı, sualdı,

Ondan kimlər keçdi, kimlər bac aldı?

Şair İdris yaşa doldu, qocaldı,

Kim deyər qoymaram onu qocala?!

1991. aprel. «Bilgəh» sanatoriyası.

Nə olub bu millətə?

Fələkmi üz döndərib
Bu millətdən görəsən?
Yox, yox, bu Ulu Tanrı
Üz döndərib deyəsən.

Fələkmi üz döndərib,
Görəsən bu millətdən?
Neçə ildir qurtarmır
Bu əzabdan, zillətdən?

Nə olub bu millətə
Günü zillətdə keçir?
Namərd qonşu əlindən
Ağu, zəhrimar içir?

Bu, Tanrının işidir –

Qovurur bu milləti

Qovurğatək alovda.

İntiqam alır ondan

Elə bu od, alov da.

Tanrı deyir: unutqan

Olma bunca, a millət!

Nə qədər ki beləsən

Çəkəcəksən çox zillət.

Bir də tamah, iştaha

Bədbəxt etdi milləti.

Qurban verdi tamaha

Bu böyük məmləkəti.

Bu fələk də, Tanrı da

Qarğayır bu milləti.

Deyir: özünə bir gəl,

Unutma bu zilləti.

Özünü yaxşı tanı,

İştahanı bas bir az.

Qonşunu yaxşı tanı

Unutqan bir millətdən

Heç vaxt tam millət olmaz.

10 oktyabr, 1997.

Möcüzə dünyası ilə üz-üzə

(Rəssam dostum Hafizi Nəsiroğlunun rəsm əsərləri qarşısında düşüncələr)

Möcüzə yaradan sənətkar dostum,

Əllərin qızıldır – desəm, səhv olmaz.

Tanrı vergisidir bəxş olub sənə

Sənət və sənətkar heç vaxt məhv olmaz.

Bir fırça, bir qələm, bir də təxəyyül,

Sənət dünyasıyla birləşən zaman

Əsl möcüzələr yarada bilər.

Belə möcüzələr yaradan insan

Donmuş hissləri də oyada bilər.

Möcüzə dünyanla üz-üzəyəm mən,

Sənətin seyrindən donub qalmışam

Sənətkar qüdrəti! Sənə min əhsən!

Sehrinə düşmüşəm: mən lal olmuşam.

Donmuş duyğuları oyadan əsər

Məni lal eləyib! Bu, nə hikmətdir?!

Rəssam, saatların getməyib hədər,

Bu, sənətdən doğan gücdür, qüdrətdir.

25 iyul, 1998-ci il.

Dünya yaman dünyadır

(Nübar nəvəm Fəridə)

Fərid bala, bu dünyaya xoş gəldin,

Qədəmlərin mübarəkdir, mübarək!

Gəlişinlə sən qıtlığa tuş gəldin

Qəm eyləmə, uğurludur gələcək.

Fərid bala, sənə yazığım gəlir,

Bu əjdaha dünya sənə güc gələr.

Mənim bu dünyadan acığım gəlir

Qorxuram: üstünə yalavac gələr.

Dünyanın özünə qalsa, nə var ki?

Oxu ətrafında cövlan eyləyər.

Bala, yaxşı düşün, onu da bil ki

Dünya bir kəhərdir – belində yəhər.

Dünyanı yerində oynadanlar var

Dünyanın cilovu əllərindədir.

Onlar qarlı qışı eyləyir bahar

Çiçəkli baharı qışa döndərir.

Onlardan özünü qoru hər zaman

Düşsən tilovuna, udarlar səni.

Kömək də eləməz əsla Yaradan

Bir anda torpağa qatarlar səni.

Fərid bala, dünya yaman dünyadır,

Asan deyil, hər sirrindən baş açmaq,

Gələn gedir, dünya qalan dünyadır,

Bu hikmətdən məgər mümkünmü qaçmaq?

1998.

Tərsinə

Nə bir ədalət var, nə də haqq sözü
Nə bir ölçü-biçi, mizan tərəzi
Baş-ayaq dayanıb həyatın özü
Bir ovuc dəllala qalıb xəzinə
Zəmanə dövr edir yaman tərsinə.

Pozulub iç dünya, itib namus, ar,
Tüğyan edir xəstəlik, azar, bezar.
Tanrıdan da əlac yoxdur dərdinə
Zəmanə dövr edir yaman tərsinə.

Talan olur xalqın varı-dövləti
Daşınır xaricə bol-bol sərvəti.

Deyəndə də düz sözü, həqiqəti

Bir nəfər də səs verməyir səsinə

Zəmanə dövr edir yaman tərsinə.

May 2000.

Masallının İsti suyu

Nəğmə

Yoxdur tayı-bərabəri,

Masallının İsti suyu.

Heyran edir göyü-yeri

Masallının İsti suyu.

Nəqərat

Ulu Tanrı möcüzəsi,

Əsrlərin sirli səsi,

Baloğlanın şux nəğməsi

Masallının İsti suyu.

Fatimeyi-Zəhra ocağı,

Yeganə şəfa bulağı.

Çatıb dünyaya sorağı

Masallının İsti suyu.

Cənnətməkan bir guşədir,

Hər tərəfi göy meşədir.

Yaz ətirli bənövşədir,

Masallının İsti suyu.

Ruhun şad, Mir Kazım ağa,

Sən can verdin bu ocağa.

Mehribansan hər qonağa,

Masallının İsti suyu.

Yüz yaşa, Hacı İldırım!

Tükənməsin arzuların!

Bir gün də sənsiz olmasın

Masallının İsti suyu.

İdris bu elin oğludur,

Bura igidlər yurdudur.

Min bir dərdin dərmanıdır,

Masallının İsti suyu.

2011

Oğullar

(Mahnı-marş Azərbaycan əsgərlərinə həsr olunur)

Yer üzünün bünövrəsi, dayağı,
Sizsiniz bostanın qol atan tağı.
Başınız üstündə türkün bayrağı.
Tanrı sizə qoy yar olsun, oğullar,
Ömrünüz ilk bahar olsun, oğullar!

Vətən torpağında göstərin hünər,
Yolunuza nur səpsin hər al səhər.
Sizi hifz eləsin bu ulu göylər.
Uğurunuz olsun Günəş, oğullar,
Günəşdən siz alın atəş, oğullar!

Sizə südü halal edib ananız,

Enli çiyninizdə durub dünyamız.

Üzünüzə gülsün daim bahar-yaz

Sizə sevmək yaraşır, ay oğullar,

Qızlar sizə yaraşır, ay oğullar.

Nəsillərin tükənməyən davamı,

Od övladı məgər qorxarmı oddan?

Yağılarla dava-qovğa zamanı

Düşmənin gözünə bıçaq oğullar,

Babək, Koroğlutək qoçaq oğullar!

Elim-obam bu gün sizə güvənir,

Yurdum-yuvam bu gün sizə güvənir.

Şair İdris gör sizlərə nə deyir:

Babaların yolu ilə gedin siz,

Ruhlarını beləcə şad edin, siz!

Yenilməzdir qüdrətiniz, oğullar,

Unudulmaz qeyrətiniz, oğullar!

27 may, 1993-cü il.

İki ürək daşıyan

(Şair-tərcüməçi Səyavuş Məmmədzadəyə)

İki qəlb daşıyırsan,

İki qəlb yaşayırsan.

İki qəlblə yaşamaq,

İki qəlblə yaratmaq

Sizə gəlməsin asan.

Hər əzaba hazırsan,

İki dildə yazırsan –

Həm Puşkinin dilində,

Həm Müşfiqin dilində.

Hörmətin var həmişə

Həm Puşkinin elində,

Həm Müşfiqin elində.

Puşkini də sevirsən,

Nakam Müşfiqim kimi.

Əhsən sənə, min əhsən!

Qoy dillənsin həmişə

İki ürək daşıyan,

İki ürək yaşayan

Şair qəlbinin simi

Şeir qəlbinin simi.

25.05.96.

Hippokrat andı halaldır sənə!

(M. Topçubaşov adına Cərrahiyyə Mərkəzinin həkimi Gülarə xanım Kərimovaya)

Bilmirdim dünyanın harasındayam,

Sən məni həyata qaytardın, həkim!

Payızla qışımın arasındayam,

Qəlbimə yazıldı gül adın, həkim!

Mübarək, şəfalı əllərinlə sən,

Məntək neçə xəstəyə verdin şəfa.

Özün də çiçəksən, nursan, şəfəqsən,

Sağ ol deyir sənə yaxın, el-oba.

Gülümsər çöhrənə nur səpir günəş,

İlıq baxışların xəstəyə dərman.

Sinəndə döyünən ürək - bir atəş,

Səndən alıb qüvvət, güc neçə insan.

Hippokrat andı halaldır sənə!

Ağ xalat yaraşır şümşad boyuna.

Könül verdin həkimlik sənətinə,

Ey müqəddəs qadın, mehriban ana!

Sənə sağlamlığın rəmzi deyirəm,

Neçə xəstələrin xilaskarısan.

Mən də bir şairəm, əlimdə qələm,

Deyirəm: Yurdumun ilk baharısan!

6 may 2008

Ağxalatlı qız

(Stomatoloq-həkim Lamiyə xanıma)

Ay ağxalatlı qız, Lamiyə adın
Həkimliyi peşə etdin özünə.
Heç vaxt tükənməsin alovun-odun,
Qəm-qüssə qonmasın günəş üzünə!

Şirin dilin qəlbimə məlhəm oldu,
Diş ağrını, baş ağrını unutdum.
Mələhətli səsin kifayət etdi
Xəstəliyi tamam bir yana atdım.

İncə qamətinə xalat yaraşır,

Mərhəmət çilənib o gül çöhrənə.

Hər bir xəstəni sən sağlam görəndə

Fərəhin, sevincin hey aşıb daşır.

Hələ növcavansan, bahar ətirli

Uğurlu sabahlar səni səsləyir.

Hifz eləsin səni göylərin əli

Ulu Tanrı daim olsun sənə yar.

10.II.2008.

Daim sağlamlığın keşiyində dur!

(Həkim-stomatoloq dostum Veys Əsədova həsr olunur)

Mülayim baxışın, gülümsər çöhrən,
Ən ağır xəstəyə bir məlhəm olur.
İlk dəfə sənlə bir kəlmə kəsən,
Mehriban dost kimi səndən ayrılır.

Əzəldən qanına hopub səxavət,
Əl tutursan ehtiyacı olana.
Çoxları görübdür səndən mərhəmət,
Xoş əməlin yayılıbdır hər yana.

Üzündən-gözündən nur tökülür, nur,

Şəfəq saçır təbəssümün aləmə.

Daim sağlamlığın keşiyində dur,

Heç vaxt yoruldum, usandım, - söyləmə!

Ayıq olsun insanlar!

Mahnı

Musiqisi Eduard Volosatovundur.

Mahnı Sovet dönəmində həvəskar bəstəkarların beynəlxalq mahnı müsabiqəsində I dərəcəli diploma layiq görülmüşdür.

Ey insanlar, ayıq olun, amandır,

Göy üzünü qara bulud almasın!

Müharibə ölümdən də yamandır,

Anaların gözü yaşla dolmasın.

Nəqərat:

41-45 heç vaxt yaddan çıxmasın,

O iyirmi milyon Vətən şəhidi…

Ayıq olsun, nahaq qanlar axmasın,

Bəşər bir də görməsin o dəhşəti.

Aydın səma başımıza nur səpsin,

«Hərb» sözünü lüğətdən gəl silək biz.

Əllərimiz sülh uğrunda birləşsin,

Çünki bizim tükənməzdir qüvvəmiz.

Nəqərat:

Sülh nəğməsi körpələrin dilində

Kainatı oymaq-oymaq dolaşsın.

Hər kəs xoşbəxt yaşasın öz elində,

Dünya başdan-başa gül-çiçək açsın!

Nişan taxılanda

İki ürək döyünər,

Valideynlər öyünər,

Məclis əhli sevinər –

Nişan taxılanda.

Subaylıq atdan düşər,

İki baxış görüşlər.

Evdə də plov bişər,

Nişan taxılanda.

Ağsaqqallar söz deyər,

Nə desələr, düz deyər.

Gəncləri təbrik edər –

Nişan taxılanda.

Üzük əllərdə gəzər

Üzük barmağı bəzər

Hamı yetirər nəzər –

Nişan taxılanda.

Xatircəmlik yaranar,

Ürəklər rahatlanar

İçilər şirin çaylar

Nişan taxılanda.

Birləşər iki ürək

Gül açar arzu-dilək.

Hamı deyər mübarək!

Nişan taxılanda.

İdrisə ilham gələr,

Qələminə güc verər.

Hamıdan çox sevinər -

Nişan taxılanda.

Nişan taxılanda.

1 fevral, 2012.

HEKAYƏLƏR

Hədiyyə

Anamın altı övladı – altı oğlu var. Evimizin sonbeşiyi mənəm. Çoxları da məni elə bu adla çağırır: sonbeşik!

Atamı görməmişəm. Mən həyata göz açanda, o, dünyasını dəyişib. Ata tərəfdən ürəyim sınaqdır. Nə qayğısını hiss etmişəm, nə də qazancını dadmışam. Ona görə də hamımız mehrimizi anamıza salmışıq. Atamızın da iyini ondan alırıq.

Annam üstümüzdə kirpiyində od götürüb, gözünün nurunu itirib, qəlbinin yağını əridib: qətrə-qətrə. Şəvə kimi qıvrım saçlarını ağ pambığa döndərib. Bizi atasız ərsəyə yetirib. Ancaq təsəllimiz odur ki, anamın zəhməti hədər getməyib. Qardaşlarımın hamısı bir peşəyə sahib olub, özünə ailə qurub. Pis dolanmır heç biri də.

İlk maaşdan hədiyyə almaq ailəmizdə ənənəyə çevrilmişdi. Hər dəfə övladlarından ilk hədiyyə qəbul

edəndə /ilahi, o vaxt anamın ovqatını seyr eləmək mənə necə də xoş gəlirdi?!/, anamın mənalı, ağıllı gözlərində sevinc yaşları parlar, qəlbi dağa dönərdi, çəkdiyi əziyyətləri unudardı anam. Təkcə mən borclu qalmışdım. «Görəsən nə vaxt bu şərəfə nail olacağam?» sualı məni rahat buraxmırdı: nə gecə, nə gündüz. Nə gizlədim, hətta qardaşlarıma qibtə edirdim. Bəzən özümü o ki var danlayırdım, aciz, hünərsiz olduğum üçün.

Kamal attestatı alandan sonra birbaşa texniki-peşə məktəbinə daxil oldum. Montyor peşəsinə yiyələndim. Məni Sabunçudakı neft mədənlərindən birinə göndərdilər. Montyor vəzifəsinə.

Növbə ilə işləyirdim. Axşam növbəsi daha çox ürəyimə yatırdı. Neft mədənlərinin axşamları. Ucsuz-bucaqsız buruqlar meşəsi. Uzaqdan tamaşa etdikcə, özünü sehrli nağıllardakı əfsanəvi aləmdə hiss edirsən. Elə bil intəhasız səmadakı ulduzlar buruqlar arasına səpələnərək, aramla qalxıb-enən mancanaq dəzgahlarına göz vurur. Doğrusu, özümdən razı idim ki, ürəyimcə peşə seçmişəm.

Ayın axırı idi. İdarədən zəng vurdular. Bizi maaş almaq üçün çağırırdılar. Bu, mənim üçün ilk maaş idi. İşçilərimiz əl-ayağa düşdülər. Hamıdan çox mən sevinirdim. /Kim ilk dəf maaş almayanda sevinməyib?!/

Cavan kassir qız ilk dəfə mənim adımı çağırdı. İlk maaş almağım münasibətilə məni təbrik etdi, əlimi sıxdı. Razılığımı bildirib tələsik idarədən çıxdım. Ürəyim uçunurdu. Arzum çiçək açmışdı mənim. Mağazaya tələsirdim. Anama hədiyyə almaq üçün. Nə alacağımı çoxdan kəsdirmişdim: üzərində noxudu gülləri olan narıncı rəngdə parçadan paltarlıq və həmin rəngdə baş örpəyi. Axı ağlım kəsəni anam həmişə qara don geyər, başına da eyni rəngdə örpək bağlardı. Mənsə bunun əleyhinə idim. Hər dəfə anama baxanda qəlbim sıxılardı. Nə qədər yalvarardımsa, arvad inadından dönməzdi. Nəhayət, bir dəfə: «İnşallah, böyüyərsən - işləyərsən, əlin qazanca çatar, o qazancdan mənə xoşuna gələn parçadan donluq alarsan – dedi. - Onda olar sən deyən kimi».

…Həvəslə parça mağazasına girdim. Sıra ilə düzülmüş əlvan parçalar göz qamaşdırırdı. Yaşlı bir satıcı qadına niyyətimi bildirdim. O, arzumu yerinə yetirdi. Donluq parçanı və örpəyi səliqə ilə büküb mənə uzatdı. «Sağlığa qismət olsun» - dedi. Minnətdarlıq edib mağazadan çıxdım.

İki əlim də dolu idi. Anama ürəyim istəyən hədiyyə də, ağız şirnisi «Ana laylası» konfet də almışdım. Ümumiyyətlə, yaxşı bazarlıq etmişdim. Evə tələsirdim.

Zəhmətin ilk bəhrəsi adamı qanadlandırarmış. Mən indi bunun şahidi oldum. İllərlə qəlbimdə yuva salmış ilk arzuma çatmışdım. Anama ilk maaşdan hədiyyə aparırdım. Düşünürdüm: bir daha anam qara paltar geyməyəcək, başına qara örpək salmayacaq. İndi mən deyən kimi geyinəcək: Atamın sağlığında olduğu kimi…

1970.

Südçü

«…Südçü gəlmədi. Borcunu aparmadı. Gəlmədi…gəlmədi..»

Anam sayıqlayırdı. Halı getdikcə xarablaşırdı. Ona hava azlıq edir, boğulmaq dərəcəsinə gəlirdi. Üzük qaşı kimi dövrəyə almışdıq anamı: üç bacı, beş qardaş. Hamımız da çaşıb qalmışdıq. Kiçik bacımdan başqa. Təkcə o özünü ələ ala bilir, anamın çöhrəsinə dağılan, vaxtsız ağarmış ayran kimi saçlarını sahmana salır, üzünü yelləyir, qırışmış, iri göy damarları aşkar görünən əllərini sığallayırdı.

Anam hərdən gözlərini açır, ətrafı – bizi həsrət dolu qayğılı nəzərlə süzür, dərindən ah çəkir, başını narazı halda bulayır, ixtiyarsız gözlərini yenə yumurdu: «südçünü tapın…» Anam 8 övladı qarşısında gözümüz baxa-baxa şam kimi əriyir, əriyirdi.

Anamı xilas etmək üçün hər şeyə hazır idik. Ancaq xeyri yox idi. Xəstəlik öz işini görmüşdü. Bizi onun qarşısında aciz qoymuşdu.

Anama baxıram. Onun ömür kitabı gözlərim önündə səhifələnir…Atam müharibə başlanan ili bizi pərvaz

etməmiş, həyatla erkən vidalaşdı. Anamı başsız qoydu. Yazıq arvad bir dəstə uşaqla qaldı tək, köməksiz, arxasız. Odlu-alovlu müharibə illərində çoxları uşaqlarını uşaq evlərinə verdi. Anam isə heç birimizdən ayrılmaq istəmədi. Qorxdu. İtkin düşəcəyimizdən qorxdu. «Ac qulağım, dinc qulağım» - dedi.

O günləri pis-yaxşı yola saldıq. Yarıac, yarıtox. Ancaq sağ-salamat… İndi dirçəlmişik, ərsəyə yetmişik. Xoş günlərimiz başlayıb. Anam isə belə ağ gündə…

O, yenə səksəndi. Yuxudan ayıldı. Gözlərini geniş açdı. Udqundu. Qurumuş dodaqlarını yaladı. Zəif səslə soruşdu: nə oldu, bala, südçü gəlib çıxmadı, hə?

Gəlib anamın yanında oturdum. Ürək-dirək vermək, halını yüngülləşdirmək üçün yalan danışmağa məcbur oldum. Özü də ilk dəfə, öz doğma anama. Yox, belə hallarda yalan danışmaq qəbahət sayılmamalıdır.

- Ana, rahat ol, südçünü bu gün gördüm. Borcunu da verdim, - dedim. Son sözü deyəndə anamın gözlərinə düz baxa bilmədim. Üzümü yana çevirdim. Məni xəcalət təri basdı. Anam isə ağır vəziyyətdə olsa da, ağlı başında idi. Halımı hiss etmişdi sanki. Ancaq taqətsizlikdənmi, yaxud ömrünün son günlərini yaşadığı üçünmü, mənə cavab

verməd̈i. Təkcə nəmli, ağıllı gözləri mənalı-mənalı mənə zilləndi: «Mənə təsəlli verirsən, bala, təsəlli…»

Südçünü yaman məzəmmət edirdim. Bu yolu dönmüş heç bilmədim haradan peyda oldu? Kaş həmin gün ondan heç süd almayaydıq, bəlkə borclu da qalmazdıq! Axı borc məsələsində günahkar mən idim. Çünki anam südü ən çox mənə görə alardı. Həkimlər süd içməyimi məsləhət bilmişdilər. Anam da «o süd satan təmizkardır», - deyə hər gün ondan bir litr süd alırdı. Hər iki-üç gündən bir də quru çörəkləri yığıb ona verərdi. Nə qədər çörəyi qənaətlə işlətsək də, südçünün bəxti gətirirdi. Bəzən də anam kişi südü çox gəzdirməmək üçün lazım olmasa da, bidonda qalmış südün hamısını alıb pulunu verərdi. Ancaq bütün bunlara baxmayaraq südçüyə 3 manat borclu qaldığımız üçün /süd alanda xırda pul olmamışdı/ anam aram tapa bilmirdi.

Tərslikdən xeyli vaxt idi ki, südçü məhəllədə görünmürdü. Elə bil qeydə çəkilmişdi. Evini də tanımırdıq.

…Anama baxıram. Bədəni yaman incəlib. Ancaq nurlu çöhrəsi yenə bərq vururdu. Çuxura düşmüş gözlərində isə həyat işığı zəifləyirdi.

İstirahət günü hələ səhər tezdən anamın halı tamam dəyişdi. Onu indiyə kimi heç vaxt bu vəziyyətdə görməmişdik. Daha adam tanımırdı. Başının üstünü daim həkim alsa da, yenə təcili yardım maşınını çağırmağa getdim. Yaxşı bilirdik ki, həkimlər onun xəstəliyi qarşısında acizdirlər. Ancaq ürəyimizi soyutmaq istəyirdik. Bir-iki saat da yaşaması bizim üçün dünyaya dəyərdi.

Evimizin yaxınlığındakı telefon budkasına yaxınlaşdım. 03-ü yığdım. Ünvanı söylədim. Təcili gəlmələrini xahiş etdim. Özüm isə maşını gözləmək üçün küçədə durmuşdum. Dəqiqələr ötürdü. Maşın gəlib çıxmırdı. Bir neçə dəfə yenidən zəng vurdum. Xatırlatdım. Yenə xeyri olmadı. Axırda əsəbiləşdim. Dəstəyi götürən növbətçini möhkəmcə acıladım. Avtomat telefon budkasından çıxırdım ki, birdən südçü ilə qarşılaşdım. Yaman sevindim. Borclu qaldığımız 3 manatı çıxarıb ona uzatdım. Unutmuşdu. Xatırlatdım. Götürmək istəmirdi. Nəhayət, aldı. Əhvalatı ona söylədim. Xeyli müddət yoxa çıxmasının səbəbini soruşdum. Xəstə idim, - dedi, - kor bağırsağımdan əməliyyat olunmuşdum. Bu günlərdə xəstəxanadan çıxmışam. Sonra isə südçü bu gün bizə gedəcəyini söylədi. Qəlbimdə yüngüllük hiss etdim. Nə yaxşı oldu, - dedim. Anam gözləri ilə onu görəcək.

Təcili yardım maşını bir saatdan sonra gəlib çıxdı. Məni artıq tanıyırdılar. Yanımızda dayandı. Ürəyim isə anamın yanında qalmışdı. Gözlərimi qapımızdan çəkmirdim. Birdən qapımızda gediş-gəlişin çoxalmasını gördüm. Addımlarımızı yeyinlətdik. Qarışıq səslər eşidirdim. Nə isə ürəyimə dammışdı. Yoxsa anam… Məsələni anladım. Nitqim qurudu. Ayaqlarım taqətdən düşdü. Sözümə baxmadı. Elə bil qırmışdılar ayaqlarımı. Heykələ dönüb yerimdəcə qaldım. Gözlərimə qaranlıq çökdü, dünya başıma fırlandı. Az qala yıxılacaqdım. Yaxşı ki südçü qoluma girdi. Məni bir təhər qapımıza çatdırdı. Təcili yardım maşınının isə işin nə yerdə olduğunu bilərək nə vaxt aradan çıxdığından xəbərim olmadı.

Anamın uzandığı otağa özümü güclə sala bildim. Gözləri yenicə qapanmışdı. Yatmışdı. Əbədi yuxuya getmişdi anam. Qar kimi ağarmış üzü hələ də isti idi. Mən bunu anamın üzərinə sərilərək, onunla son dəfə vidalaşarkən hiss etdim. Yalnız astadan pıçıldadım: «Rahat yat, ana! Həyatda heç kimə borclu qalmadın…»

Otaqda çox dura bilmədim. Bərk kövrəlmişdim. Tez həyətə çıxdım. Südçü qalın gövdəli tut ağacına söykənib, dərin fikrə dalmışdı. Elə bil ürəyində özünü məzəmmət

edirdi. Mənim ona həm acığım tutur, həm də yazığım gəlirdi…

1980.

Gülərin qonaqları

Çoxdan idi İzzət dostumu görmürdüm. Onlara getmişdim. Məni mehribanlıqla qarşıladı. Həmişəki kimi. Qonaq otağında məndən başqa bir tanımadığım qonaq da var idi. Hamı stol arxasında əyləşmişdi. İzzət məni qonaqlarla tanış etdi. Ev sahibəsi evdə yox idi. Yeri görünürdü. Maraqlandım. Öyrəndim ki, xəstəxanada yatır. Dostum yenicə yanından qayıdıb. Evə, ailəyə yeni körpə səsi, körpə nəfəsi gələcəkdi. Dostumun sevinci yerə-göyə sığmırdı. Amma gözlərindən narahatçılıq hissini sezməmək mümkün deyildi. Bu da təbii idi.

İndi evdə atasına qulluq etmək, qonaqları yola vermək dostumun 7 yaşlı qızı – evin ilkisi Gülərin öhdəsinə düşmüşdü. Dostum da bizimlə yanaşı stol arxasında oturmuşdu. Arabir söhbətə qarışır, kef-əhvalımızı xəbər alır, işimizlə maraqlanırdı. Çox keçməmiş Gülərin özü qonaq otağına daxil oldu, dərhal yanıma qaçdı, dizim üstə oturdu, saçlarını oxşadım, üzündən öpdüm. Atası sonra onu qonaqlarla tanış etdi. Qız otaqdan çıxdı, bir azdan önlük əynində geri qayıtdı. Önlük ona necə də yaraşırdı. Bir az da gülməli görkəmi vardı Gülərin! Əlindəki yaş

dəsmalla stolun üstünü səliqə ilə sildi və yenə otaqdan çıxdı. Bu dəfə əlində dolu podnosla otağa daxil oldu. Doğranmış kəllə qənd və konfet, dilimlənmiş lumunu stolun üstünə düzdü. Sonra hərəmizin qabağına armudu stəkanda çay qoydu. Stəkanlardan buğlana-buğlana qalxan çayın ətri ağız-burnumuza dolurdu.

Televizorda maraqlı veriliş gedirdi. Bəlkə elə buna görə qonaqlar bu ətri duymurdu. Gülər isə qapının yanında dayanıb stəkanların nə vaxt boşalacağını gözləyirdi. Dəqiqələr ötür, çaylar soyuyur, əvvəlki ətrini itirirdi. Qız yaman narahat idi, onun qonaqlara dikilmiş narazı baxışları da bunu söyləyirdi. Bəlkə qız düşünürdü ki, qonaqlar onun çəkdiyi zəhmətə biganədirlər. Həqiqətdə isə qonaqlar hər şeydən xəbərsiz idilər. Veriliş o qədər maraqlı idi ki, hamının nəzəri ekrana zillənmişdi. Təkcə mənlə dostum Gülərin narahatlığını aydın müşahidə edirdik. Qonaqların fikrini yayındırmaq bəlkə də yaxşı çıxmazdı. Verilişdə isə arxeoloqlarımızın 500 min il əvvəl aşkar etdikləri nəhəng yeraltı mağaralardan, həmin dövrün cəng alətlərindən bəhs olunurdu.

Yenə dostumla baxışlarımız qarşılaşdı. Artıq gözləməyə səbrim qalmamışdı. Birdən soyumuş çayla dolu stəkanları bir-birinin ardınca /beş stəkan çayı/ su kimi içib boşaltdım. Dostumdan savayı qonaqların bundan

xəbəri olmadı. Bu ara Gülər astaca içəri daxil oldu. Dərhal stolun üstündəki stəkanlara nəzər saldı. Bir anlığa baxışları sanki çiçək açdı, sifətinə sevinc qondu. Boş stəkanları yığıb, ikinci dəfə çay gətirmək üçün mətbəxə tələsdi…

Veriliş qurtarmışdı. Qonaqlar çay içir, verilişi müzakirə edir, deyib gülürdülər. İzzət dostum artıq özünü saxlaya bilmədi, bir az əvvəl mənim Gülər balaya göstərdiyim «səxavət»dən özünəməxsus tərzdə basa-basa danışdıqca hamı gülməkdən uğundu. Gülər də gülürdü. Bu gülüşdə bir az utancaqlıq, bir az xəcalət, bir az da inciklik əlaməti vardı. Yanaqları allanmışdı Gülərin. Bir məni, bir qonaqları, bir də atasını diqqətdə nəzərdən keçirdi. Deyəsən, qonaqların sayını bilmək istəyirdi. Görünür, bu dəfə süfrəyə yemək gətirməyə hazırlaşırdı.

Qonaqlar bu balaca ev sahibəsinin hər hərəkətini maraqla izləyirdi. Bir azdan stolun üstünə neçə cür yemək düzülmüşdü. Dostumun işarəsi ilə yeməyə başladıq. Təkcə Gülər stol arxasında yox idi. O, arabir uzaqdan hər şeyin öz qaydasında olub-olmamasını izləyirdi.

İndi Gülər qonaqların nə vaxt yeyib qurtarmalarını, onun hazırladığı süfrəyə nə qiymət verəcəklərini gözləyirdi…

Təzə gəlin cəmi 6 ay yaşadı…

Tanrı bu mehriban ailəyə 4 övlad payı qismət eləmişdi: iki oğlan, iki qız. Valideynləri də talelərindən çox razı idilər və övladlarını ortabab böyüdürdülər. Ata hüquqşünas idi. Bu peşədə zəngin təcrübə qazanmış, adlı-sanlı hüquq işçisi kimi tanınırdı. Uşaqlarına da onun peşəsini davam etdirməyi arzulayırdı. Evin xanımı Həlimə isə evdar qadın idi. Uşaqlarının tərbiyəsi ilə məşğul olurdu.

Beləcə, illər arxada qalır, uşaqlar isə böyüyürdü. Hələ ki dördü də məktəbli idi. Bilik və davranışları ilə məktəbdə nümunə idilər.

Amma Tanrı bu xoşbəxtliyi ailəyə çox gördü. Ata erkən sağalmaz bir xəstəliyə mübtəla oldu. Bununla da evdə hər şey dəyişdi. Nə yaxşı ki hər iki qardaş artıq ali məktəb tələbəsi idi. Əhməd atasının arzusuna əməl etmişdi. Gələcəyin hüquqşünası olacaqdı. Məmməd isə iqtisadçı, menecer.

Beləcə, Mehman ata hələ 40 yaşı da tamam olmamış həyata «əlvida» dedi. Ailənin bütün dərd-səri, ağır yükü

Həlimə ananın zərif çiyinlərinə düşdü. Amma ailə sınmadı, bir kimsəyə möhtac olmadı. Çünki tələbə qardaşlar həm təhsillərini davam etdirir, həm də axşamlar işləyib evə qazanc gətirir, analarına, atalarının yoxluğunu az da olsa unutdurmağa çalışırdılar.

Qızlar da böyümüşdü artıq. Sənubərə bir gün elçi çıxdı. Yaxşı ailədən idi. Verdilər qızı. Oğlan da qənirə gözəl, yerli-yataqlı, işdi-güclü Sənubərə tay idi. Xoşbəxt yaşayırdı gənc ailə. Hər dəfə ata evinə cüt gələndə, Həlimə ananın qəlbi dağa dönürdü. Təkcə ona təəssüflənirdi ki, Mehman bütün bunları görməyə imkan tapmadı. Ruhu şad olsun!

İkinci qıza – İnciyə də elçi gəldi. Uzaq qohumları idi oğlan evi. Əsilləri eyni yurddan olsa belə, ana qəti qərara gələ bilmirdi. Tərəddüd içində çapalayırdı. Çünki gələcək kürəkəni ürəyincə deyildi. Tanıyırdı oğlanı. Di gəl ki oğlanın qardaşları əl çəkmir – İnci bizim sonbeşik qardaşımızındı – vəssalam deyib qız evini tələsdirirdilər. Oğlanın ədabazlığı, şorgözlüyü İncinin qardaşlarının nəzərindən qaçmırdı. Amma oğlan evi heç cür əl çəkmək istəmir, hətta hədə-qorxu gəlir, qızı qaçırmaq fikrində olduqlarını da gizlətmirdilər. Vəziyyətin çox da mürəkkəbləşməsini istəməyən möhnətkeş ana oğlanlarını

yumşalda bildi, onları yola gətirdi. Beləliklə, Ağaqulu İnci xanımla ailə qurdu.

Anası da onlarla bir yerdə yaşayırdı. Qayınana təzə gəlini ilə fəxr edirdi. Fəxr edilməli gəlin idi. İki göz istəyirdi tamaşasına dursun. Allah İnciyə hər şeyi bəxş etmiş, onu necə deyərlər, xoş ovqatında xəlq eləmişdi. O gələni bu evdə hər şey göz oxşayırdı. İnci qədəm basdığı yeni ocağa təravət, gözəllik, təmizlik gətirmişdi. Bütün bunları təkcə Ağaqulu görmürdü, daha doğrusu, görmək istəmirdi. Çünki onun bəsirət gözü yox idi. Çünki İnciyə tay deyildi. İlk gündən təzə gəlinə biganəlik göstərən Ağaqulu hər şeyi açıb-ağardır, göynən gedir, qaşınmayan yerdən qan çıxarır, bir sözlə, dözülməz olduğunu nümayiş etdirirdi.

Evə tox gəldiyindən, yeməkdən bir-iki qaşıq götürməmiş yeməyə irad tutur, gah dadsız, gah duzsuz olmasını bəhanə gətirir, sonra da hirsli halda stol arxasından yeməyə qalxıb bayıra çıxırdı. Belə çox davam etmədi. Bir günsə:

- Mən getdim bağa, burda dura bilmirəm, - deyib qapını çırparaq özünü bayıra atdı. Əlavə etdi: «Dostum Həmid bağa gələcək, vacib işimiz var, özü zəng

vurmuşdu. Inci heç bir söz demədi. Ana isə özünü saxlaya bilmədi:

- Ay oğul, gül parçası kimi gəlin gətirmisən, baxan istəyir bir də baxsın, onu qoyub hara gedirsən? Nə bağbazlıqdır? Dedi. – Əlavə etdi: İncitmə onu, günahdır axı. Binəva anasına yazığın gəlsin, qardaşlarından utan!

- Ana, xahiş edirəm nağılını saxla. Uşaq deyiləm artıq. Sən gəlininin yanındasan - vəssalam! Aydındır?

…Cəmi altıca ayın gəlini oldu İnci. Bir gün ana gəlini də götürüb axşamüstü bağa getdilər. Çünki bir neçə gün idi ki, oğlu evə gəlmir, xəbər-ətər də eləmirdi. Ananın qəlbində bir çox narahat fikirlər dolaşırdı. Odur ki, bağa getməyi qərara aldı. Həm də fikirləşdi ki, İnci də bağlarını görər, bağ havasında nəfəs alar, təzə mer-meyvədən dadar.

Həyət qapısını açıb içəri girdilər. Sakitlik idi. Ana oğlunu harayladı, cavab verən olmadı. Bir xeyli beləcə davam etdi. Nəhayət, handan-hana Ağaqulu otaqdan bayıra çıxdı. Ana ilə gəlini görüb, ilan kimi fışqırdı. Hiddətlə üstlərinə kəkələndi:

- Sizin burda nə ölümümüz var? Sizi bura kim çağırıb? Bilirəm, arvad, səni bura bu əclaf qızı gətirib.

Qısqanclıqdan. Tez rədd olun buradan! Bir də buralarda görməyim sizi!

Ana ilə İnci eyvandan həyətə düşmək istəyirdi ki, otaqdan iki qadın və bir kişi bayıra çıxdı. Yuxulu idilər. Şişib pörtləmiş üz-gözlərindən abırsızlıq, sırtıqlıq yağırdı.

Rişxəndlə ana ilə gəlini süzdülər. Bu rişxənd dolu baxışlar söyləyirdi ki, bunlar haradan peyda olub, ovqatımıza soğan doğradılar?! Ana oğluna ancaq bunları deyə bildi:

- A bala, bunlar kimlərdir belə? Ağaqulu buna bənd imiş kimi hikkəsi, hiddəti bağı başına götürüb əks-səda verdi:

- Nəyinə gərəkdir ay arvad? Revizorsan bəyəm?

Açığını bilmək istəyirsənsə, dostlarımdı bunlar. Bağa dincəlməyə gəlibdir. Sonra? Ana da son sözünü söylədi:

- Olsun, bala, olsun! Bu, sən, bu da sənin bu dostların. Bunu deyib, ana gəlinin qoluna girdi və bağı tərk etdilər.

…Gecənin birinci xoruz banında ana zarıltıya, iniltiyə ayıldı: Köməyə gəlin! Köməyə gəlin!..

Ana…ana…yanıram, içim od tutub yanır.

Ana cəld ayağa qalxdı. Gəlin yatan qonşu otağa qulaq kəsildi. İncinin vahiməli, üzüntülü səsi idi. Arvad özünü itirdi. Özünü holvnak gəlinin otağına saldı. İşığı yandırdı. İlahi, bu nədir? İnci döşəmədə uzanmışdı. Yeri-göyü cırmaqlayır, ilan kimi qıvrılır, aman istəyirdi. Ana həyəcanla soruşdu:

- De görüm nə olub, qızım? Haran ağrıyır? Gəlindən cavab almamış birdən ayağına bir butulka ilişdi. Özünü güclə yıxılmaqdan saxladı. Əyilib cəld butulkanı qaldırdı baxdı: naşatır spirti! Hər şey ona aydın oldu. Əl-ayağa düşdü, binəva arvad. Astaca qapı qonşuları köməyə səslədi, gəlininə kömək, əlac dilədi. Bir anda ev doldu. Bir nida eşidildi:

- Təcili xəstəxanaya!

Bu da xəstəxana. Əl-ayağa düşdülər. İlk tibbi yardım göstərdilər. Həkimlərin konkret cavabı isə belə oldu:

- İş-işdən keçib…

Bəli, 6 aylıq su sonası olan gəlin bir nadan və əyyaşın qurbanı oldu.

İki münasibət

Bir idarəyə bir gündə iki işçi qəbul olundu: ucaboy, gözəgəlimli, yarlı-yaraşıqlı bir cavan oğlan və ilk baxışdan heç kimin nəzərini cəlb etməyən, çəlimsiz, qarabuğdayı bir qız. Oğlan ali məktəb məzunu idi, mühəndis diplomu ilə idarəyə təyinatla gəlmişdi, qız isə texniki-peşə məktəb qurtarmışdı, makinaçı ixtisasına yiyələnmişdi.

Oğlan ilk gündən hamının xoşuna gəldi. Xüsusən idarənin qızları onun üçün ahıl-mahıl olmuşdular. Oğlanın gözəlliyindən ağızdolusu söhbət açır, mütənasib boyuna, gözəl geyiminə, qalın qara qaşlarına heyran kəsilmişdilər. Yöndəmsiz, çəlimsiz qızın xeyrinə isə kəlmə kəsən də yox idi. Əksinə, «ondan nə makinaçı olacaq, binəva ayaq üstə ləngər vurur, üfürsən, göyə uçar» kimi atmaca atanlar da olurdu.

Günlər arxada qalırdı. İdarənin təzə işçiləri nəyə qadir olduqlarını işdə göstərirdilər: oğlan səhlənkarlığı, işə, adamlara laqeydliyi, ədabazlığı, qız isə işgüzarlığı, səliqə-sahmanı, mehribançılığı, çevikliyi ilə. Tezliklə onlara münasibət də dəyişdi. Rəhbərlik gəncin hərəkətlərinə biganə qalmadı. Ona əmək intizamına riayət etməyi,

adamlara qarşı mehriban olmağı tapşırdı. Amma xeyri olmadı. Bu dəfə yeni bir xəbərdarlıq aldı. Yenə nəticəsi olmadı: oğlan dəyişmədi, bildiyini elədi. Növbəti dəfə ona töhmət elan olundu. Qız isə hamının gözündə ucaldı, qəlblərə yol tapdı. Səliqəli, keyfiyyətli işi tərifləndi, ünvanına xoş sözlər deyildi, hətta şəkli idarənin şərəf lövhəsini bəzədi.

…Günlərin birində hər ikisi iş yerini tərk etdi. Bu münasibətlə həmin gün rəhbərlik xüsusi iclas çağırdı. Oğlanın getməsindən heç kim təəssüflənmədi. Əksinə, kollektivə ləkə gətirdiyini söylədilər. Hətta ilk günlər ona heyran kəsilmiş qızlar da. Qızın idarədən getməsi isə hamıya yaman yer eləmişdi. Xitabət kürsüsünə qalxanlar qız barədə xoş sözlər söylədilər. Ona təhsildə müvəffəqiyyətlər arzuladılar. Rəhbərlik qıza yadigar olaraq tələbə çantası, avtoqələm və başqa hədiyyələr təqdim etdi. Makina bürosunun müdiri ağsaç qadın hətta kövrəlmişdi də. Qəhərləndiyindən son sözləri baş çatdıra bilmədi. Salonu alqış sədaları başına almışdı.

Axı qız artıq tələbə idi: ali məktəb tələbəsi. Filoloq olacaqdı…

1971

Ay Kərbəlayi Xədicə

Kərbəlayı qardaşımın sadiq ömür-gün yoldaşı, anam əvəzi Kərbəlayi Xədicənin vəfatı məni möhkəm sarsıtdı

Nohə

Bu dünyaya bəzəy idin

Qara gözlü mələy idin

Sən hamıya gərəy idin

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Necə qıydı sənə fələk?!

Dayandı bir odlu ürək

“Təzə mənzil”in mübarək

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Qovuşdun Mehman balana

Aldın onu qucağına

Çatdın əhdi-peymanına

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Ovunmayır qoşa qızın

Bitməyir söhbətin-sözün

Bu dünyada qaldı izin

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Sən analar anasıydın

Göy suların sonasıydın.

Dilimizdən düşmür adın

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Yaraşıqdın məclislərə

Yol salmışdın ürəklərə.

Sənə rəhmət min-min kərə!

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Anaydın yeddi gəlinə

Dəyməzdin kimsə qəlbinə

Rəhmət, rəhmət yenə sənə

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Nəvələrin sənsiz qaldı

Qəlblərini dərd-qəm aldı.

Gültək rəngləri saraldı,

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Qayınlara ana idin

Hər bir dərdə yanan idin

Hamının yadında qaldın

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Qönçəni kimə tapşırdın?

Dilindən düşməyir adın.

Sən analar anasıydın,

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Oğlun Şahlara nə deyək?

Necə ürək-dirək verək,

Buna necə dözsün ürək?

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Görmədin Qönçənin toyun,

Aman, fələk, bu nə oyun?

Bəllidir aləmə soyum,

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

Quş kimi tez uçub getdin

Cənnət-məkanına yetdin.

Bəs sən niyə belə etdin

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə?!

Sənə rəhmət dilər İdris

Yolunda qalıb gözümüz

Bu dünyada qoydun bir iz

Ay Kərbəlayi Xədicə,

Ay Kərbəlayi Xədicə.

1 avqust, 2008.

səhər saat 7:30, Boradigah

Bilik al, elm öyrən

(İbrahim dostumun nəvəsi Rəşada)

Sən qışla baharın görüş ayında
Gəlmisən dünyaya əzizim, Rəşad.
Evin ilk nəfəsi, ilk səsi sənsən
Ay şirin söhbətim, xoş sözüm, Rəşad.

Məktəb pillələri qalxıb-enirsən
Həyat yollarıdır məktəb yolları.
Səni qorxutmasın eniş-yoxuşlar
Qışdan sonra gəlir ömrün baharı.

Bilik al, elm öyrən müəllimlərdən,
Hər gün bir yenilik səni gözləsin.
Bilmədin bir şeyi, soruş, utanma,

Uzaqlardan gəlsin sorağın sənin.

Elinə mayak ol, parla günəştək,

Səndən ilham alsın qardaşın Fuad.

Atanın-ananın ümidin doğrult

Yorulmadan çalış, vuruş, qur, yarat.

Vətənə layiq ol əməllərinlə

Səndən razı qalsın doğma el-oba.

Böyü xoşbəxt yaşa, bəxtəvər yaşa

Toyunda oynasın İbrahim baba.

26.II.97.

Ömür bağçasında çiçək dərəsən

Dostum İbrahim müəllimin sevimli nəvəsi Etibara 15 yaşı münasibətilə

Payızın son ayı doğuldun, gülüm,

Bir az ilıq, bir az sərin küləklə.

Əzəl gündən əzizləndin, sevildin,

Həyata göz açdın arzu, diləklə.

Oğul səsi gəldi gənc ailədən,

Evin də işığı gurlaşdı bir az.

Muştuluq aldılar baba, nənədən

Gənc ata-ananın kefi oldu saz.

Beləcə bir evə səadət gəldi,

Min şükür Tanrının kəramətinə.

Beləcə könüllər dil açdı, güldü,

Bir oğul doğuldu Vətən naminə.

Etibar qoydular onun adını,

Dedilər: adına layiqli olsun.

Tanrı versin bəxtini, muradını,

Ağıllı böyüsün, minbudaq olsun.

Quş qanadlı illər arxada qaldı,

Keçdi on beş bahar, ötdü on beş qış.

Uşaqlıq çağları harada qaldı?

Uşaqlıq, əlvida, Gəncliyə alqış!

…Etibar nöcavan bir oğul olub,

Bığ yeri təzəcə tərləyir onun.

Şirin-şəkər olub, lap noğul olub,

Getdikcə çoxalır gücü qolunun.

Hər işə yarayır, nəmxuda olsun

Hamıya əl tutur, bacardıqca o.

Allahın nəzəri üstündə olsun,

Yaxınlar sevinsin ucaldıqca o.

Üzündən-gözündən xoşbəxtlik yağır,

Ayağı ruzili Etibarımsan.

Bəd ayaqda sadiq dostları çağır,

Dostlarsız yaşamaq deyildir asan.

Bəxtəvərsən, mənim İbrahim dostum,

Hər bir nəvən dünyamıza yaraşıq.

Halal olsun qaldırdığım hər tostum,

Hər bir nəvən dünyamıza gür işıq.

Bu gün on beş yaşın tamamdır sənin,

Ömrün qönçə çağı deyirəm buna.

Qoy nura boyansın gələn illərin,

Bir gün də yığışaq sənin toyuna.

Deyib-gülək, fərəhlənək, rəqs edək,

Sevdiyinlə səni biz qoşa görək.

Xoş damaqla toy məclisin tərk edək,

Ömrün keçsin daim toyla-düyünlə.

Günəş üzlü, şirin sözlü Etibar,

Həyatda zəhmətlə ömrü vur başa.

Qoy nəsibin olsun daim

Biz iki əllini, sənsə yüz yaşa!

4 dekabr, 1977. saat 9-12.

Qardaşım

(Qardaşım Hacı Rizvanın 50 illiyi münasibətilə)

Uşaqlıq illərin dəhşətli keçdi,

Ehtiyac birbəbir qapılar açdı.

Sənin qismətinə sıxıntı düşdü,

Gözütox olmusan hər an, qardaşım!

Çox evdə olmusan mehman, qardaşım!

Uşaqkən çiynində yük daşımısan,

Dəniz də keçmisən, dağ da aşmısan.

Öz halal tikənlə sən dolanmısan,

Qismətinə möhtac olan, qardaşım!

Yaşamaq deyildir asan, qardaşım!

Həyat sıxıb səni məngənəsində,

Verib ağu sənə dəngənəsində.

Nikbinlik duyulub hər vaxt səsində,

Rəqibindən bac almısan, qardaşım!

Düşməni oda salmısan, qardaşım!

Əlli ildə əlli xoş gün görmədin,

Nikbin oldun, qüssəyə bac vermədin.

Namərd süfrəsinə yaxın durmadın,

Mərdin qəndsiz çayın içdin, qardaşım!

Namərddənsə uzaq qaçdın, qardaşım!

Tale çəkdi səni hər imtahana,

Qovdu səni dalanlardan-dalana.

Keçdin dəryalardan, düşdün ormana,

Bir günün keçməyib asan, qardaşım!

Olmayıb halını yazan, qardaşım!

Çoban da olmusan, mehtər də, qardaş,

Neçə yalquzaqla etmisən savaş.

Yoxsul-kasıblarla olmusan sirdaş,

Son tikəni dostla böldün, qardaşım!

Kasıblara arxa oldun, qardaşım!

Neçə il at çapdın dağda, aranda,

Ölümlə çarpışdın boranda, qarda.

Sellər səni ölümə aparanda,

Ölümü pəncənlə boğdun, qardaşım!

Yeni Günəş kimi doğdun, qardaşım!

Yadındamı hərbin ağır illəri?

Əsərdi dövranın acı yelləri!

Yığardın başına yaxın elləri –

Hamıya təsəlli oldun, qardaşım!

Həmişə məzəli oldun, qardaşım!

Xəzərin qoynunda üzdün neçə il,

Xəzər sularında gəzdin neçə il.

Ləpələr sinənə taxdı bəyaz gül,

Həmişə Xəzər tək coşan qardaşım!,

Gözəllərə nəğmə qoşan qardaşım!

Zəhmətlə yoğrulub mayan, qardaşım,

Zəhmət dünyasında dayan, qardaşım.

Zəhmətin ətrini duyan qardaşım,

Öz alın tərindən doyan qardaşım!

Öz alın tərinə boyan, qardaşım!

14 noyabr, 1988.

Esmira

İlk bahar çağında 30 il əvvəl

Anadan doğuldun, güldün, Esmira!

Bahar geyindirdi sənin donunu

Özün də bir qönçə güldün, Esmira!

Beləcə, baharla nəfəs alaraq

Uşaq sevincinə şəkər salaraq

Bir-bir, pilə-pillə yaşa dolaraq

Axır məktəbli qız oldun, Esmira!

Məktəbdə hamıya nümunə oldun,

Bütün müəllimlərin yadında qaldın,

Yaxşılar önündə çağrıldı adın,

Uçmaq üçün sən quş oldun, Esmira!

Bülbül kimi nəğmə qondu dilinə

Səhər mehi daraq çəkdi telinə.

Xına yaxdı bahar özü əlinə

Başdan-başa xınalaşdın, Esmira!

Açıq gözlə baxdın qoca dünyaya

Baxdın ulduzlara, günəşə, aya

Həyatın sirləri gələrmi saya?

Bəzən durub fikrə daldın, Esmira!

Anladın ki, həyat döyüş deməkdir

İnsanı yaşadan arzu-diləkdir

Arzusuz bir ürək kimə gərəkdir?

Bu hikməti tez anladın, Esmira!

Bir humanist peşə seçdin özünə,

Düşdün bu peşənin sirli izinə,

Mükafatı o qaytardı özünə,

Əməlindən razı qaldım, Esmira!

Anasan, atasan bir cüt balana

Aslansan girmisən, bu gün meydana

Qibtəyə layiqsən, müqəddəs ana

Çox əzizdir bizə adın, Esmira!

Sən bu gün də tər çiçəksən, tər çiçək

30 yaşın mübarəkdir, mübarək!

100 ilini beləcə biz qeyd edək

Ey mehriban sadə qadın, Esmira

Çox əzizdir bizə adın, Esmira!

5 aprel, 1984-cü il.

Həmişə eşidim xoş sorağını

(Sevimli Ruslanın 14 yaşı münasibətilə)

Səni bir yaşından mən vəsf etmişəm,

Aradan 14 qış, 14 yaz keçib.

Ardınca Tulaya uçub getmişəm,

Quş qanadlı illər gör nə tez uçub?

Elə bil o günlər dünən olmuşdu,

Sən bir sısqa, bir sarıvəz uşaqdın.

Atanı biz əsgər yola salmışdıq,

Söylədim ki, qoy Ruslan qalsın adın.

Bir neçə il beləcə sısqa qaldın,

Min bir zəhmət bahasına böyüdün.

Amma tez böyüdün-ucaboy oldun,

Neçə bahar havasına böyüdün.

15 bahar keçib indi o vaxtdan,

Novcavan olmusan, şükür Allaha.

Boyun heç də geri qalmır atandan,

Bığ yerin tərləyir deyəsən daha.

Çox əcəb, çox gözəl , budur arzumuz

Ruslan qalib çıxsın hər çətinlikdən.

Ardınca da gəldi incə, gözəl qız –

İndi böyüyürsüz bir bacın, bir sən.

Bugünkü məclisə gəlib gör kimlər?

Babalar, nənələr, əmi, dayılar,

Bir də yaraşıqlı xanım bibilər.

Allaha şükür ki, getməyib hədər

Çəkilən zəhmətlər, olan qayğılar.

Böyü, hünər göstər eldə, obada

Cavanlar içində öz adın olsun.

Uğurlu illəri salaraq yada

Gənc ürəyin daim sevinclə dolsun!

Şükufə nənənin gül balası

(Balaca İradəyə)

Dostlar, yığılışıb təbrikə gəlin;

Bu gün bu ocaqda gözəl bir gündür.

Gəlin, şənlik edin, oxuyun, gülün,

Bu gün əsl bayram, toydur, düyündür.

Qohumlar yığışsın süfrə başına,

Babalar, nənələr başda otursun.

İradə çatıbdır bircə yaşına

Tormoz Hüseyn baba bir sağlıq desin.

Tula şəhərində anadan oldu,

Şükufə nənənin bu gül nəvəsi.

Rusiya havası köksünə doldu,

Bakıya oradan çatdı sədası.

Amma ki, taleyi elə ilk gündən,

Çəkdi imtahana bu körpə qızı.

Kim deyər qaçaram tale deyəndən?

Hələ beləsini görmədim, düzü.

Körpə tab gətirdi, dözdü əzaba,

Ağır yük asıldı ayaqlarından.

Bundan xəbər tutdu yaxın, el-oba,

Baxıb bəziləri dedilər: «aman».

Atanın-ananın günü il oldu,

Nə gecə bildilər, nə də ki gündüz.

Dözən bu əzaba tək dözüm oldu

Qovruldu içindən odsuz, tüstüsüz.

Axır ki tale də bizlərə güldü,

Dözüm öz sözünü söylədi sonda.

Bir körpə dözümü gözlərdə güldü

Elə adı ona görə qaldı İradə.

…İndi azad quşdur balaca bülbül,

Ötür öz dilində Vətən bağında.

Özü də mat qalıb keçən günlərə

İradə dil açıb hey oxuyanda.

Budur, bu bir yaşlı İradə bala,

Ötür, cəhcəh vurur körpə dilində.

Yaman dönüb bu qız şəkərə, bala,

Qoy xoşbəxt yaşasın doğma elində.

Tale İradəmə daim yar olsun,

Bilməsin qəm-qüssə bir də dünyada

Döyünsün ürəyi sakit, ahəstə,

Çatsın hər arzuya, kama, murada.

2 avqust, 1986-c il.

Bir işə bax...

(Məzə üçün)

Bir işə bax: bu yaşda
Sevdaya düşmüşəm mən.
Bir əsmər bənizlinin
Məcnun məhəbbətilə
Səhraya düşmüşəm mən.
Özü də gör nə yaşda?!

Ha qaçıram ardınca,
Yetə bilmirəm ona.
O atlı, mən piyada –

Yetməkmi olar ona?

Özü də gör nə yaşda?!

Sevdaya düşmüşəm mən

Özü də gör nə yaşda?!

Vallah, o əsmər bəniz

Ağlımı alıb başdan –

Özü də gör nə yaşda,

Özü də gör nə yaşda?!

20.03.2001

Tərcümeyi– hal

Mən, Məhərrəmov İdris Hacı oğlu, 5 sentyabr 1937-ci ildə Masallı rayonunun Boradigah kəndində (hazırda qəsəbə) kolxozçu ailəsində doğulmuşam.

Atam, Məhərrəmov Hacı İsmayıl oğlu 1900-cü ildə həmin kənddə dünyaya göz açıb. Kolxozu yaradanlardan biri olub. At arabası idarə edib. Erkən (42 yaşında) dünyasını dəyişib. Anam Məhərrəmova Bilqeyis Şahbaz qızı 1906-cı ildə Masallının Şatıroba kəndində dünyaya göz açıb. Bir müddət kolxozda çəltikçiliklə məşğul olub. Sonra ailə böyüdükcə, 8 uşağın (3 qız, 5 oğlan) təlim-tərbiyəsi ilə məşğul olub. 1971-ci ildə haqq dünyasına qovuşub.

Bəli, ailədə 8 övlad olmuşuq. Atamın erkən vəfatından sonra anam bir çətən külfətin qayğısını zərif çiynində daşıyıb, bizə həm də atalıq edib. Böyük qardaşlarım Ağababa və Rizvan zəhmət dünyasına erkən atılaraq ailəyə yardımçı olublar.

Ağababa qardaşım 1929-cu ildə Masallının Boradigah kəndində təvəllüd tapıb. Ömrü boyu yetim

qardaşlarına həm də atalıq edib. Bizi uşaq evlərinə verməyib ki, bir-birimizdən ayrı düşməyək. O, kolxozda müxtəlif işin qulpundan yapışıb. Sonra da ömrünün axırına kimi sovxozda hesabdar vəzifəsini daşıyıb. Ömür-gün yoldaşı Xədicə xanımla 9 övlad (2 qız, 7 oğlan) böyüdüb, tərbiyə etmiş, hamısını da evləndirib ailə qurmalarına şərait yaratmışlar. Kərbəlayı qardaşım 2005-ci ildə dünyasını dəyişmişdir.

Rizvan qardaşım 1935-ci ildə Masallının Boradigah qəsəbəsində anadan olmuş, erkən çağından ailəyə kömək etmək məqsədilə təhsildən aralandığından, sonradan özünün güclü fəhmi, hazırcavablığı sayəsində axşam məktəbinə ekstern yolu ilə qəbul olunaraq VII sinif həcmində təhsil alandan sonra texnikumu əla qiymətlə başa vuraraq Xəzər Gəmiçiliyi İdarəsində mexanik kimi fəaliyyət göstərmişdir.

İslam dininə olan sonsuz məhəbbəti onu həm ərəb, həm də fars dili üzrə ikillik kursları bitirməyə səbəb olmuş, din xadimi kimi Bakıda və Hövsanda tanınmışdır. Uzun sürən ağır xəstəlikdən sonra 63 yaşında həyata əlvida deyən Hacı Rizvan qardaşım həm də şair idi.

Onun «Mən bu həyatdan doymadım» adlı kitabı bu fikrimi bir daha təsdiqləyir.

3 qız və 1 oğlan atası olan Hacı Rizvan barədə hələ də yalnız xoş sözlər eşidilir.

Mən 1955-ci ildə Boradigah qəsəbəsindəki Nizami Gəncəvi adına orta məktəbin VII sinfini əla qiymətlərlə bitirərək, Bakı Neft Texnikumuna imtahansız qəbul olunmuşam. Oranı bitirdikdən sonra Sabunçu Neft mədənində baş operator işləmişəm. Sonra da Sovet ordusunda hərbi xidmətdə olmuşam. Jurnalistikaya olan sonsuz həvəsim məni hazırkı BDU-nun filologiya fakültəsinin jurnalistika şöbəsinə gətirdi. 1963-1967-ci illərdə həmin şöbədə ali təhsil alaraq, jurnalist ixtisası qazandım. Elə o vaxtdan da jurnalist olaraq Azərbaycan mətbuatında çalışıram. 50 ildən çoxdur ki, respublikamızda nəşr olunan müxtəlif qəzet və jurnallarda jurnalistikanın bütün janrlarında müxtəlif məzmunlu yazılarla çıxış edirəm. Uzun illər «Kino yenilikləri», «İmpuls», «Məşəl», «Yeni era» qəzetlərində baş redaktor, «And», «Gələcək gün», «Naxçıvan», «Faktlar» və s. qəzetlərdə, eləcə də «Zəriflik» jurnalında redaktor işləmişəm. 2010-cu ilin may ayından 2016-cı il aprelin 15-dək Təhsil Nazirliyinitn orqanı olan «Təhsil» jurnalında şöbə müdiri vəzifəsində çalışmışam.

Mütəmadi olaraq bədii yaradıcılıqla da məşğulam. Tərif olmasın, yazıçı, publisist, şair, tərcüməçi kimi də tanınıram. Çoxlu mənsur və lirik şeirlərim mətbuatda işıq üzü görüb. Fidan balalarımızı da yaddan çıxarmıram. «İşıqlı ömür», «Qayıt,əzizim» kitablarım yaxşı qarşılanıb. Təzəcə çapdan çıxmış «Dünyamızın bəzəyidir insanlar» əsərim haqqında mötəbər qəzetlər xoş sözlər yazırlar. «Ürək deyir yaşa hələ», «Xırdalanda bir məktəb var» kitablarım çapını gözləyir.

Norveç dramaturqu B. Byörnsonun «Redaktor» adlı pyesini 6 ay ərzində dilimizə çevirmişəm. Rejissorlar tərcüməni bəyənib və onun səhnələşdirilməsini təklif edirlər. Bir neçə tərcümə kitabım da sponsor olsa, nəşr oluna bilər. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, «Qızıl qələm» mükafatçısıyam. Bütün yazılarımda dövlətimizi və dövlətçiliyimizi, partiyanın daxili və xarici siyasətini ardıcıl olaraq işıqlandırıram.

2 övlad atası, 3 nəvə babasıyam.

Oğlum Vüqar Məhərrəmov Coratda yaşayır və zavodda fəhlə işləyir. 2 oğul övladı var. Qızım Jalə Türkiyə də məskunlaşıb. 1 qızı var. Musiqi müəllimidir.

Məndən kiçik qardaşlarım Əlvan və Böyükağa ali savad almışlar. Hər ikisi təqaüdçüdür, xəstədir. Bacılarım Nəsibə, Həbibə və Şükufə artıq vəfat ediblər. Mən də sağlamlığımı itirmişəm. Bununla belə, hələ əlim qələm tutur, gözlərim görür. Əvvəlki gənclik həvəsi ilə yazıb-yaradacağam.

Allahımdan razıyam ki, mənə bu qədər ömür verib. Bundan sonra da özü bilər, dərgahına min şükür!

Bununla da tərcümeyi-halıma imza atıram.

Məhərrəmov İdris

1 noyabr, 2016-cı il